

# Azərbaycan həm hərb, həm diplomatiya meydanında qalibdir

*Sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatlarının uğurla davam etməsi beynəlxalq aləm, eləcə də bəzi dövlətlər tərəfindən birmənalı qarşılanmır. Əksər dövlətlər ədalətli mübarizədə, Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə əsasən həyata keçirdiyi siyasəti dəstəkləyən dövlətlər olsa da, Ermənistana havadarlıq edənlər də var. Maraqlı məqamlardan biri də odur ki, qoşnu ölkə olan Rusiyanın bu prosesdə...*

Səh.13


# UNİKAL

№36 (2031) 24 oktyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# "Yerevanın sülhdə marağı yoxdur" - Mehriban Əliyeva

*"Unikal" qəzeti Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Trend İnformasiya Agentliyinə müsahibəsini təqdim edir.*

*- Hər vaxtınız xeyir, hörmətli Mehriban xanım. İlk növbədə, Azərbaycanın bir sıra şəhərlərinin və yaşayış məntəqələrinin işğaldan azad edilməsi münasibətilə Sizi öz adımızdan və oxucularımızın adından təbrik etmək istərdim.*

*- Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.*

Səh.5

Səh.2



# Qubadlı, Xocavənd və Cəbrayılın kəndləri işğaldan azad edildi

## "Ermənistan iqtisadiyyatı bu itkilərin yerini doldurmaq gücündə deyil"



*Rəşadətli Azərbaycan Ordusu Ermənistanın işğalçılıq siyasətinə qarşı mübarizəsini davam etdirir. Artıq ordumuz kifayət qədər irəliləyərək qələbəni daha da yaxınlaşdırıb. Bir məqamı da qeyd etmək lazımdır ki, müharibələrdə iqtisadiyyatın rolu da vacibdir. Bu müharibədə Ermənistanın Azərbaycanla təkbaşına mübarizə...*

Səh.4

## Oqtay Şirəliyevin milyonluq tenderləri...



*Səhiyyə Nazirliyinin keçirdiyi və böyük məbləğlərlə ifadə olunan dövlət satınalamaları əslində xeyli vaxtdır həm medianın, həm də cəmiyyətin diqqət mərkəzindədir. Bu mövzuda mübahisələr, müzakirələr səngiməsə də, nazirlik dartışmaları sakitcə seyr etməklə kifayətlənir və demək olar ki, münasibət bildirmir.*

Səh.12

## "Lazım olarsa, Şuşada fəhlə kimi "lapatka" götürüb işləyəcəm" - Bayram Səfərov



*"Mən 30 il gözləmişəm ki, Azərbaycan torpaqları işğaldan azad olunsun". Bunu Unikal.org-a açıqlamasında Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov deyib. O, bildirib ki, doğma torpağı uğrunda canından keçib, şəhid olmağa hazırdır: "Bu, işğaldan azad olunmuş torpaqlarımız uğrunda aparılan mübarizədir.*

Səh.3

# İlham Əliyev və Mehriban Əliyevaya kinematoqraflardan məktub



***Türkiyə, Böyük Britaniya, İtaliya və Portuqaliyadan olan kinematoqraflar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevaya məktub yazıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Möhtərəm cənab Prezident İlham Əliyev! Əziz Mehriban xanım Əliyeva!

Biz, Böyük Britaniya, İtaliya, Portuqaliya və Türkiyədən olan kinematoqraflar 2011-2012-ci illərdə "Bakı, səni sevirəm" adlı beynəlxalq layihə işləyib hazırlamışıq. Çəkilişlər Azərbaycanın paytaxtı Bakıda həyata keçirilib. Bakının gözəlliyinə və azərbaycanlıların qonaqpərvərliyinə heyran olduq! Son günlər Azərbaycandan gələn xəbərlər bizi narahat edir. Gəncə şəhərinə raket hücumu nəticəsində günahsız insanların həyatını itirməsi bizi çox üzdü. Qurbanların ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığımızı bildiririk. Baş verənlər bizi hiddətləndirib! Müasir dünyamızda belə hallar olmamalıdır! Sizə və gözəl xalqınıza mənəvi dəstəyimizi ifadə etmək istərdik. Səmimi-qəlbdən arzu edirik ki, müharibə tezliklə başa çatsın. Qoy, Azərbaycanın ərazi bütövlüyü və Azərbaycan xalqının rifahı əbədi olsun! Biz Sizinləyik!".

Türkiyədən aktrisa Eyşan Özhim
Portuqaliyadan rejissor Andre Badalo
İtaliyadan aktyor Alesandro Bertoluçi
İngiltərədən rejissor Aleksandr Fodor
Türkiyədən prodüser Nadir Maçanov.

# Türkiyə Qarabağ münaqişəsində Rusiya ilə bərabərlik tələb etdi



***"Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Rusiyanın nə qədər iştirak hüququ varsa, Türkiyənin də bir o qədər iştirak haqqı var".***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan çıxışında deyib. "Azərbaycanın haqlı tələbi var. Əgər Ermənistan Rusiyanın danışıqlar prosesinə cəlb olunmasını istəyirsə, Azərbaycan da Türkiyənin iştirakını təklif edir. Mən Rusiyanın buna mənfi yanaşmasını eşitməmişəm".

Xatırladaq ki, bu açıqlama Rusiya lideri Vladimir Putinin ötən gün ölkəsinin münaqişənin həllində önəmindən danışmasına cavab olaraq səslənib.

# Kreml Əliyev-Paşinyan görüşünü keçirməyə hazırlaşır? - Açıqlama

***Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Azərbaycan və Ermənistan liderlərinin Moskvada görüşmə ehtimalından danışıb.***

"Unikal" Rusiya KİV-nə istinadən xəbər verir ki, Peskov Putinin Qarabağda döyüşləri dayandırmaq üçün əlindən gələni etdiyini bildirib. "Prezident Putin dünən dedi ki, həm Əliyev, həm də Paşinyanla daimi əlaqədədir. Və əlavə demək istərdim ki, döyüşləri dayandırmaq və münaqişənin həllini sülh məcrasına yönəltmək üçün Rusiya prezidenti əlindən gələni edir".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500




# Azərbaycanda daha 8 nəfər koronavirusdan öldü

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 803 yeni yoluxma faktı qeydə alınıb, 212 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Ölənlərin sayı isə 8-dir.

# Qubadlı, Xocavənd və Cəbrayılın kəndləri işğaldan azad edildi

***Rəşadətli Azərbaycan Ordusu bu gün Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad edib.***



Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tvitter səifəsində yazıb. Prezident daha sonra Xocavənd rayonunun Dolanar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad edilmısı barədə məlumat verib.

# Bu rayonlara giriş-çıxış dayandırılır - Karantin rejimi sərtləşdirildi

***Nazirlər Kabineti "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Qərarına dəyişikliklər edilib.***

"Unikal" xəbər verir ki, dəyişikliyə əsasən: Operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Sabirabad şəhəri, Sabirabad rayonunun Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndləri, Şəki şəhəri və Kiş kəndi, Lənkəran rayonunun Şağlakücə və Şıxəkəran kəndləri, Quba şəhəri, Quba rayonunun Rustov və Zərdabi kəndləri ilə yanaşı 2020-ci il 24 oktyabr saat 00:00-dan etibarən Mingəçevir şəhərinə, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarına da giriş-çıxış dayandırılır;

Gəncə, Yevlax, Mingəçevir, Lənkəran, Şəki, Şirvan şəhərləri və Göygöl, Samux, Sabirabad, Quba rayonları ilə yanaşı Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarında da 24 oktyabr saat 00:00-dan 26 oktyabr saat



06:00-dək və 31 oktyabr saat 00:00-dan 2 noyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılır.

# "Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir" - Anar Eyvazov

***"Ötən sutka ərzində düşmənin vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdləri iflasa uğrayıb".***

Unikal.org xəbər verir ki, bunu bu gün keçirilər brifinqdə Müdafiə Nazirliyinin mətbuat katibi Anar Eyvazov bildirib.



Prezident İlham Əliyevin "Tvitter" səhifəsində yazdığı kimi, daha 13 kəndin işğaldan azad olunduğunu qeyd edən A. Eyvazov deyib ki, hazırda bütün istiqamətlərində döyüşlər davam edir: "Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir. Qələbə bizimlədir!".

# XİN Ceyhun Bayramovla Pompeonun görüşü barədə məlumat YAYDI

***Azərbaycan Xarici İşlər Nazirliyi XİN rəhbəri Ceyhun Bayramovla ABŞ Dövlət katibi Mayk Pompeo arasında baş tutan görüşlə bağlı məlumat yayıb.***

XİN-dən Unikal.org-a verilən məlumata görə, nazir Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsində son vəziyyətlə bağlı müzakirə aparıb, Ermənistan tərəfinin destruktriv siyasəti, Azərbaycanlı dinc əhalinin məqsədyönlü şəkildə atəşə tutulması, xaricdən muzdluların və terrorçuların kütləvi cəlb olunması və sair məsələlər barədə ətraflı məlumat verib.

Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycanın haqlı mövqeyi BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsinə və digər beynəlxalq təşkilatların müvafiq sənədlərinə əsaslanır.

Söhbət zamanı, həmçinin Azərbaycan-ABŞ ikitərəfli əlaqələrinə



dair məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Arutyunyan Putinə yalvardı: "Döyüşləri dayandırın"

***İşğal olunmuş Dağlıq Qarabağda yaradılmış qondarma rejimin "lideri" Araik Arutyunyan Rusiya Prezidenti Vladimir Putinə müraciət edərək Dağlıq Qarabağda döyüş əməliyyatlarının dayandırılması üçün mümkün olan hər şeyi etməyi xahiş edib.***

Bu barədə A.Arutyunyanın Rusiya prezidentinə ünvanladığı



məktubda deyilir. Separatçı "lider" məktubda V.Putini dünyada və regionda böyük şəxsi nüfuza sahib olan şəxsiyyət və rəhbər adlandırıb: "Sizdən Dağlıq Qarabağ münaqişə zonasında döyüş əməliyyatlarının dayandırılması və siyasi proseslərin bərpası üçün mümkün olan hər şeyi etməyinizi xahiş edirəm".

# "Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam çıxarılması tələb olunur" – Hikmət Hacıyev

***"25 illik fasilədən sonra BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 29 sentyabr və 19 oktyabrda müzakirələr keçirilib. Təəssüf hissi ilə qeyd etmək istərdik ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğalı ilə əlaqədar 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin qəbul olmasına baxmayaraq, BMT TŞ-da Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar sonuncu müzakirələr 1995-ci ildə keçirilib".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.



Onun sözlərinə görə, BMT Təhlükəsizlik Şurasının qətnamələrində Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsi pislənilir, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu vurğulanır və Ermənistan qoşunlarının Azərbaycanın bütün işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və tam çıxarılması tələb olunur: "19 oktyabrda BMT TŞ-da Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar keçirilmiş müzakirələrdən sonra TŞ-nın sədri adından bəyanat layihəsi hazırlanmışdır. Bəyanat layihəsində BMT TŞ-nın məlum qətnamələrinə istinad öz əksini tapmamışdır. Sözügedən layihə əsasən Rusiya Federasiyası və Fransa tərəfindən hazırlanmışdır. BMT TŞ-nın qeyri-daimi üzvləri olan və Qoşulmama Hərəkatının üzvü olan İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikası iki dəfə səkut prosedurunu pozaraq, BMT TŞ qətnamələrinə istinadın bəyanata daxil edilməsinə israr etmişlər. Bununla həmin dövlətlər BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT TŞ-nın qətnamələrinə, Bandunq prinsiplərinə, QH-nın sənədlərinə sadiqliyini növbəti dəfə nümayiş etdirmişlər. Qoşulmama Hərəkatı üzv dövlətlərinin israrlı və prinsipial mövqeyindən sonra haqqında bəhs olunan bəyanat layihəsi rəsmən geri götürülmüşdür".

"Prezident İlham Əliyev İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikasına həmrəylik göstərərək ədalətli və prinsipial mövqelərinə görə təşəkkürünü ifadə edir. Bildirir ki, Qoşulmama Hərəkatının Sədri kimi, 2019-cu ildə Bakıda keçirilmiş XVIII Zirvə toplantısında çıxışında dediyi kimi bundan sonra da üzv dövlətlərin maraqlarını, beynəlxalq hüququ və ədaləti BMT-də və digər beynəlxalq təşkilatlarda müdafiə edəcəkdir. Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyev bütün QH üzv ölkələrinə müraciət edərək Bandunq Prinsipləri əsasında həmrəyliyə, birliyə və qarşılıqlı dəstəyə çağırır", - H.Hacıyev deyib.

# Bakıda karantin qaydalarını pozanlara qarşı reyd keçirildi

***Daxili işlər orqanlarının əməkdaşları arxa cəbhədə həm ölkə ərazisində elan edilən hərbi vəziyyət, həm də ki, gözlə görünməyən düşmən olan koronovirusla mübarizədə yorulmadan xidmətlərini davam etdirirlər.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən "Unikal.org"a verilən məlumata görə, infeksiyanın ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə elan edilən xu?susi karantin rejimi qaydaları çərçivəsində polis əməkdaşları tərəfindən nəzarət-profilaktik tədbirlər mütəmadi olaraq davam etdirilir. Sanitar-karantin qaydalarına əməl edilməsi xidmətə cəlb olunan əməkdaşlar tərəfindən daim nəzarətdə saxlanılır.

Qapalı yerlərdə, ictimai nəqliyyatda, mağazalarda və iaşə obyektlərində polis əməkdaşları tərəfindən insanlar arasında daim profilaktik söhbətlər aparılaraq onlara sanitar-epidemioloji normalara əməl etməyin, sosial məsafənin təmin edilməsinin, eləcə tibbi maskadan istifadənin zəruriliyi barədə to?vsiyələr verilir.

Bu məqsədlə paytaxt ərazisində mütəmadi olaraq həyata keçirilən reydlər zamanı sosial məsafəni go?zləməyən, tənəffu?s yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən şəxslər qanunvericiliyə uyg?un olaraq, inzibati məsuliyyətə cəlb olunurlar. Tədbirlər zamanı polislər tərəfindən vətəndaşlara karantin qaydalarına əməl edilməsinin zəruriliyi barədə bildirişlər də paylanılıb.

Paytaxt, eləcə də digər rayon və şəhərlərdə karantin qaydlarına əməl olunmasını təmin etmək məqsədi ilə polis əməkdaşları tərəfindən nəzarət



bundan sonra da mütəmadi olaraq davam etdiriləcək.

Qeyd edək ki, COVID-19 infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 2 noyabr saat 06:00-dək uzadılıb.

***Famil***

# "Lazım olarsa, Şuşada fəhlə kimi "lapatka" götürüb işləyəcəm" - Bayram Səfərov



***"Mən 30 il gözləmişəm ki, Azərbaycan torpaqları işğaldan azad olunsun".***

Bunu Unikal.org-a açıqlamasında Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov deyib. O, bildirib ki, doğma torpağı uğrunda canından keçib, şəhid olmağa hazırdır:

"Bu, işğaldan azad olunmuş torpaqlarımız uğrunda aparılan mübarizədir. Mən torpaqlarımız yolunda canımı da qurban verməyə hazıram. Şuşa ilə bağlı ən böyük arzum doğma şəhərimin işğaldan azad olunmasıdır. İstəyirəm ki, Şuşa şəhərimiz əvvəlki həyatına qayıtsın. Şuşa işğaldan azad olunan kimi abadlıq, quruculuq işlərinə başlamaq istəyərdim. Lazım olarsa, orada fəhlə kimi "lapatka" götürüb işləyəcəm".

***Famil Fərhadoğlu***

# "Şəhid Milli Qəhrəmanın adı Qubadlıda əbədiləşdiriləcək" - İlham Əliyev

***Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Qəhrəman, Qubadlının azadlığı uğrunda şəhid olmuş Şükür Həmidovun atası Nəriman Həmidovla telefonla danışıb.***

Unikal.org xəbər verir ki, dövlətimizin başçısı Şükür Həmidovun həlak olması ilə bağlı başsağlığı verib, qeyd edib ki, Şükür Həmidov hələ Aprel döyüşləri zamanı göstərdiyi şücaətə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş və Azərbaycan Prezidenti şəxsən özü ona qəhrəman ulduzunu təqdim etmişdi. Dövlətimizin başçısı qeyd edib ki, Şükür Həmidov bu dəfə Qubadlı rayonunun azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Prezident İlham Əliyev Şükürün doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlı rayonunda onun adının əbədiləşdiriləcəyini vurğulamışdır.

Nəriman Həmidov dövlətimizin başçısına təşəkkürünü bildirərək Azərbaycan xalqının Ali Baş Komandan kimi onun ətrafında sıx birləşdiyini və bundan sonra da Azərbaycan Prezidentinə dəstək olacağına əminliyini ifadə edib.

Prezident İlham Əliyev Nəriman Həmidovla görüşünü də xatırlayaraq ona Şükür kimi igid və vətənə sadiq övlad yetişdirdiyinə görə minnətdarlığını bildirib, Həmidovlar ailəsinin bütün yaxınlarına başsağlığı çatdırmağı xahiş edib.

# Kürd əsilli muzdluların Ermənistan tərəfdə döyüşdüyü təsdiqləndi

***Erməni əsir kürd əsilli muzdluların Ermənistan tərəfdə döyüşdüyünü etiraf edib.***

Unikal.org-un məlumatına görə, Mikaelyan Albert Yervandi 7 sentyabr 2001-ci il tarixdə Ermənistanın Şirak vilayətinin Artik şəhərində anadan olduğunu deyib.

"2019-cu ilin dekabr ayının 19-da hərbi xidmətə çağırılmışam. Gümrü şəhərində xidmət etmişəm. Orada 6 ay "Faqot"dan istifadə etməyi öyrəndikdən sonra kiçik serjant rütbəsi almışam. Ondan 6 ay sonra mən Martuni şəhərində yerləşən hərbi hissəyə göndərilmişəm. Orada tank əleyhinə tağımda olmuşam. Həmin tağımda müntəzəm olaraq hərbi təlimlər keçirilirdi. Hərbi hissədə müddətli, müddətdən artıq hərbi qulluqçular və kürd əsilli muzdlulardan ibarət 1500 nəfər var idi. Orda muzdlular hər ay 600 ABŞ dolları pul alırdılar və onlar ancaq öz dillərində danışırdılar. 10-15 nəfərlik dəstələrdən ibarət olan muzdlular yerli şəraiti öyrənirdilər və döyüşə hazırlaşırdılar", - deyə A. Mikaelyan bildirib.

***Famil***

# İsrailin Azərbaycandakı Səfiri Mingəçevirdəki elektrik stansiyalarında oldu

***Oktyabrın 23-də İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Corc Dik Mingəçevir şəhərinə humanitar səfər edib.***

Unikal.org xəbər veirr ki, o Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES-də olub.

Qeyd edək ki, oktyabr ayı ərzində dəfələrlə Mingəçevir şəhərinə, ələlxüsus enerji obyektlərinə erməni silahlı birləşmələri tərəfindən dəfələrlə ballestik raketlər atılıb. Həmin raketlərin əksəriyyəti Hərbi Hava Qüvvələri tərəfindən zərərsizləşdirilib və 2 ədəd raket hissəsi oktyabrın 4-də və 11-də "Azərbaycan" İES-in ərazisinə düşüb.

Səfir Corc Dik əvvəlcə "Azərbaycan" İES-in ərazisində ucaldılan Ulu Öndər Heydər Əliyevin heykəlinin və Şəhidlər abidəsinin önünə gül dəstələri qoyub. Sonra səfir stansiyanın ərazisini gəzərək raket düşən yerlərlə tanış olub.

Səfər zamanı "Azərenerji" ASC-nin və stansiyaların mütəxəssisləri tərəfindən stansiyaların fəaliyyəti, aparılan yenidənqurma işləri və baş vermiş terror aktlarının təfsilatları barədə səfirə məlumat verilib.

Sonra səfir "Mingəçevir" Su Elektrik Stansiyasına gəlib və oradakı vəziyyətlə tanış olub.



## DİN-dən erməni terroru ilə bağlı xəbərdarlıq

***"Ermənistan terror siyasəti yürüdən dövlət olaraq ayrı-ayrı vaxtlarda ölkəmizin ərazisində 30-dan çox terror aktı təşkil edib".***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qurum vətəndaşlara bununla bağlı müraciət edib:

"Odur ki, gördüyünüz, rastlaşdığınız şübhəli əşyalara toxunmayın, bu barədə dərhal "102" Xidmətini və ya yaxınlıqda xidmət aparan polis əməkdaşlarını məlumatlandırın. Düşmənin məkrli olduğunu unutmayaq. Vahid məqsəd uğrunda günbəgün sıxlaşan cərgələrimizlə Qələbə gününü daha da yaxınlaşdıraq. Qarabağ Azərbaycandır!".

***Famil***

## Vilayət Eyvazov daha bir generalı işdən çıxardı

***Daxili İşlər Nazirliyində kadr dəyişikliyi edilib.***

Unikal.org Oxu.Az-a istinadən xəbər verir ki, bu barədə nazir, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, DİN-in Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi, polis general-mayoru Elşən Kazımov təqaüdə göndərilib.

Hazırda onun vəzifəsi müavini, polis polkovniki Arzu Məmmədova həvalə edilib.

## Düşmənin 4 PUA-sı zərərsizləşdirildi - RƏSMİ

***Oktyabrın 23-ü saat 03.00-dan 09.00-dək Ermənistan silahlı qüvvələrinə məxsus 2 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.***

Bu barədə Unikal.org-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Digər 2 PUA isə xüsusi texniki vasitələrlə yerə endirilib.

## Sabiq erməni deputatı məhv edildi

***Azərbaycanın işğal altında olan torpaqlarında - Dağlıq Qarabağda gedən döyüşlərdə Ermənistan parlamentinin sabiq deputatı David Matevosyan öldürülüb.***

Unikal.org xəbər verir ki, onun Azərbaycan hərbçiləri tərəfindən məhv edilməsi xəbərini qızı Ermina Matevosyan özünün "facebook" səhifəsində yazıb.

Qeyd edək ki, o, Azərbaycan Ordusunun öz torpaqları uğrunda qətiyyətli mübarizəsi şəraitində Birinci Qarabağ Müharibəsində iştirak edib. Matevosyan 1995-1999-cu illər arasında deputat olub.

# "Ermənistan iqtisadiyyatı bu itkilərin yerini doldurmaq gücündə deyil"

## Teyyub Qənioğlu: "Heç bir xarici dəstək dilənçi Ermənistanı labüd məğlubiyyətdən qurtara bilməyəcəkdir"

***Rəşadətli Azərbaycan Ordusu Ermənistanın işğalçılıq siyasətinə qarşı mübarizəsini davam etdirir. Artıq ordumuz kifayət qədər irəliləyərək qələbəni daha da yaxınlaşdırıb. Bir məqamı da qeyd etmək lazımdır ki, müharibələrdə iqtisadiyyatın rolu da vacibdir. Bu müharibədə Ermənistanın Azərbaycanla təkbaşına mübarizə aparması mümkünsüzdür. "Unikal" qəzetinə müsahibə verən Təkamül Partiyasının sədri, iqtisadçı alim Teyyub Qənioğlu ilə də söhbətimiz savaşın iqtisadi itkiləri və qazancları barədə oldu.***

***-Teyyub bəy, artıq ordumuz ard-arda ciddi irəliləyişlərə nail olub. Öncə bu barədə fikirlərinizi bilmək istərdik.***

-Hansı qərarın nə vaxt verilməsinin məqsədəuyğunluğunu düzgün ölçüb-biçən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan işğala son qoyulması, Vətən Müharibəsinə başlanması üçün şanlı ordumuza hücum əmri verdi! Çoxdan, səbrsizliklə bu əmri gözləyən, xalqımızın, Ali Baş Komandanın hərtərəfli dəstəyinə arxalanan igid əsgər və zabitlərimiz bu əmri şərəflə yerinə yetirməkdə, müqəddəs torpaqlarımızı qarış-qarış mənfur düşməndən azad etməkdədir. Vətən Müharibəsinin başlanmasından sonra görünür ki, hərb cəbhəsində şanlı ordumuz şəksiz üstünlüyə malikdir və torpaqlarımızın işğaldan tamamilə azad ediləcəyi, ərazi bütövlüyümüzün təmin ediləcəyi gün uzaqda deyildir.

***-Vətən Müharibəsi başlayandan bəri siyasi qüvvələr də müxalifət-iqtidar deməndən vahid mövqedən çıxış edirlər. İctimai-siyasi arenada bu vahid mövqeyə gəlmək nə dərəcədə önəmli oldu?***

-Azərbaycanda fəaliyyət göstərən müxalifət partiyaları həmişə açıq şəkildə bəyan etmişlər ki, söhbət ümummilli məsələlərdən, xalqımızın, dövlətimizin ümumi mənafelərinin qorunmasından gedirsə, iqtidar-müxalifət münasibətləri arxa plana keçməli, hamı bu mənafelər uğrunda sıx birləşməlidir. Ölkəmizdə faliyyət göstərən iqtidarlı-müxalifətli 50 siyasi partiya Ermənistanın 27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı törətdiyi genişmiqyaslı təxribatı pisləyən birgə bəyanat qəbul edib. Mübaliğəsiz demək olar ki, müxalifət partiyalarının bu cür mövqe sərgiləməsi ölkəmizdə mövcud olan sosial-siyasi sabitliyin qorunmasında, xalqımızın və dövlətimizin bütün səylərinin Vətən Müharibəsinin qələbə ilə başa çatmasına yönəldilməsində əhəmiyyətli rol oynamış və oynamaqdadır. Mövqeyindən asılı olmayaraq iqtidarlı-müxalifətli bütün siyasi partiyalar bir daha nümayiş etdirdi ki, bu dövlət bizimdir və onun mənfeyi hər şeydən üstündür.

***-Beynəlxalq aləmin, iri dövlətlərin bu prosesə münasibəti barədə nə deyə bilərsiniz? Sizcə, ikili standartlara ara vermək zorunda qalıblar, yoxsa necə?***

- Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu ikili standartların nəticəsidir ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan iri dövlətlərin mənfeyinə toxunduqda Təhlükəsizlik Şurasının qətnamələri dərhal yerinə yetirilir, amma onların mənafeyinə zidd olduqda illər boyu kağız üzərində qalır. Hər şeydən göründüyü kimi, qeyd edilən iri dövlətlər, beynəlxalq hüquqa, BMT Nizamnaməsinə zidd olaraq, özlərinin mənfeyinə xidmət etdiyindən, 30 ildir Ermənistanın işğalçılıq hərəkətlərinə nəinki göz yumurlar, əksinə ona hərtərəfli yardım göstərməklə işğalı əbədiləşdirməyə sovq edirlər. Məhz ikili standartların nəticəsidir ki, Azərbaycan öz torpaqlarını BMT Nizamnaməsinə uyğun olaraq hərb yolu ilə azad etməyə başlayanda, yenə də, təcavüzkar Ermənistanı dəstəkləməyə, bütün vasitələrdən istifadə edərək şanlı ordumuzun hücumlarını dayandırmağa cəhd edirlər. Unudurlar ki, Azərbaycan ötən əsrin 90-cı illərinin Azərbaycanı deyil, eləcə də, dünyada tək deyil, arxasında Türkiyə kimi əzəmətli qardaş ölkə var. Ona görə də, inanırıq ki, bu dəfə ikili standartlar təcavüzkar Ermənistanı haqlı məğlubiyyətdən qurtara bilməyəcək.

***-Teyyub bəy, müharibə həm də ciddi iqtisadi xərc deməkdir. Bu savaşın tərəflər üçün iqtisadi xərclərini dəyərləndirsək, nə demək olar?***

- Azərbaycan iqtisadiyyatı müharibə prosesində təbii olan itkilərini öz hesabına doldurmaq gücündədir. Ermənistan isə zəif, xarici yardımdan asılı olan, böhran vəziyyətinə düşmüş iqtisadiyyata malikdir. Ermənistanın apardığı işğalçılıq siyasətində həmişə xarici havadarlarının əvəzsiz yardımına arxalanmış, ordusunu Rusiyanın pulsuz verdiyi silahlarla silahlandırmışdır. 24 gün ərzində Azərbaycan ordusu erməni silahlı qüvvələrinin 2,4 milyard dollarlıq texnikasını sırada çıxarmışdır ki, bu da Ermənistanın illik büdcəsinə bərabər olmaqla, illik hərbi büdcəsindən dörd dəfə çoxdur! Ermənistan iqtisadiyyatı bu itkilərin yerini doldurmaq gücündə deyil. Ona görə də, regionumuzda formalaşmış güc balansını "nəzərə alan", ona açıq dəstək verməyə cəsarət etməyən xarici himayədarları, qaçaqmalçılıq yolu ilə ermənilərin itkilərinin yerini doldurmağa çalışırlar. Ancaq inanırıq ki, heç bir xarici dəstək dilənçi Ermənistanı labüd məğlubiyyətdən qurtara bilməyəcəkdir!

***-Belə görünür ki, qısa müddətdə torpaqlarımız işğaldan azad olunacaq.Düşməndən təmizlənən ərazilər ölkə iqtisadiyyatına hansı töhfələr verə biləcək?***

-Ərazimizin 20%-i uzun müddətdir ki, işğal altındadır. Erməni təcavüzü nəticəsində minlərlə təsərrüfat subyektimiz dağıdılıb, əmlakı qarət edilib. Bir milyona yaxın soydaşımız qaçqın və köçkün vəziyyətindədi. Onların məsgunlaşması, güzəranlarının təmin edilməsi üçün bu müddət ərzində büdcədən milyardlarla manat vəsait xərclənib. Əgər bu itkilər olmasa idi Azərbaycanımız daha sürətlə inkişaf edər, daha da güclü olardı. Məlumdur ki, düşmən işğalına məruz qalmış ərazilərimiz təbii sərvətlərlə, xüsusilə qızıl, gümüş, mis, mərmərləşmiş əhəng daşı, qalın meşələrlə və s. zəngindir. İşğaldan azad ediləndən sonra bu ərazilərimizdə mövcud olan təbii sərvətlərdən istifadə edilməsi Azərbaycan iqtisadiyyatının daha da inkişaf etdirilməsinə, xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edəcəkdir. İndi əsas məsələ işğala son qoymaqdır və inanırıq ki, bu gün uzaqda deyil. Heç kəsin buna şübhəsi olmasın.

***Z.Məmmədli***



**"Mövqeyindən asılı olmayaraq iqtidarlı-müxalifətli bütün siyasi partiyalar bir daha nümayiş etdirdi ki, bu dövlət bizimdir və onun mənfeyi hər şeydən üstündür"**

# "Yerevanın sülhdə marağı yoxdur" - Mehriban Əliyeva



***"Unikal" qəzeti Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Trend İnformasiya Agentliyinə müsahibəsini təqdim edir.***

***- Hər vaxtınız xeyir, hörmətli Mehriban xanım. İlk növbədə, Azərbaycanın bir sıra şəhərlərinin və yaşayış məntəqələrinin işğaldan azad edilməsi münasibətilə Sizi öz adımızdan və oxucularımızın adından təbrik etmək istərdim.***

- Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!

Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm.

***- Sizin söylədiyiniz hər bir kəlmə xalqımızın istəyi ilə həmahəngdir və əməllərdə, hərəkətlərdə misli görünməmiş fəallıq doğurur. Sizin müraciətinizdən dərhal sonra həmvətənlərimizin erməni yalanlarını və böhtanlarını ifşa etməyə yönəlmiş səyləri buna parlaq sübutdur.***

- İnformasiya məkanında fəallıq göstərmək barədə çağırışıma qoşulan hər kəsə təşəkkür etmək istəyirəm. Biz daim yadda saxlamalıyıq ki, qarşıdurma təkcə bilavasitə döyüş əməliyyatları bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Mən bizim gənclərimizin, vətəndaşlarımızın erməni təbliğatının feyklərini necə ifşa etdiklərini, erməni təcavüzü haqqında həqiqəti bütün mümkün platformalarda beynəlxalq ictimaiyyətə necə çatdırdıqlarını görürəm. Onların haqq səsi tarixin saxtalaşdırılması hallarını aşkar etməyə və tamamilə əsassız, açıq-aydın yalan, təhrikçi materialların yayılmasının qarşısını almağa kömək edir.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm, onların obyektivliyi və yüksək peşəkarlığı sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün olur.

Əllərinə bayraq götürərək təcavüzkara etirazlarını bildirən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən xaricdə yaşayan soydaşlarımızı qeyd etməmək mümkün deyil. Azərbaycan xalqı ilə həmrəy olan, ona dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən dünyadakı bütün dostlarımıza minnətdaram.

Bu gün biz hamımız cəbhədə baş verənlər barədə fikirlərlə yaşayırıq. Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir. Buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik. Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır.

***- Mehriban xanım, Siz bəyanatlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, hətta düşmənin mülki əhaliyə qarşı vəhşicəsinə təxribatlarına baxmayaraq, xalqımız inanılmaz ruh yüksəkliyi və mərdlik nümayiş etdirir.***

- Təəssüf ki, erməni tərəfi məqsədyönlü şəkildə nəinki beynəlxalq konvensiyaların tələblərini pozur, hətta əxlaq normalarını tapdalayır.

Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrinin dinc əhalisinə edilən hücumlar Ermənistanın Azərbaycana qarşı məkrli siyasətini açıq ifşa edir. Dəfn mərasimi zamanı qəbiristanlığı necə atəşə tutmaq olardı? Gecə vaxtı, sakinlər yatarkən Gəncə şəhərini raket atəşinə necə məruz qoymaq olardı? Günahsız mülki şəxslər, uşaqlar, qadınlar həlak olub. Bu, insanlığa qarşı cinayətdir, bu, terrorizmdir. Bütün bunlar birmənalı şəkildə göstərir ki, Yerevanın sülhdə marağı yoxdur, o, yalnız münaqişənin eskalasiyasını, onun regional qarşıdurmaya çevrilməsini arzu edir.

Lakin Ermənistanın heç bir alçaq əməli, - nə siyasi platformaya əsaslanan iyrənc provokasiyaları, nə informasiya məkanında məkrli avantüraları, nə dinc vətəndaşlara vəhşicəsinə hücumları, - heç nə Azərbaycan xalqının iradəsini sındıra bilməz. Birlik, həmrəylik, bir-birinin dərdinə şərik olmaq və qarşılıqlı dəstək nümayişi müəyyən mənada heç kəsin heç vaxt bizim iradəmizi və Vətənimizi işğaldan azad etmək istəyimizi sındıra bilməyəcəyinə dair Azərbaycan xalqının ismarıcıdır.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa və Azərbaycanın mülki əhalisinə qarşı vəhşicəsinə qəddarlığı kəskin pisləməyə çağırıram. Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzü dayandırmağa çağıran qətnamələrinə etinasızlığa son qoymalıdır.

Azərbaycan dövlətinin heç vaxt başqalarının torpaqlarında gözü olmayıb. Biz dinc əhaliyə hücum etmirik. Bizim işimiz haqq işidir. Bizim ordumuz Azərbaycan torpaqlarını işğaldan azad edir. Bizim əsgərlər qəhrəmanlıq və igidlik göstərərək Vətən uğrunda şərəflə döyüşür, öz adlarını Azərbaycanın tarixinə yazırlar. Mən bütün yaralıların tezliklə sağalmalarını arzu edirəm. Həlak olmuş hərbi qulluqçuların ailələrinə, doğmalarına dərin hüznlə başsağlığı verirəm. Vətən naminə şəhid olmuş igid övladlarımıza Allah rəhmət eləsin. Onların qanı yerdə qalmayacaq və qalmır. Düşmənə layiq olduğu cavab verilir.

Mənim tapşırığımla Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edilir. Bu gün bizim bütün yaralı əsgər və zabitlər tezliklə ayağa qalxmaq və Vətən uğrunda ədalətli mübarizəni davam etdirmək üçün yenidən döyüş əməliyyatları zonasına yola düşmək istəyirlər. Budur Azərbaycan xalqının ruh yüksəkliyi və vətənpərvərliyi.

***- Mehriban xanım, Siz bu günlərdə xalqımızın qeyri-adi birliyini qeyd etdiniz. Koronavirus pandemiyasına qarşı mübarizədə bir növ şüara çevrilmiş "Biz birlikdə güclüyük!" cümləsini hamımız xatırlayırıq. Demək olarmı ki, bu gün həmin cümlə xüsusi məna kəsb edir?***

- Bu, şübhəsiz belədir. Biz yalnız birliyimizi qorumaqla və Prezidentin ətrafında sıx birləşməklə bu ilin yadda qalacağı bütün çağırışları və çətinlikləri dəf edə bilərik.

Siz koronavirus pandemiyasını xatırlatdınız və mən bu məsələyə bir qədər ətraflı toxunmaq istərdim. Biz bu günədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində dünyanın bir çox ölkələrinin üzləşdiyi faciəli ssenaridən xilas ola bilmişik. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır. Biz epidemiya ilə mübarizənin bütün aspektlərini koordinasiya edən peşəkar komanda yaratmağa, zəruri texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Tətbiq edilmiş karantin tədbirləri koronavirusun yayılma sürətini azaltmağa kömək etdi. Biz birlikdə Vətənimizi bu xəstəliyin təhlükəli surətdə yayılmasından qoruya bildik.

Təəssüf ki, çoxsaylı ölkələrə və xalqlara bu qədər bəla və iztirab gətirmiş virusa hələ də qalib gəlmək mümkün olmayıb. O, hələ də ciddi təhlükə mənbəyidir, bütün dünyada pisləşməkdə olan statistika buna sübutdur. Pandemiyaya qarşı mübarizə hələ davam edir. Avropa dövlətlərinin çoxunda çoxsaylı məhdudiyyətlər yenidən qüvvəyə minir.

Təəssüf ki, bizim ölkəmiz də istisna deyil. Məlumdur ki, son günlərdə yoluxanların sayının artması müşahidə olunur, təhsil müəssisələrində, ictimai nəqliyyatda yenidən bəzi məhdudiyyətlər tətbiq edilib.

Mən sizin hər birinizi koronavirusun təhlükəli olduğunu unutmamağa, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyə, məsafəyə riayət etməyə, həqiqətən real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyə çağırıram. Bizə yaxşı məlum olan bütün bu qaydalar yoluxma riskini azaltmağa və deməli, bizi və yaxınlarımızı xəstəlikdən qorumağa kömək edər. Biz yaşlı nəslə həmişə xüsusi qayğı və hörmətlə yanaşırıq. Pandemiyanın birinci mərhələsi dövründə biz onları qayğı ilə qoruduq. Əminəm ki, indiki şəraitdə biz daha diqqətli olacağıq.

Bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır. İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda, ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq.

Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!

# “Bu istiqamətlərdə yeni xoş xəbərləri ola bilər...” - Deputat



*“Yaxın zamanda Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində yeni xoş xəbərləri alacağıq”.*

“Unikal” xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O, Müdafiə Nazirliyinin məlumatına əsaslanaraq qeyd edib ki, rəşadətli ordumuz düşmənin bir neçə dayaq məntəqəsi dağıdıb, vacib ərazi və yüksəklikləri işğaldan azad edib:

“İntensiv döyüşlərin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində getdiyini nəzərə alsaq, bu, o deməkdir ki, yaxın zamanda həmin ərazilərdən yeni xoş xəbərləri alacayıq.

Qarabağda soyuq havalar noyabr ayından müşahidə edilir və bu baxımdan ordumuzun vacib yüksəklikləri azad etməsi növbəti mərhələdə döyüş şəraitinə tam nəzarət etməyimiz baxımdan çox vacibdir. Şanlı ordumuzun irəlilədiyini, işğalçı ordu arasında fərariliyin kəskin artdığını nəzərə alsaq, Böyük Qələbəyə hər gün daha da yaxınlaşdığımızı söyləmək olar. Qarabağ Azərbaycandır!”.

# Paşinyan psixoloji sarsıntı keçirir, Moskva görüşündən sonra..." - Şərh

***Bu gün Ermənistanın Baş naziri Nikol Paşinyan çox böyük psixoloji sarsıntı keçirir. Artıq onun ruhi durumu da sağlam deyil. Çünki ruhi durumu sağlam olan adam belə çağırışlar edə bilməz. Bu adam bir müddət öncə açıqlamalar verirdi ki, münaqişənin sülh yolundan başqa həlli mümkün deyil. Ötən gün isə deyir ki, Dağlıq Qarabağın diplomatik həll variantı yoxdur.***

Bu fikirləri Teleqraf.com-a açıqlamasında Milli Məclisin Müdafiə, Təhlükəsizlik və Korrupsiya ilə mübarizə komitəsinin sədri, millət vəkili Ziyafət Əsgərov deyib.

Komitə sədrinin sözlərinə görə, hər iki ölkənin xarici işlər naziri Moskvada mühüm görüşdən qayıdar-qayıtmaz Paşinyan belə bir bəyanatla çıxış etdi:

”Bu yanaşma eyni zamanda Moskvanın özünə də böyük hörmətsizlikdir. Eyni zamanda həmsədr dövlətləri, bütövlükdə beynəlxalq hüququ heçə saymaq deməkdir. Parlamentdəki çıxışlarımda da bildirmişəm ki, işğalçı Ermənistan ordusuna layiq olduğu cavab verilməsə, onlar real durumu dərk etməyəcəklər”.

**Millət vəkili bildirib ki, ordumuza müəyyən dövrlər çox vəsait xərclənirdi:**

”Həmin ayrılan vəsaitlər məhz bu gün üçün lazım idi. Döyüş meydanında düşmənə qalib gəlmək üçün müasir silahların olması başlıca şərtdir. İndiki halda isə düşmən ordusunun potensialı Azərbaycanın güclü, rəşadətli Ordusu ilə müqayisədə bərbad durumdadır. Eyni zamanda erməni silahlı birləşmələrinin döyüş ruhu belə yox dərəcəsindədir”.

**Deputat qeyd edib ki, azad edilən torpaqlarımızda ən zəruri infrastrukturlar bərpa ediləcək:**

“Bunu Prezident xalqa müraciəti zamanı vurğulayıb. İşğaldan azad edilən torpaqlarımızda evlər tikiləcək, şəhərlər yenidən qurulacaq, həyat öz axarına düşəcək. İnşallah tezliklə bütün işğaldan azad edilən torpaqlarımızda həyat yenidən bərpa ediləcək, uşaq gülüşü oralara qayıdacaq”.

# “Bu, Paşinyan üçün ölümə bərabərdir” – Tahir Kərimli

***Əslində Ermənistan Baş naziri Nikol Paşinyan yaxşı anlayır ki, döyüş meydanında uduzub. Belə olan təqdirdə danışıqlara gəlsə, həqiqəti etiraf edəcək və məcbur olaraq rayonların Azərbaycana qaytarılmasına razılıq verəcək. Verməmək imkanı da yoxdur. Amma bu durum Ermənistanın daxili cəmiyyətinə ciddi təsir edəcək. Yəni sadə erməni deyəcək ki, sən elə əvvəlcədən buna razılıq verərdin, bizi uduzdurub və qırdırdıqdan sonra niyə edirsən? Bu, Paşinyan üçün ölümə bərabərdir. Odur ki, onun geriyə yolu qalmayıb.***

Bu fikirləri Teleqraf.com-a Milli Məclisin deputatı Tahir Kərimli deyib. Ona görə, məhz bu səbəblərdən Paşinyan bəyan edir ki, ya qalib gəlməliyik, ya da məğlub olmalıyıq:

“Özü də yaxşı bilir ki, məğlub olacaq. Həqiqətən də danışıqlar yolu ilə məhvə məhkum olduğunu anlayır. Açığı budur ki, onun ümid bəslədiyi bütün dövlətlər, o cümlədən həmsədr ölkələr danışıqlar prosesində açıq deyirlər ki, beynəlxalq hüquqa hörmət göstərməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməlisən.

Bu, Paşinyan üçün siyasi intihardır. Ona görə də bu cür açıqlama verir və əhalisini döyüşlərə səsləyir. Amma anlamaq lazımdır ki, onların ciddi resursları yoxdur. Bu işin sonu əvvəl-axır məğlubiyyətdir”.

# Alimpaşa Məmmədov kreslosu ilə vidalaşır

## Şəmkirin icra başçısını vəzifəsindən kənarlaşdırmaq üçün xeyli səbəb var

***Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov vəzifəsindən kənarlaşdırıla bilər. Bu barədə ”Unikal” qəzetinə məlumatlı mənbələrdən bildirilib.***

Qeyd olunub ki, onun postunu itirməsinə səbəb isə son vaxtlar rayonun ən müxtəlif sahələrində aparılan rəsmi yoxlamalar zamanı ortaya ciddi korrupsiya faktlarının çıxmasıdır. Mətbuatda və cəmiyyətdə



A.Məmmədovun icra başçısı təyin edildikdən sonra Şəmkir rayonunda rüşvətə, korrupsiyaya geniş meydan verdiyi barədə fikirlər, iddialar çoxdan səslənirdi. Xüsusilə Hesablama Palatasının axır iki ildə həyata keçirdiyi auditlər nəticəsində aşkarlanan yeyinti halları bu iddiaların, ittihamların əsassız olmadığını göstərib.

”Bu səbəbdən də hazırda Alimpaşa Məmmədovun adı vəzifəsindən kənarlaşdırılması gözlənilən icra başçılarının siyahısında ilk sıralarda çəkilir” - deyə mənbəmiz bildirib.

”Unikal”ın araşdırması nəticəsində o da aydınlaşıb ki, həqiqətən də Hesablama Palatasının son vaxtlar Şəmkir rayonunda apardığı audit yoxlamaları nəticəsində saysız-hesabsız nöqsanlar üzə çıxıb. Məsələn, bu ilin iyununda Şəmkir şəhərindəki 14 saylı Ərazi Vergilər İdarəsində (ƏVİ, Şəmkir şəhəri) vergi qanunvericiliyinə riayət edilməsi vəziyyəti ilə bağlı həyata keçirilmiş nəzarət tədbirinin nəticələrinin müzakirəsi zamanı məlum olub ki, həmin idarə tərəfindən hesabat dövrləri ərzində bir sıra parametrlər üzrə proqnozların tam icra olunmadığı, bəzi hallarda vergi öhdəliklərinin dövlət büdcəsinə vaxtında və tam həcmdə cəlb olunmadığı, həmçinin vergi ödəyicilərinin dövlət büdcəsi qarşısında öhdəliklərinin könüllü bəyanetmə və ödəmə səviyyəsinin qənaətbəxş olmadığı müəyyən edilib.

Ötən il isə Hesablama Palatasının Kollegiyası müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq, dövlət büdcəsindən Şəmkir Rayon Mərkəzi Xəstəxanasına ayrılan vəsaitlərin xərclənməsi zamanı (RMX) ciddi nöqsanlar aşkarlayıb. Məlum olub ki, əmək haqlarının hesablanması və ödənilməsi zamanı bir sıra normativ hüquqi sənədlərin tələbləri gözlənilməyərək tarif dərəcələrinin düzgün müəyyənləşdirilməməsi, gecə vaxtı yerinə yetirilən işə görə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü görülən işə görə əlavənin tarif maaşı əvəzinə əmək haqqına tətbiq edilməsi nəticəsində artıq əmək haqqı ödənilib. Bir sıra işçilər işdə olduqları halda onların adına bir ildə 2-3 dəfə məzuniyyət rəsmiləşdirilərək əmək haqqı və eyni zamanda məzuniyyət pulu ödənilmiş, qismən ödənişli sosial məzuniyyətdə olan bir sıra işçilərə sosial məzuniyyətdə olduqları dövrdə əmək haqqı hesablanıb, bir sıra işçilərə hesablanmış əmək haqları məbləğləri azaldılaraq digər işçilərin kart hesablarına köçürülüb və s.

Hesablama Palatası Şəmkir MRX-də üzə çıxardığı korrupsiya halları, hüquq pozuntuları üzrə müvafiq materialları qanunvericiliyə uyğun olaraq tədbir görülməsi məqsədilə Baş Prokurorluğa göndərib.

Bundan əvvəl isə Hesablama Palatası dövlət büdcəsinin yerli xərclərindən 2014-2015-ci illərdə və 2016-cı ilin 1-ci rübündə Şəmkir rayon Təhsil Şöbəsinə (Şöbə) ayrılmış vəsaitlərin proqnozlaşdırılması və icrası vəziyyəti ilə bağlı həyata keçirilmiş audit nəticəsində bir sıra yeyinti halları aşkarlayıb. Həmin vaxt təhsilin keyfiyyət göstəricilərinin təhlili nəticəsində attestat alanların yalnız 40,52%-nin qəbul imtahanlarında iştirak etmək üçün müraciət etdiyi, onlardan 41,33%-nin tələbə adını qazandığı, rayon abituriyentlərinin ana dili, riyaziyyat, fizika, kimya, biologiya, tarix, coğrafiya və ingilis dili fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağı olduğu müəyyənləşib. Eyni zamanda audit dövrünün sonuna kreditor borcun məbləği 5,9 dəfə artaraq 126 min manat olub. Həmin məbləğin 70,1%-ni kommunal xidmətlərin haqqının ödənişi ilə bağlı yaranmış borclar təşkil edib, həmçinin müxtəlif mal-material qiymətləri uçota alınmayıb.

Bu deyilənlərdən də aydın olur ki, yerli mətbuatda Şəmkir rayonundakı rüşvət, korrupsiya halları ilə bağlı yazılanlar əsassız olmayıb və reallıqla xeyli dərəcədə səsləşir. Belədə rayonun İcra Hakimiyyəti başçısının əvəzlənəcəyi barədə deyilənləri təbii qarşılamaq lazımdır.

Ordumuzun işğalda olan torpaqların azad edilməsi istiqamətində apardığı uğurlu əməliyyatlar həlledici qələbə ilə yekunlaşdıqdan sonra yəqin ki, ölkədə kadr və struktur islahatlarının yeni dalğasının şahidi olacağıq. Öz işinin öhdəsindən gəlməyə çətinlik çəkən bir çox iri məmurlar, vəzifə sahibləri, o cümlədən, Alimpaşa Məmmədovla bağlı qərarın da məhz həmin vaxt veriləcəyi şübhə doğurmur.

***Sənan Mirzə***

# Səlim Müslümovun icra başçısı olmuş dayısına yeni ittihamlar...

## Ənvər Seyidəliyev vəzifədən getsə də, haqqında iddialar səngimir

***20017-ci ildə Ağsu Rayon İcra Hakimiyyətinin başçısı təyin edilən və 12 il həmin postu tutan Ənvər Seyidəliyev hələ vəzifədə olarkən ən çox tənqid edilən rayon rəhbərlərindən biri idi. Sabiq Əmək və Əhalinin Sosial müdafiəsi naziri Səlim Müslümovun dayısı olan Seyidəliyev Ağsuda yüksək postlara qohum-əqrəbalarını yerləşdirməkdən tutmuş, rüşvət və korrupsiyayacan bir çox qanunsuzluqlarda günahlandırılırdı.***

Onun özünə geniş ailə biznesi qurması və saysız-hesabsız gəlir qaynaqları yaratması da deyilənlərdə həqiqət payının yüksək olduğuna dəlalət edirdi. Eyni zamanda onun "vurulması" da fəaliyyətindən yuxarı dairələrin də narazılığının təsdiqidir; Müslümovun dayısı Ağsuya rəhbərlik etdiyi dövrdə bu rayondan təkcə mətbuata yox, hökumət orqanlarına şikayətlərin də ardı-arası kəsilmirdi.Maraqlısı budur ki, Seyidəliyev artıq ötən ildən icra başçısı postundan kənarlaşdırılıb, ancaq onun kresloda olduğu müddətdə yol verdiyi nöqsanların əks-sədası səngimək bilmir.



Söhbət 2019-cu ilin fevralında Ağsuda baş verən zəlzələ zamanı dağıntıların aradan qaldırılması və zərərçəkənlərə yardım edilməsi ilə bağlı dövlət büdcəsindən ayrılan vəsaitin təyinatı üzrə xərclənməsinə dair şübhələrdən gedir.

Belə ki, ötən ilin noyabrında ölkə başçısının Sərəncamı ilə zəlzələ nəticəsində Ağsu rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Ağsu Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılıb. Həmin vaxt artıq üç ay idi ki, Ənvər Seyidəliyev icra başçısı postundan ayrılmışdı.

"Müslümovun dayısının vəzifəsindən kənarlaşdırılmasında mühüm məqamlardan biri də zəlzələ ilə bağlı daha əvvəl ayrılan dövlət vəsaitinin qeyri-şəffaf xərclənməsi idi. Nəticədə növbəti dəfə vəsait ayrılarkən artıq Seyidəliyevin həmin postdan uzaqlaşdırılmasına qərar verilmişdi. Çünki aydın idi ki, o, postunda qalardısa həmin üç milyon manatın taleyi də qaranlıq olacaqdı" deyə Ağsudakı qaynaqlarımız bildirirlər.

"Dövlət rəhbəri 2019-cu il sentyabrın 13-də "Ağsu rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzaladı. Sərəncama əsasən, baş vermiş zəlzələ nəticəsində Ağsu rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Ağsu Rayon İcra Hakimiyyətinə 2 milyon manat ayrıldı. Lakin qısa vaxtda məlum oldu ki, Ənvər Seyidəliyev həmin vəsaiti təyinatı üzrə xərcləmək iqtidarında deyil. Bunu zəlzələdən zərər çəkən rayon sakinlərinin həm mətbuata, həm də Prezident Administrasiyasına aramsız şikayətləri də təsdiqləyirdi. Seyidəliyev o vaxtadək Ağsuya böyük ziyan vurmuşdu. Zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı narazılıqlar onun fəaliyyətindən gileyguzarların son həddi oldu. Nəticədə vəzifəsindən uzaqlaşdırıldı" - qəzetimizə danışan mənbələr əlavə ediblər.

Maraqlı məqamlardan biri də odur ki, S.Müslümovun dayısı kreslosunu itirdikdən bir neçə həftə sonrayadək həqiqətən mətbuatda zəlzələdən ziyan görən Ağsu sakinlərinin şikayətlərinə tez-tez rast gəlinirdi. Lakin o, postundan uzaqlaşdırıldıqdan sonra həmin giley-güzarlar da səngidi.

Bu da onu təsdiqləyir ki, yeraltı təkanların Ağsuya vurduğu ziyanın aradan qaldırılması istiqamətində Ə.Seyidəliyevin fəaliyyətinin qeyri-qənaətbəxş olamdığına dair rayon camaatı arasında gəzən söz-söhbətlər heç də əsassız deyilmiş...

Eyni zamanda ölkə başçısının zəlzələdən sonra rayona iki dəfə səfər etməsi, problemlərlə yerində maraqlanması və onların həllini birbaşa nəzarətə götürməsi burada həlledici məqamdır. Sual isə budur ki, hər bir çətinliyin aradan qaldırılmasında mütləq dövlət rəhbərliyinin iradəsi və nəzarəti əsasdırsa, onda icra başçılarının işi nədən ibarətdir?! Digər rayon rəhbərləri məhz bu sual ətrafında ciddi düşünməli və Ə.Seyidəliyevin "vurulmasından" lazımi nəticə çıxarmalıdırlar...

***Toğrul Əliyev***

# Dövlət Komitəsi: "Faktlar yığılıb, hazırlanır"

***Hazırda davam edən Qarabağ müharibəsi nəticəsində mülki əhaliyə ciddi ziyan dəyib. Ermənilərin qəddar hücumu nəticəsində azyaşlı uşaqlar, qadınlar, qocalar öz həyatını itirir. Mülki əhali arasında bu faciəni yaşayanların çox olması onların xatirsəsinin əbədiləşdirilməsini də gündəmə gətirib.Sosial şəbəkələrdə hər kəs erməni təcavüzünün qurbanı olan günahsız insanların unudulmaması, gələcəkdə də anılması üçün müxtəlif təkliflər irəli sürür.***

**Bəs bu istiqamətdə hansı tədbirlər görülür?**

Mövzu barədə Modern.az-a danışan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat katibi Elgün Səfərov bildirib ki, günahsız insanların, körpələrin ermənilər tərəfindən qətlə yetirilməsilə bağlı faktlar tək tarixi fakt kimi yox, hüquqi fakt kimi də saxlanılır:



"Hazırda dəlillər yığılıb, hazırlanır. Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycan mülki əhalisinə yönələn hadisə, insanlığa qarşı olan cinayətdir. Foto, video görüntülər fakt kimi istifadə olunur. Azəbaycan Respublikası öz ərazi bütövlüyünü bərpa edəndən sonra Ermənistan Ordusuna qarşı sanksiyalar tətbiq ediləcək. Qeyd etmək istəyirəm ki, Dövlət Komitəsi tərəfindən müvafiq sənəd, bəyanat, müraciət və eyni zamanda hesabatlar hazırlanaraq, beynəlxalq təşkilatlara təqdim edilib. BMT-nin Uşaq Fonduna, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinə, digər universal və regional təşkilatlara müraciətlər edilib. Amma yalnız komitə tərəfindən deyil, bu tədbirlər Azərbaycan hökuməti tərəfindən görülür".

E.Səfərov əlavə edib ki, erməni atəşi nəticəsində dağılmış evlər də fakt kimi saxlanılır: "Onlarla bağlı ehtiyac olunan tədbirlər görülüb. Gələcəkdə Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi məqsədi ilə bu hadisələ bağlı cinayət işi açılıb".





# Belçika mediasında Azərbaycanın haqlı mövqeyindən yazılıb

***Belçikanın "belcikaaydinhaber.com" portalında Əbu-Dabi Universitetinin beynəlxalq əlaqələr kafedrasının müəllimi, tədqiqatçı, yazar Şəhrizad Süleymanın "Ermənistanın gerçək üzü və Qarabağ Azərbaycandır!" başlıqlı məqaləsi yayımlanıb.***

Məqalədə ermənilərin son 200 ildə türk millətinə qarşı törətdiyi qanlı çinayətlərdən, əsassız ərazi iddialarından bəhs edilib. 30 ilə yaxındır işğalçı Ermənistan ordusu tərəfindən Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ bölgəsinin və ona bitişik 7 rayonun işğal altında saxlanıldığına diqqət cəlb edilib.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun rayonları və kəndləri, mühüm strateji yüksəklikləri işğaldan azad etməsinə təcavüzkar Ermənistan ordusunun ölkəmizin cəbhə bölgəsindən kənarda yerləşən Gəncə, Mingəçevir şəhərlərini, Şəmkir, Tərtər və Bərdə rayonlarını raket atəşinə tutmaqla cavab verdiyi nəzərə çatdırılıb. Ermənistanın raket hücumu nəticəsində Gəncədəki çoxmənzilli binaların dağıdıldığı, 24 dinc sakinin həlak olduğu, 90 nəfərin yaralandığı, şəhərə və mülki infrastruktura ciddi ziyan dəydiyi vurğulanıb.

# Fransa telekanalında Ermənistanın işğalçılıq siyasətindən danışılıb

***Fransada fəaliyyət göstərən "RT France" telekanalında Dağlıq Qarabağ münaqişəsindən danışılıb.***

Telekanalın "Xəbərlər" proqramına müsahibəsində Fransa Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi, Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbəri Günel Səfərova bildirib ki, oktyabrın 10-da Moskvada əldə olunan humanitar atəşkəs rejimi Ermənistan tərəfi kobud şəkildə pozaraq bir neçə saat sonra cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərindəki yaşayış binalarını raket atəşinə tutub. Humanitar atəşkəs rejiminin əldə olunmasına baxmayaraq Gəncə, Mingəçevir, Bərdə, Tərtər şəhərləri raket və artilleriya zərbələrinə məruz qalır.

Verilişdə Azərbaycanın öz ərazisində beynəlxalq qanunlara və prinsiplərə uyğun olaraq özünümüdafiə və torpaqlarının işğaldan azad edilməsi hüquqlarını həyata keçirdiyi vurğulanıb. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ona bitişik 7 rayonun işğaldan azad edilməsinə dair BMT-nin 4 qətnaməsini, Avropa Parlamentinin bəyannamələrini xatırladan soydaşımız qeyd edib ki, rəsmi Bakı 27 il münaqişənin sülh yolu ilə nizamlanmasını gözləyib. Lakin işğalçı Ermənistan ordusunun sentyabrın 27-də ölkəmizə qarşı bütün cəbhə boyu genişmiqyaslı hücuma keçərək hərbçilərimizi və mülki insanlarımızı qətlə yetirməsi Azərbaycan ordusunu əks-hücuma keçməyə vadar edib. Həmin gündən Azərbaycan ordusu torpaqlarımızın işğaldan azad olunması istiqamətində uğurlu əməliyyatlar keçirməkdədir.

# "Uşaqlarımızı Azərbaycanda döyüşməyə buraxmayın" - Təslim olan mayor



***Döyüşlərdə Azərbaycan Ordusuna təslim olan erməni əsir xalqına müraciət edib.***

Unikal.org-un məlumatına görə, təqaüddə olan milis mayoru Edik Solakoviç Tonoyan 1975-ci ildə Ermənistanın Kalinino rayonunun Mestavan kəndində doğulduğunu, 2018-ci ilə qədər Kalinin rayon Milis İdarəsində işlədiyini, 2018-ci ildə mayor rütbəsində təqaüdə çıxdığını bildirib.

"Bundan sonra iki il ərzində qazanc dalınca Rusiyaya getmişəm. 2020-ci ildə isə koronavirusa görə ailəmlə birlikdə qazanc üçün Rusiyaya gedə bilmədim. Ermənistanda qaldım. Burada da inşaat işləri ilə məşğul olurdum. 27 sentyabrda Azərbaycanla müharibə başlayanda məni və oğlumu tikintidə tutub hərbi komissarlığa apardılar. Hərbi komissarlıqda razılaşdıq ki, oğlumun yerinə hərbi xidmətə məni göndərsinlər və mən Ermənistan ərazisində xidmət edim. Qarabağa getmək istəmirdim, çünki bura bizim torpağımız deyil. Lazım olsa, Ermənistana görə xidmət etməyə hazır olduğumu, ancaq Qarabağa görə xidmət etmək istəmədiyimi dedim. Məni Alaverdi rayonuna zastavada xidmətə göndərdilər. Bir neçə gün orada patrul xidmətində oldum. Ordan hərbi qulluqçuları Azərbaycanla sərhədə xidmət etməyə göndərirdilər ki, orada döyüşsünlər.

Orda mənə dedilər Ermənistan ərazisində başqa hərbi hissədə xidmət etməliyəm. Məni və daha bir nəfəri İrəvana apardılar, orada bizi içində adamlar olan "KamAZ" gözləyirdi. Maşında 33 nəfər vardı. Orda vəd etdilər ki, bizi Qarabağa aparmırlar. Çünki biz bilirik ki, ora bizim torpağımız deyil və bizə ora getmək lazım deyil. Onlar yenə vəd verdilər ki, biz Ermənistan ərazisində xidmət edəcəyik, - deyə o qeyd edib.

E. Tonoyanın sözlərinə görə, Gorusa gələndə, maşın dayanıb və onlara avtomat paylayıblar: "Biz silahı götürmək istəmədik. Lakin bizi dilə tutdular ki, bu, təhlükəsizlik, özümüzü müdafiə üçün lazım ola bilər. Beləliklə, bizi Azərbaycan ərazisinə, Horadiz rayonuna apardılar. Orda bizə səngər qazacağımız yeri göstərdilər. Biz səngər qazmağa başladıq. Bombalamağa başlayanda biz qaçdıq. Mənimlə birlikdə olan 33 nəfər, eləcə də biz zastavaya gələndə orda xidmətdə olan 15 nəfərin hamısı cavan idi. Onlar qaçdı, mən onlarla qaça bilmədim. Təslim olmaq qərarına gəldim. Avtomatı atdım və Azərbaycan Ordusuna təslim oldum".

E. Tonoyan daha sonra bütün erməni xalqına müraciət edib: "Əziz həmvətənlərim. Uşaqlarımızı Azərbaycan ərazisində döyüşməyə buraxmaq və qan tökmək lazım deyil. Biz əvvəl çox yaxşı yaşamışıq, biz bir-birimizlə çox yaxın olmuşuq, bizim qardaş, xoş qonşuluq münasibətli xalqlarımız olub".

# İşğal olunmuş ərazilərimizdə iş quran əcnəbilərə XƏBƏRDARLIQ

***Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılmış araşdırmalarla Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərimizdə qeyri-qanuni hasilat işləri ilə məşğul olan, o cümlədən qızıl və və digər metal filiz yataqlarını istismar edən, eləcə də nərə balığı və qara kürü, elektrik enerjisi istehsalı, qanunsuz saat satışı, bankçılıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər müəyyən edilib.***

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən məlumatda bildirilib.

Qeyd edilib ki, işğal olunmuş ərazilərimizdə qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan şəxslərə qarşı kəsərli cinayət-hüquqi tədbirlərin tətbiqi Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən daim nəzarətdə saxlanılmaqla davam etdirilir.

Bu kimi qanunsuz halların qarşısının alınması məqsədilə xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasının ərazisində hansı qaydada iqtisadi fəaliyyətlə məşğul ola biləcəyi, qanunsuz iqtisadi fəaliyyətə görə cinayət qanunvericiliyinin müddəaları ilə bağlı fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində növbəti dəfə maarifləndirici video çarxlar hazırlanıb.

Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərimizdə qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər barəsində beynəlxalq hüquq normaları çərçivəsində kəsərli tədbirlərin görülməsi təmin ediləcək.

***Zaurə***

# Hacıbala Abutalıbovun unudulan milyonluq israfçılığı...

## Keçmiş merin "bahalı dekorativ ağac həvəsi"nin mənasızlığı təsdiqləndi

***Təxminən iki il öncə - bir az da dəqiqləşdirsək, 2018-ci ilin yay ayları idi. Məlum oldu ki, Bakının Səbail rayonunda, Neftçilər prospektinin kənarında, (Əl Oyunları Sarayından bir qədər aralıda) təxminən 1000 kvadratmetrlik boş ərazidə əkilən 350 "Göy şam" və "Limon tuya" dekorativ ağacları müəmmalı şəkildə "yoxa çıxıb".***

Həmin vaxt yerli media yazırdı ki, ağaclar 2012-ci ildə Bakıda keçirilən Avroviziya Mahnı Musabiqəsinə hazırlıq ərəfəsində İtaliyadan alınıb, 1 ağacın qiyməti isə 200-300 avroya başa gəlib. Təxminən 4-5 ay əvvəl yaşıllığın tamamilə məhv edildiyi məlum olub.



Dekorativ ağacların Bakının sabiq meri Hacıbala Abutalıbovun bu vəzifədən kənarlaşdırılmasından, yəni elə həmin ilin aprelindən "yoxa çıxmağa" başladığı güman edilirdi. Ağacların oğurlandığı, yoxsa baxımsızlıqdan məhv edildiyi bəlli deyildi. Lakin fakt burasında idi ki, onlar "qeybə çəkilmişdilər!"

Bu sətirləri yazmaqda məqsədimiz köhnə palan içi tökmək deyil. Diqqətinizi önəmli bir məqama yönəltməkdi: xaricdən Bakıya bahalı dekorativ ağacların gətirilməsi və əkilməsi hazırda Abutalıbovun paytaxt meri vəzifəsini tutduğu vaxtda xeyli geniş yayılmışdı və bu məqsədlə milyonlarla manat xərclənirdi. Mətbuat və vətəndaş cəmiyyəti bu xərcləmələri mənasız hesab edirdi, lakin Hacıbala müəllim həmin iradlardan sanki daha da həvəslənir və paytaxtda dekorativ ağacların sayını getdikcə artırırdı.

Hətta mütəxəssislərin bu məsələdəki tənqidi fikirləri də diqqətə alınmırdı. Məsələn, ekoloqlar deyirdilər ki, dekorativ ağaclar birbaşa parklarda, yol kənarlarında əkilməməlidir. Bunun üçün onlar öncə Botanika bağında bəslənməlidirlər. Ən azı 5 il uyğunlaşma dövrü keçməlidirlər. Çünki xaricdən gətirilən bitkilərin bizim iqlimə uyğunlaşması üçün bu vacib elementdir. Həmin müddəti keçmək lazımdır. Lakin Hacıbala müəllim və ətrafındakılar üçün həmin tənqid və tövsiyyələr quru söz yığınından başqa bir şey deyildi.

Bəzi ekoloqlar daha ciddi məqamlara toxunur və bildirirdilər ki, dekorativ ağaclar birbaşa xəstəlik daşıyıcılarıdır. "Xaricdən gətirilən bitkilər heç də bizim xeyrimizə deyil. Sadəcə, bəzi qurumların niyyəti pul qazanmaqdır ki, bu yola əl atırlar. Əgər Bakının estetik zövqünü inkişaf etdirmək niyyətindəsənsə, öncə həmin bitkilərin bizim təbiətdə uyğunlaşma dövrü keçməsinə şərait yarat, sonra get, həmin bitkiləri təbiətdə ək. Birbaşa parklara, yol kənarlarına əkilən dekorativ bitkilər xəstəlik mənbəyidir. Onların birbaşa yol kənarına əkilməsi insan orqanizmi üçün də təhlükəlidir. Çünki yarpaqlarında həşəratlar yuva salır" - bunu da mütəxəssislər bildirir, dekorativ ağacların ölkəyə gətirilməsinin bahalılığını da qabardırdılar. Qeyd edirdilər ki, həmin bitkilərin ölkəyə gətirilməsi od qiymətinə başa gəlir. Bu sadəcə bəzi qurumlara sərf edir. Bu yolla ciblərini doldura bilirlər. Sonra da həmin dekorativ ağaclar tələf olanda deyirlər ki, bizim təbiətə uyğun olmadığına görə məhv oldu...

Hələ bir dəfə ekoloqlardan biri maraqlı xatırlatma etmişdi. Demişdi ki, hardasa 2006-cı ildə Hacıbala müəllim paytaxtımıza Avstraliyadan evkalipt ağacları gətizdirmişdi. "Bir az şaxta düşən kimi həmin ağaclar məhv oldu. Birincisi, evkalipt ağacları bataqlıq ağaclarıdır. Bizim ərazi isə bataqlıq deyil. İkincisi bahalıdırlar. Onları yerli təbiətə uyğunlaşdırmadan əkmək israfçılıqdan, büdcə vəsaitini havaya sovurmaqdan başqa bir şey deyil" - deyə o vurğulamışdı.

Lakin Abutalıbov vəzifədə olduğu ümddətdə yuxarıda səslənən fikirlərin heç birinə həssaslıq nümayiş etdirmədi, paytaxtın həllini gözləyən çox sayda problemi varkən dövlət vəsaitlərini bahalı dekorativ ağaclara xərcləməkdən usanmadı. Halbuki həmin bitkilərə israf edilən pullarla hər yağış yağanda Venesiyanı xatırladan Bakının bu dərdinə xeyli əncam çəkmək olardı.

Hacıbala müəllim artıq iki ildir paytaxt meri deyil. Onun vəzifəsindən kənarlaşdırılması ilə dekorativ ağaclara milyonlarla manat xərcləmək ənənəsi də aradan qalxıb. Biz bu bitkilərə artıq Bakıda "stavka" edilmədiyini görür və təqdirlə qarşılayırıq.

Ancaq bu fakt da dəyişməz qalır: dekorativ ağaclara böyük pullar xərcləməyin mənasızlığı xeyli gec anlaşıldı, hansı ki, artıq milyonlarla manat artıq "buxarlanmışdı"...

Ona görə də vəzifə sahibləri yaxşı olar, mətbuatın və cəmiyyətin tənqidlərinə, tövsiyyələrinə zamanında qulaq assınlar ki, sonda büdcəyə gərəksiz yük düşməsin.

***Elvin Rüstəmov***

# "Azərbaycan tək deyil" – Prezidentə yazırlar

***Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına təkcə Azərbaycandan yox, xarici ölkələrdən də məktublar gəlməkdə davam edir. "Unikal" həmin məktublardan bəzilərini təqdim edir.***

**Türkiyə qazilərindən, Ankara:**

Möhtərəm cənab Prezident. Biz Türkiyə üçün hər zaman xainlərə, sepatçı qüvvələrə qarşı mübarizə aparan qazilərik. Bu məktubu yazdığımız vaxtda Sizin, Azərbaycan dövlətinin şanlı ordusunun və xalqınızın tarixin ən böyük qəhrəmanlıq dastanlarından birini yazdığınızı görürük. Bu qəhrəmanlıq eposunun yazilmasında hər zamanında Sizinlə olduğumuzu bildiririk.

Azərbaycan tək deyil, Türk dövləti və milləti həmişə olduğu kimi yenə də Azərbaycanın yahəlak olmasına çox kədərlənirik.

Cənab, Ali Baş Komandan, mən vaxtilə tank qoşunlarında xidmət etmişəm. Əmr etsəniz, istənilən vaxt Vətənimizə qayıdıb tarixi torpaqlarımızın işğalçılardan azad edilməsi uğrunda döyüşməyə hazırıq.

Bizim işimiz haqq işidir!

Vətən hər şeydən ucadır!

**Tatyana Laputskaya və Oruc Orucov Belarusdan yazır:**

Cənab Prezidentimiz. Belarusdan Orucovlar - Laputskilər ailəsi Sizi salamlayır. Sizin komandəstəkləyən, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün cəsarətlə mübarizə aparan şanlı Azərbaycan Ordusuna hərtərəfli dəstək verən bütün Azərbaycan xalqının ruh və güc birliyindən qürur və sevinc hissi keçiririk. Ölkədə müxtəlif sahələrdə Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası yüksək səviyyəyə çatdırılmışdır ki, Sizin Ali Baş Komandan kimi qarşınıza qoyduğunuz bütün vəzifələrin uğurla yerinə yetirilməsindən əminliklə danışmağa imkan verir. Biz, Tümen vilayətinin Azərbaycan diasporunun nümayəndələri olaraq, Azərbaycanın atəş altında olan kəndləri və şə-



nındadır. Biz Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hədəf alan hər cür cəhd və təxribatına qarşıyıq. Qarabağın işğalının sona çatması üçün Vətən müharibəsini və Azərbaycanın milli mübarizəsini bütün gücümüzlə dəstəklədiyimizi bəyan edirik.

Böyük türk milləti, o cümlədən biz qazilər Sizin rəhbərliyinizlə işğalçı Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin hər bir qələbəsini böyük sevinc və həvəslə qarşılayırıq.

Əminik ki, gələcək nəsil Türk Dünyasının ortaq coğrafiyasını, mədəni, mənəvi dəyərlərinin yaşadılmasını, ümumi tarixi və mədəni dəyərləri qoruyacaq.

Bir daha Vətən bildiyimiz Azərbaycanın haqq mübarizəsində yanınızda olmaq üçün hər an Azərbaycana gəlməyə hazır olduğumuzu bildirir, şəhid ailələrinə başsağlığı diləyir, yaralı Azərbaycan qazilərinə şəfa diləyirik.

**Tarix və Yaqut Verdiyevlər Moskvadan yazır:**

Cənab Ali Baş Komandan, hörmətli İlham Heydər oğlu. Moskvada yaşayan biz azərbaycanlılar Ordumuzun qələbələrinə sevinir, dinc insanlarımızın danlığınız altında Azərbaycan əsgərlərinin işğalçı erməni terrorçuları üzərində qazandığı qələbələrlə qürur duyuruq.

Qarabağ həmişə Azərbaycanın olub və əsrlər boyu da Azərbaycanın olacaq! Azərbaycandan gələn hər bir şad xəbəri uzaq Belorusda səbirsizliklə gözləyir, diqqətlə izləyirik. Haqq-ədalətin zəfərinə Sizinlə, Azərbaycan xalqı ilə birlikdə sevinirik.

Ordumuzun qələbələrinə görə Sizin sevinc və qürur hissiniz sanki televiziya ekranından bizlərə də sirayət edir.

Allah Sizə güc-qüvvət versin ki, Azərbaycan xalqının mənafeyi naminə müdrik siyasətinizi bundan sonra da davam etdirə biləsiniz.

Allah Sizi qorusun!

**Fizuli Burcuyev Tümendən yazır:**

Möhtərəm cənab Prezident. Rusiya Federasiyasının Tümen vilayətinin çoxminlik Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımızı bildiririk və Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına tam dəstəyimizi ifadə edirik. Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi hərlərinin mülki əhalisinin, eləcə də silahlı qüvvələrinin şəxsi heyəti ailələrinin ehtiyacları üçün dərman, qida, zəruri ehtiyaclar şəklində lazımi humanitar yardım göstərməyə mütləq hazır olduğumuzu bildiririk.

**Ramiz Məmmədov, Tatarıstandan:**

Hörmətli cənab Prezident. Ali Baş Komandan olaraq Sizin qətiyyətli addımlarınız sayəsində Azərbaycanın hərb tarixinə yeni səhifələr yazılır. Məhz buna görə də, hazırda dünya azərbaycanlıları çox qürurlu anlar yaşayırlar. Bu sevinci və fərəhi bizlərə bəxş etdiyiniz üçün Tatarıstanda yaşayan soydaşlarımız adından Sizə minnətdarlığımızı bildiririk.

Bizlər hər zaman xalqımızla nəfəs alırıq, ürəyimiz Vətənlə döyünür. Sizin "Qarabağ Azərbaycandır!" şüarınızı rəhbər tutaraq, Qarabağ həqiqətlərini Tatarıstanda qürurla təbliğ edirik. Erməni terroçularına qarşı mübarizədə iştirak etməyə hər an hazır dayanmışıq və Ali Baş Komandan kimi Sizin əmrinizi gözləyirik.

Tanrı Sizi və xalqımızı qorusun!



# Əhməd Əhmədzadə videokonfrans keçirib

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də "Payızlıq əkinlərin suvarılması" ilə bağlı Kənd Təsərrüfının müavini Sarvan Cəfərovun və Nazirliyin Torpaqdan İstifadəyə Nəzarət şöbəsinin müdiri Firudin Tağıyevin iştirakı ilə videokonfrans keçirilib.***

Oktyabrın 23-də Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də "Payızlıq əkinlərin suvarılması" ilə bağlı videokonfrans keçirilib.

Səhmdar Cəmiyyətin sədri Əhməd Əhmədzadənin rəhbərliyi ilə keçən iclasda sədr müavinləri Rafiq Aslanov, Zakir Quliyev, aparatın işçiləri, yerli istismar idarələri və Kənd Təsərrüfının müavini Sarvan Cəfərov və Nazirliyin Torpaqdan İstifadəyə Nəzarət şöbəsinin müdiri Firudin Tağıyev iştirak edib.

Videokonfransda pambıq bitikisinin son suvarma vegitasiyasından, payızlıq əkinlərin suvarılmasından danışılıb.

Səhmdar Cəmiyyətin sədri Əhməd Əhmədzadə bildirib ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı uğurlar, torpaqlarımızın işğaldan azad edilməsi hər bir vətəndaş kimi, melioratorları da sevindirir. "Qarşımızda duran əsas vəzifələrdən biri də işğaldan azad olunan ərazilərimizdə meliorativ tədbirlərin görülməsinə indidən hazırlaşmaqdır. Dövlətimizin başçısının da dediyi kimi, ərazilərimizin azad edilməsi ilə əlaqədar kənd təsərrüfatımızın gələcək inkişafının planlaşdırılmasına başlanılıb. Buna görə də Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə bütün torpaqlarımızda məhsuldarlığın əldə olunmasına çalışmalıyıq", - deyə ASC sədri əlavə edib.

İclasda yerli istismar idarələrində olan vəziyyətdən, mövcud olan sudan səmərəli istifadə olunmasından və qrafik əsasında gecə və gündüz suvarmasından danışılıb. Bildirilib ki, əvvəlki illərdən fərli olaraq bu il payızlıq əkinlərinin suvarılmasında Kənd Təsərrüfatı Nazirliyinin rayondakı nümayəndəlikləri ilə birlikdə sudan səmərəli istifadə olunmalıdır. Suvarmadakı çətinlikləri azaltmaq üçün, bol məhsul əldə etmək üçün subartezian quyularından və nasoslardan maksimum istifadə edilməlidir, texniki problemlər dərhal aradan qaldırılmalıdır.

Həmçinin payızlıq əkiləri arasında ən əsas taxıl bitkisinin suavarılması məsələsidə müzakirə olunub.

Sonda yerli idarələrin söylədiyi məsələlərə münasibət bildirilib və deyilənlərin yerində araşdırılamısı, kömək məqsədi ilə yerlərə nümayəndələrin göndəriləcəyi ilə bağlı lazımi tədbirlər görüləcəyi barədə məlumat verilib.

# İşçi qrupun rəhbərindən çağırış: "Vəziyyət kritikdir"

***"Ötən gün 800-dən çox yoluxma var idi, bu gün və ya sabah yoluxmanın nə qədər olacağı bəlli deyil, amma görünən odur ki, vəziyyət kritikdir".***

Bunu Modern.az-a açıqlamasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İnfeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev bildirib.

C.Əliyev qeyd edib ki, getdikcə vəziyyət daha da ağır ola bilər: "İnsanlar məsuliyyəti artırmalıdırlar. Əks halda karantin rejiminin şərtləri də təkrar gözdən keçirilməlidir".

TƏBİB rəsmisinin sözlərinə görə, ölkəmizdə müharibə getdiyi bir dövrdə bütün diqqət cəbhəyə yönəlib:

"Təəssüf ki, biz arxa cəbhədəki koronavirusu unutmuşuq. Qələbə xəbərləri gəldikcə, insanlar kütləvi toplaşır, maska taxmır, sosial məsafə gözləmir".

V.Əliyev deyib ki, mülki insanlar arasında koronavirusa yoluxmanın artması əsgər və zabitlərimizi də təhlükəyə atır:"Bu vəziyyət həkimləri də riskə atır. Çünki bildiyiniz kimi, həkimlər mart ayından koronaviruslu xəstələri müalicə edirlər. Hazırda isə həkimlər yaralıların sağalması üçün də çalışırlar. İndiki halda xəstəxanalarda koronaviruslu xəstələrin artması həm çarpayı ehtiyatına problem yaradır, həm də bu cür risk altında həkimlər də xəstələnə bilər. Düşünün ki, bu vəziyyətdə həkim olmasa, hansı vəziyyət olar. Bu abxımdan hamıdan sosial məsuliyyətini dərk etməyi xahiş edirəm".

# Korrupsionerlərin daha bir qənimi...

## Xalqın sərvətini yağmalayanlarla mübarizədə xalqın özü də yaxından iştirak etməlidir



***Sağlam cəmiyyət və uğurlu idarəetmə modelinin formalaşdırılması, ictimai vəsaitlərin idarəedilməsində effektivliyin təmin edilməsi, hökumətin fəaliyyətinin legitimliyinin qorunması kimi mühüm amillər ölkədə və cəmiyyətdə korrupsiya və rüşvət ilə kompleks mübarizəni zamanın tələbinə çevirib. İqtisadçı Rəşad Həsənovun qeyd etdiyi kimi, hazırda korrupsiyaya qarşı mübarizə lokal deyil, qlobal xarakter daşımaqdadır.***

Qloballaşan dünya təbii ki, müxtəlif cəmiyyətlərin daha sıx inteqrasiyasını tələb edir. Başqa sözlə, qlobal həyat tərzinin halqalarını təşkil edən cəmiyyət və yaxud dövlətin birində yaşanan problemlər digərinin inkişafına mənfi təsir edir, xüsusilə iqtisadi inteqrasiya və kapital axınında ciddi fəsadlara yol açır. Məhz bu səbəbdən korrupsiya ilə mübarizənin dünya miqyasında effektivliyinin və ölkələrin bu istiqamətdə əməkdaşlığının dərinləşdirilməsinin təmin edilməsi məqsədi ilə 2004-cü ildə Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası qəbul olunub. Xatırladaq ki, Azərbaycanda bu Konvensiya 30 sentyabr 2005-ci ildə ölkə prezidentinin sərəncamı ilə təsdiq edilib. Beləliklə, Azərbaycan korrupsiya ilə qlobal səviyyəli mübarizənin subyektlərindən birinə çevrilib.

Korrupsiya və rüşvətxorluq XXI yüzillikdə cəmiyyətlərin deqradasiyasında, dövlət idarəçiliyinin səmərəsizliyində mühüm katalizatorlardan olmaqla, həmçinin ictimai ədalətsizliyi və gəlirlərin qeyri-bərabər paylanmasını şərtləndirir. Bundan başqa, müşahidələr göstərir ki, korrupsiya və rüşvətxorluğun geniş yayıldığı cəmiyyətlərdə aqressiyanın səviyyəsi daha artıq olmaqla, cəmiyyətin davranışlarına da mənfi təsir göstərir.Azərbaycanda korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizənin effektivliyinin təmin edilməsi şərtlərindən biri də bu mübarizədə hökumət-vətəndaş əməkdaşlığının təmin edilməsidir. Çünki təcrübə göstərir ki, cəmiyyətə xas problemlərin həllində birtərəfli yanaşma heç də hər zaman effektiv olmur. Təbii ki, bu kimi dərin tarixi köklərə, formalaşmış təcrübəyə və xüsusilə də maddi üstünlükləri təmin edə bilən əməllərə qarşı sadəcə adminstrativ üsullarla mübarizə aparılmasının son nəticəyə təsir imkanları az olur. Məhz bu səbəbdəndir ki, korrupsiya ilə mübarizədə vətəndaşlar da ən az dövlət qədər məsul olmalı, hökumət isə bu iştirakçılığa şərait yaratmalıdır.

Dünya təcrübəsi göstərir ki, bu, mənimsəmələrin, haqsız qazancın, rüşvətin qarşısını almaqda, onu minumuma endirməkdə ən effektiv yollardan biridir. Bir sözlə, xalqın sərvətini yağmalayanlarla mübarizədə xalqın özü də əsas rollardan birini oynamalıdır. Vətəndaş cəmiyyəti elə hüquq-mühafizə orqanları qədər bu məsələdə ayıq-sayıqlıq və fəallıq nümayiş etdirsə, sözügedən bəlanın aradan qaldırılmasında daha yüksək nəticələrin əldə olunması qaçılmazdır. Bircə nümunə deyək: korrupsiya ilə mübarizədə ictimai maarifləndirmə, anti-korrupsiya tədbirlərinin təbliği, prosesin şəffaflığını şərtləndirən hesabatlılığın genişləndirilməsi çox önəmlidir. Belə ki, vətəndaş öz hüquqlarını bilirsə və onu müdafiə edəcək bilgilərə sahibdirsə, o zaman qarşı tərəfin qeyri-qanuni tələblərlə (pul, hədiyyə, xidmət) çıxış etmək imkanı azalır.

R.Həsənovun vurğuladığı kimi, İctimai maarifləndirmə prosesinə start hökumət tərəfindən verilsə də, əsas ağırlıq mətbuatın və vətəndaş cəmiyyəti institutlarının üzərinə düşür. Maarifləndirmə tədbirlərinə treyninqlərin keçirilməsi, broşuraların hazırlanması və yayılması, kütləvi informasiya vasitələrində informasiya xarakterli proqramların yayılması və s. aid edilir.

Beləliklə, ictimai savadlılıq yüksəlir, vətəndaşın öz hüquqlarını qoruma instinkti möhkəmləndirilir.

Qısası, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə vətəndaşın iştirak səviyyəsini daha da yüksəltməyə ehtiyac var. O, bu mübarizə prosesində seyrçi, yaxud zərərçəkən qismində iştirak etməməli, həmin prosesin həlledici fiqurlarından birinə çevrilməlidir.

Əmin olun ki, belədə korrupsionerlərin, rüşvətxorların, xalqın və dövlətin malına göz dikənlərin, onun cibinə girənlərin qorxu və təşvişi də artacaq, beləlitini çirkin əməllərdən çəkinməyə stimullaşdıracaq.

Unutmayaq ki, bəzən qanunvericilikdə nəzərdə tutulan ən ağır cəzalar da kimlərisə islah etmək üçün yetərli olmur.

İctimai qınaq, xalq qınağı isə xüsusən bizim kimi şərqli mentalitetin hələ də öz gücünü qoruduğu toplumlarda zərərli meyl və vərdişlərə qarşı mübarizədə önəmli silahdır. Bunu da yaddan çıxarmamaqda fayda var!

***Orxan Həsənli***

# Bu mehmanxanalar karantin rejimini pozub

***Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları"na əməl olunması ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) aidiyyəti dövlət qurumları ilə birlikdə mehmanxanalarda yoxlama-nəzarət tədbirlərini davam etdirir.***



"Unikal" xəbər verir ki, 19-22 oktyabr 2020-ci il tarixlərində Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən 122 mehmanxanada reydlər keçirilib.

Reydlərin keçirildiyi 15 mehmanxanada Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş Qaydaların tələblərinə əməl olunmaması və kobud pozuntu faktları aşkarlanıb. Fəaliyyətində nöqsanlar aşkarlanan mehmanxanalar barədə qanunvericiliyin tələblərinə uyğun inzibati tədbirlər görülüb.

Keçirilən reydlər zamanı sahibkarlıq subyektlərinə, orada çalışan işçi heyətə qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər, maarifləndirici tövsiyələr verilib və mehmanxanaların ictimai iaşə zonalarına xəbərdaredici, maarifləndirici lövhələr yerləşdirilib.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sözügedən sahədə fəaliyyət göstərən sahibkarlara müraciət edərək bir daha bildirir ki, istehlakçıların və işçi heyətin sağlamlığının qorunması istiqamətində mehmanxanaların ictimai iaşə məkanlarında xidmətlərin təşkili Nazirlər Kabinetinin müvafiq qərarı və normativ hüquqi sənədlərin tələblərinə uyğun həyata keçirilməlidir.

Hazırda mehmanxanalarda yoxlama-nəzarət, təbliğat və maarifləndirmə tədbirləri davam etdirilir. Həyata keçirilən tədbirlər nəticəsində əldə olunan müsbət dinamikanın qorunub saxlanılması və koronavirusla effektiv mübarizənin davam etdirilməsi üçün hər bir sahibkarlıq subyektinin qanunvericilik çərçivəsində fəaliyyət göstərməsi zəruri şərtlərdəndir.

***Zaurə***

## Bu SMS-lər telefonunuzdakı şəxsi məlumatların oğurlanmasına səbəb ola bilər

***Azərbaycan Ordusunun əks-hücum əməliyyatları və cəbhənin müxtəlif istiqamətlərində əldə edilən uğurlardan məyus olan işğalçı və təcavüzkar Ermənistan kibermühitdə ölkəmizə qarşı təxribatlarını davam etdirərək Azərbaycan vətəndaşlarına xarici ölkələrdən müxtəlif zənglər edir, onlara insanlarda panikanın yaradılmasına hesablanmış SMS-lər göndərilir.***

"Unikal" xəbər verir ki, bu məsələ ilə bağlı hələ bir neçə gün əvvəl Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi vətəndaşlara müraciət edərək onları diqqətli olmağı, hər hansı kiberinsidentlə üzləşdikdə bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinə "1654" qaynar xətti, www.cert.az saytı və ya reports@cert.az e-poçtu vasitəsilə məlumat verməsi tövsiyə etmişdi.

Kibertəhlükəsizlik üzrə mühəndis Bəhruz İbrahimov qeyd edib ki, döyüş meydanında Azərbaycanın rəşadətli və qüdrətli Ordusunun davamlı qalibiyyətiləri qarşısında məğub olan düşmən mümkün bütün vasitələrlə ölkəmizdə çaxnaşma və əhali arasında təşvişə səbəb ola biləcək məlumatlarla çaşqınlıq yaratmağa çalışır:

"Vətəndaşlarımıza bu kimi saxta məlumatlara inanmamaq və ən son rəsmi məlumatları ölkədə rəsmi fəaliyyət göstərən kütləvi informasiya vasitələrindən, Müdafiə Nazirliyinin rəsmi internet saytı olan mod.gov.az-dan almaq tövsiyə olunur. Nəzərə alaq ki, hazırda mövcud vəziyyətlə əlaqədar ölkənin kiber təhlükəsizliklə məşğul olan qurumları da gücləndirilmiş iş rejimində çalışırlar. Belə olaq təqdirdə ən asan və effektiv həll yolları odur ki, tanımadığınız nömrələrdən və servis adlarından gələn zənglərə, xüsusilə beynəlxalq zənglərə cavab verməyin. Tanımadığınız beynəlxalq nömrələrdən (xüsusilə beynəlxalq ) və ya hər hansı servislərin adından gələn SMS-lərdə olan məlumatlara qarşı diqqətli olmaq lazımdır. Heç bir halda göstərilən linklərə keçərək hər hansı bir fayl yüklənilməməlidir. Heç bir halda bu nömrələrə geri zəng edilməməli və ya SMS yazılmamalıdır. Bunları etdiyimiz təqdirdə bu istiqamətdə çalışan qurumların əlavə olaraq yaranmış iş yükünü azaltmış olarıq ki, onlar da limitli resurslarını daha vacib məsələlərin həllinə sərf edə bilərlər. Lakin hər bir halda ciddi kibertəhlükəsizlik riski və ya insidenti ilə qarşılaşdığınız və ya metodik göstərişə ehtiyac yarandığı təqdirdə mütləq Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin CERT.AZ saytı vasitəsilə və ya 1654 qaynar xəttinə zəng edərək yardım ala bilərsiniz".

Xarici ölkələrdən edilən zənglər üçün nömrələrin hansı formada seçilməsinə gəldikdə, B.Məhərrəmov əlavə edib ki, bununla bağlı bir neçə halın olması mümkündür. Məsələn, bir mənbə şəxsin daha əvvəl qeydiyyatdan keçdiyi xarici saytlar ola bilər. Digər tərəfdən, mobil nömrə prefixləri və nömrə simvollarının sayı hər kəs üçün əlçatan məlumatdır. Düşmənlərimiz və ya onların sifarişini yerinə yetirən 3-cü şəxslər Ölkə kodu+ Mobil operatorun prefixi+ icazə verilən sayda təsadüfi rəqəmləri daxil edərək həmin ölkədə olan şəxsə zəng vura və ya sms göndərə bilərlər.

B.Məhərrəmov telefonuna xaricdən belə zəng daxil olan və onu bilməyərəkdən qəbul edən şəxsin telefonundakı danışıqların xaricdən (telefon zəngini edən ölkə və ya operator tərəfindən) izlənilə bilib-bilməsinə də münasibət bildirib.

O qeyd edib ki, əgər söhbət yalnız zəngin qəbulundan gedirsə, onda izlənilmə mümkün deyil. Lakin telefona göndərilən SMS-dəki linkə keçərək müxtəlif səbəblərlə telefona zərərli fayl yüklənilərsə, təbii ki bu halda yalnız zənglər deyil, digər şəxsi məlumatlar da oğurlana bilər.

***Hüseyn***

# Cəbrayıl necə qurulacaq - Baş plan, yeni evlər...

***Şanlı Ordumuzun yeni torpaqlar azad etməsilə bağlı məlumatları Ali Baş Komandanın tvit-lərindən öyrənməyimiz ənənəyə çevirilib. Torpaqlarımız azad edildikcə, insanlarımızın əzəli yerlərə qayıtmaq, qurub-yaratmaq eşqi daha da artır. Modern.az saytı bunu nəzərə alaraq, düşmən tapdağından azad edilən ərazilərimizlə bağlı "İşğaldan əvvəl və işğaldan sonra..." adlı rubrikaya start verir. Rubrikada ilk olaraq, sakinlər tərəfindən "kiçik Soçi" adlandırılan Cəbrayıldan bəhs edəcəyik.***

### 52 minlik əhali 82 minə yaxınlaşıb

Rayonun işğaldan əvvəlki vəziyyətilə bağlı Modern.az-a danışan İcra Hakimiyyəti başçısının I müavini Arif Fərzəliyev Cəbrayılı qədim insan məskəni olaraq təsvir edib: "Cəbrayıl nəinki Azərbaycanda, bütün dünyada qədim daş dövründən bu yana mövcud olan insan məskənidir. Azıx mağarası vaxtilə Cəbrayıl qəzasının ərazisində olub, sovet hakimiyyəti qurulanda 1930-cu ildə rayon kimi formalaşıb. Qubadlı, Zəngilan, Füzuli rayonları ilə həmsərhəddir, ərazisi 1050 kvadrat kilometrdir. İşğaldan əvvəl əhali sayı 52 min olub, hazırda isə 81 min 600 nəfərdir. Cəbrayıl 92 kənddən, 4 qəsəbədən, 1 şəhərdən - ümumilikdə 97 yaşayış məntəqəsindən ibarətdir.

Cəbrayıl kənd təsərrüfatı rayonu olduğuna görə relyef etibarilə üç hissədən ibarətdir: dağlıq, dağətəyi və Arazboyu. Rayonun ən çox məşğul olduğu sahələr üzümçülük və heyvandarlıq idi. Bundan əlavə, Cəbrayıl respublikada üçüncü ən böyük barama istehsalçısı idi, ipəkçilik, bostan-tərəvəz məhsullarının istehsalı, meyvəçilik geniş yayılmışdı. 11 iqlim qurşağından 9-u rayonda olduğuna görə, əhali bütün kənd təsərrüfatı sahələrilə məşğul olub. Cəbrayılda xalçaçılıq geniş yayılmışdı, qədim Qarabağ xalçaları toxunurdu".



### "Cəbrayıl Qarabağın qapısıdır"

İcra Hakimiyyəti rəsmisinin sözlərinə görə, Cəbrayıl relyef etibarilə Qarabağın qapısı sayılıb: "Burada iki Xudafərin körpüsü var. Tarixi mənbələrə görə, 11 aşırımlı Xudafərin körpüsü XII əsrə, 15 aşırımlı isə XV əsrə təsadüf edir. Digər versiyada körpülərin eramızdan əvvəl inşa edildiyi göstərilir. Çox şükürlər olsun ki, körpülər rayonla birlikdə azadlığa qovuşub. Vaxtilə bu körpü "Böyük İpək Yolu"nun əsas qollarından biri olub. Cəbrayıl həm də müqəddəs torpaqdır. Toponomiyalarda da qeyd edilir ki, Cəbrayılın adı Allahın xeyir mələyi Cəbrayılın adından götürülüb. Rayonda müqəddəs ocaqlar, pirlər olub, müəqddəs insanlar yaşayıb.

Biz Ali Baş Komandanımıza, şanlı Ordumuza çox minnətdarıq ki, 30 ildən sonra bizə yenidən bu torpaqlara qovuşmağı nəsib etdilər. Mənfur düşmənlərimiz öz layiqli cəzalarını aldılar və alacaqlar da. Bunun da hamısı dünya şöhrətli sərkərdəmiz, Ali Baş Komandanımız sayəsində baş verdi.

Hamımız sevinc içərisindəyik. Hazırda rəhbərliyin tapşırğı ilə layihələndirmə işləri aparılır. Çox arzu edirik ki, rayonumuza qayıdaq, dinc quruculuq işlərilə məşğul olaq, quraq, yaradaq, Cəbrayılı əvvəlki görkəmindən də gözəl görkəmə gətirib çıxaraq. Şükür ki, artıq məcburi köçkün deyilik. Cəbrayıllılar hamısı, uşaqlı-böyüklü rayona qayıdacağı günü səbirsizliklə gözləyir. Hətta Cəbrayılda doğulmayanlar belə, ora qayıtmaq istəyir.

Cəbrayılın havası çox təmiz idi. Turistlər bura əsasən avqustda gəlirdilər, rayonu "Kiçik Soçi" adlandırırdılar. Bir şeyi də qeyd edim ki, 27 illik məcburi köçkünlük həyatımızda ata-babalarımız torpaq həsrətilə dünyalarını dəyişiblər. Torpaq uğrunda Şəhid olanların ruhu qarşısında baş əyirik. Bizim torpaqlarımızın azad olunmasının əsas səbəbkarları onlardır. Bu gün Şəhidlərimizin ruhu şaddır. Azərbaycanın xilaskarı olan ümumilli liderimiz Heydər Əliyevin ruhu şaddır. Hansı ki, həmişə deyridi ki, Qarabağ probleminin həlli üçün vaxt lazımdır. Bu gün o zaman yetişdi. Heydər Əliyev siyasi kursunun davamçısı, Prezidentimiz İlham Əliyev ulu öndərin arzularını reallaşdırır. Var olsun, Prezidentimiz, var olsun, xalqımız, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

### "Ermənilər rayonu yerlə-yeksan edib"

Parlamentdə Cəbrayılı təmsil edən deputat Ceyhun Məmmədov qeyd edib ki, işğaldan azad olunan torpaqlar strateji əhəmiyyətə malikdir: "İşğaldan əvvəl Cəbrayıldan həm dəmiryolu xətti, həm də avtomobil yolu keçirdi. Bir sözlə, Cəbrayıl tranzit rolunu oynayırdı. Azərbaycanın Cocuq Mərcanlı nümunəsi var. Bu baxımdan qısa müddətdə burada böyük quruculuq, bərpa işləri keçirildi, məktəb, bağça, muzey, xəstəxana, məscid inşa olundu.

Hər gün cənab Prezident Cəbrayılın yeni-yeni kəndlərinin işğaldan azad edildiyinin anonsunu verir. Cəbrayıl tam azad edildikdən sonra abadlaşdırma ilə bağlı layihələr geçəkləşdiriləcək. Təəssüflə qeyd etməliyik ki, düşmən həm rayon mərkəzini, həm də kəndləri yerlə-yeksan edib. Ona görə də Cəbrayılın yenidən qurulması kompleks şəkildə icra olunacaq. Əhalinin köçürülməsilə yanaşı, evlərin, bağçaların, məktəblərin, məscidlərin və digər obyektlərin tikilməsi həyata keçiriləcək".

### "Cəbrayılın Baş planı hazırlanacaq"

Deputatın sözlərinə görə, Cəbrayılın Baş planı hazırlanacaq: "İşğaldan sonra sovet dövründə olduğu kimi, Füzuli-Cəbrayıl-Zəngilan dəmiryol xəttinin inşası böyük əhəmiyyət daşıyır. Eyni zamanda, rayonlararası avtomobil yolunun qurulması diqqət mərkəzində olacaq. Cəbrayılın turizm baxımından potensialı genişdir. Cəbrayıl həm aran, həm dağətəyi, həm də dağlıq əraziləri əhatə etdiyindən turizmin inkişafı üçün geniş imkanları var. Həmçinin, kənd təsərrüfatının inkişafı baxımından rayonun imkanları genişdir. Bölgə sovet dövründə üzümçülüklə məşhur idi. Yəqin ki, Kənd Təsərrüfatı Nazirliyi bu məsələləri dərindən analiz edəcək. Burada üzümçülüyün, baramaçılığın inkişafı yenidən bərpa olunacaq. Vəziyyətdən asılı olaraq, yeni zavod və fabriklərin açılması həyata keçirilə bilər.

Reallıq budur ki, Cəbrayıl şəhəri tamamilə dağıdılıb. Ona görə də Cəbrayılın yeni Baş planı hazırlanacaq. Baş plan tamamilə müasir Cəbrayılın inşası istiqamətində olmalıdır. Kadrlardan da görünür ki, şəhər yerlə-yeksandır. Biz müasir tələblərə cavab verən yeni Cəbrayıl qurmalıyıq. Əsad odur ki, bunu gerçəkləşdirmək üçün dövlətin potensialı və istəyi var. Bu gün Azərbaycanda çox böyük həmrəylik var, düşünürəm ki, insanlarımız hər bir məsələyə anlayışla yanaşacaqlar. Biz qısa müddətdə qarşımıza qoyduğumuz şəkidlə işlərimizi reallaşdıracağıq".

### Yeni evlər, yeni həyat...

Parlament üzvü qeyd edib ki, işğaldan əvvəl böyük evlərə sahib olan və yenidən o cür evlər inşa etdirmək istəyənlər üçün şərat yaradılacaq: "Əsas məsələ torpaqlarımızın azğınlardan azad edilməsidir. Qalan məsələlər razılaşdırılmış şəkildə icra olunacaq. Dövlət tərəfindən hansısa məhdudiyyətlərdən söhbət belə gedə bilməz. Hazırda dövlət qurumları tərəfindən bu məsələlər araşdırılır".

***Gülşən RAUFQIZI***



## "Azərsu" "Əsgərə məktub" layihəsinə qoşuldu

***"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin kollektivi ordumuzun döyüş əzminin daha da artırılması və hərbi qulluqçulara mənəvi dəstək məqsədilə "ASAN Könüllüləri" Təşkilatının keçirdiyi "Əsgərə məktub" layihəsinə qoşulub.***

"Unikal" xəbər verir ki, "Qarabağda zəfər çalır ordumuz, su çilərik, cana gələr yurdumuz!" devizi altında yazılan əsgər məktublarında Azərbaycan ordusunun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda apardığı döyüşlərdən fəxrlə bəhs edilib.

Qeyd olunub ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə qazandığı zəfərlər böyük ruh yüksəkliyi ilə qarşılanır. Ərazilərimizin işğaldan azad edilməsi barədə cəbhədən gələn xoş xəbərlər qələbə gününün uzaqda olmadığından xəbər verir.

Məktublarda müzəffər ordumuzun tezliklə üçrəngli bayrağımızı işğal olunmuş ərazilərimizin hər bir guşəsində dalğalandıracağına ümidlər ifadə olunub. Cəmiyyətin əməkdaşları azğın düşmənə qarşı göstərdikləri şücaətə görə əsgərlərimizə minnətdarlıqlarını bildiriblər.

Vətəndaşlarımızın döyüşlərdə iştirak edən şəxsi heyətə ünvanladıqları məktublar hərbi qulluqçularımızda xoş təəssürat yaradır və belə tədbirlər xalq-ordu birliyinin təcəssümü kimi ifadə olunur.

Qarabağ Azərbaycandır!

## Xəzərdə zəlzələ olub

***Xəzər dənizində zəlzələ olub.***



Respublika Seysmoloji Xidmət Mərkəzinin Zəlzələlərin tədqiqatı bürosundan "Unikal"a verilən məlumata görə, zəlzələ yerli vaxtla saat 10:17-də qeydə alınıb.

Zəlzələnin maqnitudası 3,2, dərinliyi 54 kilometr olub.

# Sosial mediada bunları etmək əks effekt verir - DİQQƏT

***"APA Holding"in rəhbəri Vüsalə Mahirqızı "facebook" hesabında Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı sosial mediada əks effekt verəcək bir neçə məqam barədə məlumat verib.***

"Unikal" sözügedən məlumatları təqdim edir:

"- Şəhidlərimizin şəklini və barəsində məlumat yaymaq. Biz necə düşmənlə bağlı bu faktlar olanda istifadə edir və seviniriksə, düşmən də eynisini edir,

- Hər hansı yolla bizə çatan döyüş bölgəsi videolarını yaymaq, onları ictimailəşdirmək. Bunu daha çox "telegram" kanalları və digər sosial media səhifələri edir. Ümumiyyətlə, o videoların çəkilməməsi üçün rəsmi qurumlar tədbir görməlidir,

- Raket atəşi açılmış, mərmi düşmüş qeyri-döyüş ərazisini çəkib ictimailəşdirərkən, yalnız dağıntı ərazisini çəkmək, obyekt adlarını, yolu, infrastrukturu çəkməmək, geniş panoram çəkiliş etməmək, konkret ünvan söyləməmək və ya yazmamaq lazımdır,

- Düşmənin beynəlxalq təşkilatlarda, mediada bizə qarşı istifadə edəcəyi faktlar, xəbərlər yaratmamaq və paylaşmamaq. Sosial mediada "daxili auditoriya" anlayışı çox kövrəkdir.

- Vətənpərvərlik postları hazırlayarkən, internetdən seçdiyimiz fotolara diqqət etmək və bizim olanı seçmək vacibdir.

- "WhatsApp" vasitəsilə ötürülmüş, sizə 8-ci adamdan gəlib çıxmış şəkilləri, videoları yaymazdan əvvəl "google"da yoxlamaq və mənbəni dəqiqləşdirmək,

- Müzəffər ordumuzun işğaldan azad etdiyi əraziləri "filan yer alındı" başlığı ilə təqdim etməmək, biz heç yeri almırıq, öz torpağımızı işğaldan azad edirik,

- Adamları əsəbiləşdirmək üçün, müharibəni qrantını artırmaq, ölkədən getmək, məşhurlaşmaq üçün fürsət bilənləri iqnor eləmək, onların statuslarını paylaşıb, sevindirməmək".

# Bakıda gücləndirilmiş dezinfeksiya işləri aparılacaq

***Paytaxtın kommunal strukturlarından əldə edilən məlumata görə son günlərdə COVID-19-a yoluxanların sayının artması nəzərə alınaraq oktyabr ayının 24-də və 25-də kommunal xidmətlərin xüsusi texnikası və əməkdaşları tərəfindən Bakı şəhəri üzrə əsas küçə, prospekt və yollarda xüsusi kimyəvi maddələrlə növbəti dəfə əlavə gücləndirilmiş dezinfeksiya işləri aparılacaq.***

Bakı Şəhər İcra Hakimiyyətindən "Unikal"a verilən məlumata görə, bununla əlaqədar maddələrin qəbul olunmuş müəyyən toksikliyini nəzərə alaraq sakinlərdən ciddi zərurət yaranmadığı təqdirdə qeyd olunan tarixlərdə küçəyə çıxmamaq xahiş olunur

# Oqtay Şirəliyevin milyonluq tenderləri...

## Səhiyyə Nazirliyinin iri satınalmaları ilə bağlı müəmmalar davam edir

***Səhiyyə Nazirliyinin keçirdiyi və böyük məbləğlərlə ifadə olunan dövlət satınalamaları əslində xeyli vaxtdır həm medianın, həm də cəmiyyətin diqqət mərkəzindədir. Bu mövzuda mübahisələr, müzakirələr səngiməsə də, nazirlik dartışmaları sakitcə seyr etməklə kifayətlənir və demək olar ki, münasibət bildirmir.***

Hələ ötən ilin dekabrında məlum olmuşdu ki, Səhiyyə Nazirliyinin tenderlərində ən çox qalib gələn şirkət "Arash Medical Company" adlı MMC-dir. Bu şirkət Oqtay Şirəliyevin rəhbərlik etdiyi nazirliklə ötən il 22 milyon 126,3 min manat məbləğində 22 tender müqaviləsi bağlayıb. Adıçəkilən MMC tibbi və laboratoriya avadanlıqlarının təhcizatı, təmiri və başqa xidmətlərin görülməsi tenderlərinin qalibi olub.



Şirkətin udduğu ən böyük satınalma "Bakı şəhərində Professor Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Sümük Vərəm Xəstəlikləri Sanatoriyasının tikintisi (tibbi avadanlıqlarla təchizatı) işləri" üçün tender olub. Nazirlik bu tenderə görə həmin şirkətlə 3 milyon 502,9 min manat məbləğində müqavilə bağlayıb.

"Arash Medical Company" MMC şirkətinin Lənkəran rayon Mərkəzi Xəstəxanası ilə bağladığı "Tibbi avadanlıqların təmiri işləri" başlıqlı tender müqaviləsinin məbləği isə 12 min manat təşkil edib. Bu adıçəkilən şirkətin 2019-cu ildə qazandığı ən kiçik tender olub.

Bu ilin yazında yerli mediada yer alan məlumatlarda bildirilirdi ki, "Arash Medical Company" MMC şirkəti 9 ildə ümumilikdə 250 milyon manatlıq tender udub. Ən maraqlısı isə şirkətin sözügedən 9 il ərzində qazandığı 366 (!) satınalmanın əsas hissəsi məhz Səhiyyə Nazirliyinin payına düşüb.

Oqtay Şirəliyevin nazirliyi 2020-ci ildə də öz satınalmalarının bir hissəsini məhz adıçəkilən MMC-yə həvalə edib. Məsələn, bir neçə ay öncə məlum olub ki, nazirlik Xırdalan şəhərində Abşeron Rayon Mərkəzi Xəstəxanasının tibbi avadanlıqlarla təchizatı üçün "Arash Medical Company" QSC-yə 5 milyon 538 min 476 manat ödəyəcək.

Qeyd edək ki, KİV "Arash Medical Company"nın sahibi kimi Milli Məclisin keçmiş spikeri, hazırda deputat olan Oqtay Əsədovun qardaşı oğlu Cavid Əsədovu göstərir. O da maraqlıdır ki, mətbuat bu məqamı da çoxdan qabartmaqdadır, lakin adları çəkilən şəxslər deyilənləri nə təsdiqləyir, nə də yalanlayırlar.

Ekspertlərin fikrincə isə hər hansı şirkətin bir nazirliyin və ya başqa bir dövlət qurumunun keçirdiyi satınalma müsabiqələrində davamlı şəkildə qalib elan edilməsi yaxşı hal deyil. Bu həmin tenderdə rəqabətliliyin və obyektivliyin təmin olunduğuna dair ciddi şübhələr yaradır.

Digər tərəfdən, həmin şirkət üstəlik, hansısa yüksək vəzifəli şəxsə bu və ya digər formada bağlıdırsa, satınalmanın şəffaflığı daha da şübhə altına düşür.

Əslində rəsmi yoxlamalar da Şirəliyevin nazirliyinin keçirdiyi satınalmalarla bağlı ciddi şübhələr yaradır. Belə ki, 2018-ci ildə Hesablama Palatasının yaydığı audit hesabatından (2016-2017-ci illər üzrə) belə məlum olurdu ki, tibbi avadanlıqların alınıb quraşdırılması üçün aparılmış satınalma proseduru zamanı qanunvericiliyə əməl olunmayaraq, müqaviləyə əlavə edilmiş qiymət cədvəlində Şəmkir Rayon Mərkəzi Xəstəxanasının tikintisi obyekti üzrə 12 halda, Sabirabad Mərkəzi Xəstəxanasının tikintisi obyekti üzrə yeddi halda, Quba Mərkəzi Rayon Xəstəxanasının tikintisi obyekti üzrə səkkiz halda və Masallı Rayon Mərkəzi Rayon Xəstəxanasının tikintisi obyekti üzrə doqquz halda tibbi avadanlıqların texniki göstəriciləri tenderin qiymət təklifi cədvəlində əks olunmayıb. Yaxud Sabirabad, Qazax və Quba rayon Mərkəzi Xəstəxanalarının tikintisi obyektləri (geoloji-mühəndis və layihə-smeta sənədlərinin hazırlanması işləri) üzrə keçirilmiş təkliflər sorğusunun "Tender nəticələri haqqında tender komissiyasının yekun protokolu"nda "iddiaçının ixtisas uyğunluğunu müəyyənləşdirən meyarlar" bəndində iddiaçının layihə-smeta sənədlərinin hazırlanması işləri üzrə deyil, iddiaçının təmir işlərini aparma təcrübəsi beş balla qiymətləndirilməyib. Açıq tender üsulu ilə satınalma prosedurlarının keçirilməsi üçün kifayət qədər vaxt olduğu halda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən vaxt çatışmazlığı əsas göstərilməklə, verilən razılığa istinad edilərək "Təkliflər sorğusu" və ya "Bir mənbədən satınalma" metodu tətbiq edilməklə, beş obyektin tikintisi üzrə 3-10 ay müddət keçdikdən sonra ümumilikdə 37994,4 min manat məbləğində satınalma müqavilələri bağlanılıb və s. və i.a.

Bu deyilənlərdən də aydın olur ki, Səhiyyə Nazirliyinin keçirdiyi tenderlərin ciddi araşdırılmasına ehtiyac var. Həmin satınalmalar zamanı müvafiq qanunvericiliyin tələblərinə nə qədər əməl edildiyi, şəffaflığın, rəqabətliliyin hansı səviyyədə təmin olunduğu ortaya çıxarılmalıdır.

Əks halda bu tenderlərlə bağlı cəmiyyətdəki və mətbuatdakı müzakirələr nə azalacaq, nə də bitəcək...

***Orxan Həsənli***

# Rəcəb Tayyib Ərdoğan azərbaycanlı xanımları qəbul edib

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik (TADİV) Dərnəyinin sədri, professor Aygün Attarı və "Star" qəzetinin köşə yazarı Sevil Nuriyevanı Qarabağ məsələsi ilə bağlı qəbul edib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən "Unikal"a verilən məlumata görə, İstanbuldakı Vahdettin köşkündə qəbuldan sonra professor Aygün Attar bildirib ki, səmimi atmosfer mühitində keçən görüş zamanı Türkiyə Prezidenti ölkəsinin Azərbaycana mənəvi dəstək göstərilməsi məsələsində qətiyyətli olduğunu və güclü həmrəyliyini bir daha təsdiqləyib.



TADİV sədri 1918-ci ildə Osmanlı Dövlətinin ən çətin zamanlarında Qafqaz İslam Ordusunun Bakını işğaldan qurtarması üçün göstərdiyi dəstəyin Azərbaycan xalqı tərəfindən heç bir vaxt unudulmayacağına və indi də həmin ruhun mövcud olduğuna tam əminliyini ifadə edib.

Sevil Nuriyeva qeyd edib ki, Türkiyənin Azərbaycana dəstəyi savaş içində olan ölkəmizdəki psixoloji duruma müsbət təsir edir. Jurnalist, xüsusilə Türkiyə rəhbərinin Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə iki ölkənin media platformasının ortaq fəaliyyəti barədə aldıqları güclü qərara diqqəti cəlb edib. Azərbaycanın haqq davasına qarşı Qərb dünyasında tətbiq olunan media embarqosunun Türkiyə sayəsində ortadan qalxdığı vurğulanıb.

Görüşdə Prezidentin sözçüsü İbrahim Kalın və İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun iştirak ediblər.

***Zaurə***

# Azərbaycan həm hərb, həm diplomatiya meydanında qalibdir

## Politoloqlar hesab edirlər ki, rəsmi Bakı bundan sonra hər hansı danışıq masasına otursa, qalib kimi şərtləri diqtə edəcək



***Sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatlarının uğurla davam etməsi beynəlxalq aləm, eləcə də bəzi dövlətlər tərəfindən birmənalı qarşılanmır. Əksər dövlətlər ədalətli mübarizədə, Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə əsasən həyata keçirdiyi siyasəti dəstəkləyən dövlətlər olsa da, Ermənistana havadarlıq edənlər də var.***

Maraqlı məqamlardan biri də odur ki, qoşnu ölkə olan Rusiyanın bu prosesdə Ermənistanı açıq şəkildə dəstəkləməsə də, münaqişənin danışıqlar masasına gətirilməsi üçün müəyyən cəhdləri var. Azərbaycan cəmiyyətində isə əsas fikir münaqişənin danışıq yolu ilə həlli limitinin bitdiyi ilə bağlıdır. Artıq əksəriyyət bütün ərazilərimizin işğaldan azad olunmasına qədər əməliyyatların davam etdirilməsini istəyirlər.

Ağ Partiyanın sədr müavini, politoloq Əhəd Məmmədli "Unikal"a açıqlamasında deyib ki, Rusiya Ermənistanın yanındadır, açıq şəkildə olmasa da, bu və ya digər formada dəstəkləyir. Onun sözlərinə görə hazırda Rusiya mövcud durumu, Azərbaycanın mövqeyini, Türkiyə faktorunu da nəzərə alır: "Azərbaycan Ordusu cəbhədə ard-arda uğurlar qazanır, bu da ciddi amildir. Bu mənada Rusiya Ermənistana ermənilərin istədiyi və gözlədiyi kimi dəstək vermir. Burada qeyd etdiyim kimi, müxtəlif faktorlar var. Amma həm də Paşinyanı cəzalandırmaq faktoru da mövcuddur. Yəni, bunu Paşinyanın apardığı anti-Rusiya siyasətinə bir cavab kimi də dəyərləndirmək olar. Hər halda, nə olur-olsun, hazırda Rusiyanın son proseslərlə bağlı mövqeyi Azərbaycanın maraqlarının ziddinə deyil. Azərbaycan öz torpaqlarını almalıdır, hazırda da bu istiqamətdə beynəlxalq hüquq çərçivəsində öz işini görür".

Ədalət Partiyasının sədr müavini, politoloq Elxan Şükürlü isə bizimlə söhbətində bildirib ki, bütün məğlubiyyətlərin kökündə qorxu, vahimə və ümidsizlik yatır. Onun fikrincə, düşmənin canına qorxu və vahiməni sala bildinsə, ümidsizliyə düçar etdinsə, qələbə artıq səníndir: "Əgər düşmən döyüş meydanında 10 min nəfərə yaxın hərbçisinin cəsədlərini, eləcə də hərbi texnika və silah-sursatlarını, döyüş bayraqlarını rüsvayçı şəkildə tullayıb qaçırsa, könüllü əsir düşürsə, deməli, Azərbaycan Ordusu nəinki erməni ordusunun, bütün Ermənistan cəmiyyətinin canına bu qorxunu salmağa və ümidsizlik yaratmağa nail olub. Bunu hamıdan yaxşı bilən Nikol Paşinyanın belə bir vəziyyətdə Rusiya ilə strateji müttəfiqlikdən danışması və "Bu münaqişənin diplomatik həlli yoxdur, erməni xalqı silahlanmalı, savaşmalıdır" çağırışını səsləndirməsi, əslində, Ermənistan cəmiyyətini təslimçi sülhə hazırlamağa və cəbhədəki məğlubiyyətin məsuliyyətini də xalqın üzərinə yıxmağa hesablanıb. Çünki o, aşkar görür ki, ermənilərin döyüş əzmi sınıb və çoxsaylı itkilər hərbi müstəvidə tam kapitulyasiya ilə, deməli, həm də onun hakimiyyətdən devrilməsiylə yekunlaçacaq. Odur ki, indi əzmi qırılan və qorxu hissinin idarə etdiyi Ermənistan cəmiyyətini Rusiyanın dəstək verəcəyinə ümidləndirməklə, həm də iki seçim qarşısında qoyur: ya savaşmalısan, ya da Qarabağın itirilməsiylə barışmalısan. Dünən Rusiyanın dəstəklədiyi "Qarabağ klanı"nın əsas liderləriylə təcili keçirilən görüş və sabiq prezident Serj Sarkisyanın da xarici mətbuata müsahibəsində vəziyyətin bu həddə gəlib çatmasının əsas təqsirkarı kimi Paşinyanı göstərməsi də mənzərəni tam aydınlaşdırır.Bütün bunlara əsasən demək olar ki, Ermənistan addım-addım hərbi çevrilişə yaxınlaşır".

Politoloq Zərdüşt Əlizadə Qarabağ konflikti və onun həlli yollarından danışarkən deyib ki, bu, böyük tarixi proses, uğurlu hərbi əməliyyatdır. Onun fikrincə, böyük dünya gücləri də burada iştirak edir və hamının da qəti mövqeyi belədir ki, Ermənistan Rusiyadan qoparılmalıdır, Rusiya Cənubi Qafqazdan çıxarılmalıdır və Azərbaycan Qarabağı özünə qaytarmalıdır: "Azərbaycan Ordusu da bunu yüksək göstəricilərlə həyata keçirir. Eşq olsun, bizim Ordumuza. Hərbi əməliyyatlar uğurla həyata keçirilir".

Z. Əlizadə Ermənistan Xarici işlər naziri Zohrab Mnatsakanyanın Moskva səfərini də qiymətləndirib: "Moskva səfərində məqsəd Rusiyanın mövqeyini öyrənməkdir. Amma mən hesab edirəm ki, indiki halda Rusiyanın mövqeyindən çox az şey asılıdır. Hadisələr elə sürətlə inkişaf edir ki, ola bilsin, Azərbaycan və Ermənistan Xarici işlər nazirləri Vaşinqtona gəlib çatanda artıq Qubadlı rayonu və Kəlbəcərin yarısı Azərbaycan Ordusunun nəzarətinə keçsin".

Politoloqun fikrincə, Ermənistan Vaşinqton görüşü öncəsi Rusiyanın mövqeyini öyrənsə də, əslində, bundan çox az şey asılıdır. Politoloqun qənaətincə, mümkündür ki, Xarici işlər nazirləri Vaşinqtonda ortaq məxrəcə gəlməyib geri qayıdanda erməni nazir təyyarəsində eşidəcək ki, artıq Şuşa Azərbaycan Ordusunun nəzarətindədir: "Mnatsakanyanın təyyarəsi İrəvan hava limanına düşəndə görəcək ki, Qarabağda qalan 15-20 min erməni artıq Yerevana çatıb". Z.Əlizadə hesab edir ki, indiki halda erməni cəmiyyəti və siyasi elitasının birləşməsi də heç nəyi həll etməyəcək: "Axı onlar birləşib nə edəcəklər? Cəbhədə Azərbaycana qarşı dirəniş göstərəcəklər? Məsələn, bizim müxalifət son 20 ildə fərqli adlar altında birləşib, əvvəl SİDSUH, sonra Milli Şurada bir araya gəldi. Nəticəsi oldumu? Yox! Erməni cəmiyyətinin, fərqli kateqoriyaların birləşməsi ilə hər şey həll edilmir. Sıfır, üstəgəl sıfır, üstəgəl sıfır... Yəni nəticə yenə sıfır olacaq. Ermənistanda real güc yoxdur. Erməni cəmiyyəti zəka baxımından gerçək dünyanın tələblərindən geri qalır. Bir dəfə gerizəkalıq edəcəksən, ikinci dəfə edəcəksən, üçüncü səhvin olacaq, birləşdikdə də, heç nə alınmayacaq və nəticə sıfır olacaq. Mən yüz faiz deyirəm ki, Azərbaycan cəmiyyətinin üryində olanlar həyata keçəcək".

***Z.Məmmədli***

# Əli Əhmədovdan Medvedevə məktub

## Baş nazirin müavini: "Dövlət Dumasi üzvünün belə bir məsuliyyətsiz addımı..."

***Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədov Rusiya Təhlükəsizlik Şurasının sədr müavini, "Vahid Rusiya" partiyasının sədri Dmitri Medvedevə məktub ünvanlayıb.***

Bu barədə "Unikal"a YAP-ın mətbuat xidmətindən məlumat verilib. Məktubda deyilir: "Bu günlərdə Rusiya Federasiyasının Dövlət Dumasının "Vahid Rusiya" partiyasından olan üzvü Vitali Milonovun Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qeyri-qanuni səfəri Azərbaycan ictimaiyyətində ciddi narazılıq doğurmuş, onun adı Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına əlavə edilib.

Bu qanunsuz səfər Ermənistanın Azərbaycana qarşı təcavüzünə və işğal olunmuş ərazilərdə yaradılmış qondarma rejimə dəstəyin ifadəsi olub, Azərbaycan ilə Rusiya arasındakı hərtərəfli dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna ziddir".

Əli Əhmədovun məktubunda Milonovun "Vahid Rusiya" partiyasının üzvü olması vurğulanaraq qeyd edilir ki, onun bu addımı indiyədək ikitərəfli qaydada və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edən Yeni Azərbaycan Partiyası tərəfindən xüsusi təəssüf hissi ilə qarşılanır.

YAP sədrinin müavininin məktubunda daha sonra qeyd olunur: "Dövlət Dumasının üzvünün belə bir məsuliyyətsiz addımı ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasını yerinə yetirən Rusiya Federasiyasının illər ərzində apardığı fəaliyyətlə ziddiyyət təşkil edir.

Sentyabrın 27-dən etibarən Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatının nəticəsində başlayan döyüşlərin getdiyi bir vaxtda işğalçıya rəğbət ifadə edən səfərdə iştirak etmək Rusiya Federasiyasının Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyən rəsmi mövqeyinə qarşı çıxmaq deməkdir.

Gələcəkdə Rusiyanın rəsmi şəxsləri tərəfindən bu cür qanunsuz və təxribatçı fəaliyyətlərin qarşısının alınması üçün müvafiq tədbirlərin görüləcəyinə ümid edirik".

# "Qarabağ Azərbaycandır!" mövzusunda zərflər dövriyyəyə buraxılıb

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC tərəfindən "Qarabağ Azərbaycandır!" mövzusunda markalı zərflər dövriyyəyə buraxılıb.***

"Azərpoçt" MMC-dən "Unikal"a verilən məlumata görə, zərflərin üzərində Azərbaycan xəritəsi, Azərbaycan və ingilis dillərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunub. Üz tərəfin fonunda isə hərbi kamuflyaj təsvir edilib.

Sözügedən zərflər sadə, sifarişli və sifarişli-xəbərnaməlidir. Sadə zərflərin markasında işğaldan azad edilən Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüsü, sifarişli zərflərin markasında Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşən və 1314-cü ilə aid Qutlu Musa türbəsi, sifarişli-xəbərnaməli zərflərin markasında isə Şuşa şəhərinin gerbi təsvir olunub.

Əsas məqsəd son günlər hər birimizi qələbə xəbərləri ilə sevindirən rəşadətli Azərbaycan Ordusuna mənəvi dəstək olmaq, zəngin tariximizi və qədim abidələrimizi beynəlxalq miqyasda təbliğ etməkdir.

Qeyd edək ki, zərflərin dizaynı "Azərmarka" MMC-nin əməkdaşı Anar Mustafayev tərəfindən hazırlanıb.

# “S-300” satışı və Dağlıq Qarabağ

## TÜRK-YUNAN MÜBAHİSƏSİ KİMİ, BU MÜNAQİŞƏDƏN RUSİYA NƏ UMUR?



***Rus silah ixracatı sürətli bir şəkildə Türkiyə-Yunanıstan mübahisəsinin hər iki tərəfinin istifadə etdiyi qorxutma taktikasının aləti halına gəlir. Bu, ən azı, yunan mediasının son bir neçə həftədəki xəbərlərini oxumaqdan çıxan nəticədir. Rusiya silahlarını alaraq NATO həmrəyliyini pozmaqda günahlandırılan hər iki Aralıq dənizi düşməni ərazi suları ilə bağlı mübahisədə müharibə təhdidlərinə əl atır.***

Yeri gəlmişkən, yunanlar yalnız Kiprin - Rusiyadan alınan “S-300”-ün Yunanistana çatdırıldığı nöqtədə deyil, həm də Fransa, Misir və Birləşmiş Ərəb Əmirliklərinin dəstəyindən zövq alırlar. Rusiya artıq Türkiyə-Yunanıstan qarşıdurmasına dolayı təsir göstərə bilər. Bununla belə, Moskvanın hansısa düşərgəyə qətiyyətli dəstək verməsi, ya da mübahisənin həllinə çox səy göstərməsi ehtimalı azdır. Həqiqətən də, mövcud gərginlik Kremlin əlinə oynayır.

Sentyabrın ortalarında yunan mediasında hökumətin Rusiya istehsalı olan “S-300PMU-1”-in “S-300PMU-2 Favorit” versiyası ilə modernləşdirilməsinə dair Moskva ilə danışıqlar apardığına dair məlumatlar yayılmağa başlayıb. Mətbuat Afinanın Krit adasında “S-300” ilə son 15 ildə ilk təlimlər keçirməyə hazırlaşdığını yazır.

Rəsmilər bu söz-söhbətləri hələ təsdiqləməsə də, Türkiyə ilə mübahisənin qızışdığı bir vaxtda sızıntının Ankaraya siqnal göndərdiyi məlumdur. Təlimlərin keçirilməsinə səbəb Türkiyənin Aralıq dənizinin şərqində neft və qaz kəşfiyyatını genişləndirməsi təhlükəsidir.

Bu genişləndirmənin əsas memarı mövqeyini artıq itirmiş admiral Cihat Yaycıdır. O, Türkiyənin Egey, Aralıq dənizi və Qara dənizlərdə suverenliyini iddia edən “Mavi Vətən” doktrinasının bir hissəsidir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu yaxınlarda Qara dənizdə bir qaz yatağının təxmin edilən ehtiyatlar haqqında məlumat verərək 405 milyard kubmetrə çatdığını bildirib. Ankara Aralıq dənizində inanıldığından daha çox ehtiyatın olacağını bildirib.

Əslində, yunan təlimləri Türkiyənin “S-400”-lə etdiyi sınaqlara cavab da ola bilər.

Bu kontekstdə yunanlarla ruslar arasındakı danışıqlara dair hesabatlar, xüsusən Yunanistan rəsmilərinin əvvəllər bu cür danışıqlarda iştirak etməsi şərti ilə, çox da yersiz görünmür. 2015-ci ildə Yunanistanın müdafiə naziri Panos Kammenos “S-300” üçün yeni raketlər alması və mövcud hava hücumundan müdafiə sistemlərinə xidmət göstərməsi ilə əlaqədar Rusiya ilə danışıqlar aparıb. Ukrayna böhranına və Qərbin yeni tətbiq etdiyi sanksiyalara baxmayaraq.

O dövrdə hamısı vahid sistemə inteqrasiya olunmuş “S-300PMU”-larla birlikdə “Patriot PAC-2” tutucuları yerləşdirən yeganə ölkə Yunanıstan idi. Yunanların Sovet İttifaqında istehsal olunan iki qısa mənzilli raketi də vardı: “Osa-AKM” və “Tor-M1”.

Xatırladaq ki, Yunanıstandakı iki “S-300” taboru birbaşa Rusiyadan alınmayıb, Kiprdən göndərilib, çünki ABŞ, İngiltərə və Türkiyə sistemlərin adada yerləşdirilməsinə mane olub. 2006-07-ci illərdə sistemlər Yunanıstana köçürülüb və 2013-cü ildə “Lefkos Aetos 2013” hərbi manevri zamanı “S-300”-lərlə ilk sınaqların həyata keçirməsindən təxminən 10 il keçib.

Rusiya Hərbi Hava Qüvvələri zenit-raket qoşunlarının keçmiş başçısı Aleksandr Qorkov bir dəfə mənə deyib ki, yunanlar şəxsi söhbətlərdə hərbi üstünlüklərindən başqa manevrlərlə danışıqlar üçün siyasi siqnal göndərdiklərini gizlətməyiblər - Türkiyəyə. 2014-cü ildə Moskvanın aktiv təmaslarda olduğu Afina (hətta faydalı ritorikaya görə yunan partiyaları Rusiyadan maliyyə almışdılar) hərbi parad zamanı “S-300” sistemlərinin nümayiş olunmasına qərar verib. Sistemlər son anda proqramdan çıxarılıb, amma parad qonaqlarına paylanan broşurlarda “S-300” nümayişi gündəm maddələrindən biri olaraq qalıb.

Nə bu naqolay anlar, nə də sanksiyalar Yunanıstanın “Tor-M1” və “Osa-AKM” raketlər müdafiə sistemlərinin ehtiyat hissələrinin göndərilməsinə dair Rusiya ilə müqavilə bağlamasına mane olmayıb. Yunan tərəfi daha sonra vurğulayıb ki, razılaşma ölkənin müdafiə qabiliyyətini qorumağa xidmət edib. Ancaq göründüyü kimi, “S-300” raketlərinin alınması planları kağız üzərində qalıb. Hazırda rusların daha uzun mənzilli yeni raketlər təklif etməsi şərti ilə belə bir razılaşma üçün əsl hərbi zərurət yaranıb.

Yunanıstanın “S-300” batalyonlarını modernləşdirmək niyyəti barədə xəbərlərin saxta olduğu təsəvvür edilə bilməz, baxmayaraq ki, texniki baxımdan “S-300”-ün hazırda mövcud olan versiyaya yüksəldilməsi mümkündür. Suriya və İrandakı kimi. Həqiqətən, “S-300PMU-2 Favorit” sistemi “S-300PMU-1” sistemi üzərində qurulub və bir neçə yeniləmə təklif edir. İki təkrarın bir fərqi budur ki, birincidə, “S-300PMU-2”-də “48N6E2” raketlərinin ballistik hədəfləri 40 kilometr (25 mil) - 200 kilometr (124 mil) məsafədə vurma qabiliyyəti ilə yerləşdirə bilər. Hədəf ssenarisi daha dəqiq olmaqla. Bundan əlavə, təkmilləşdirilmiş “S-300” hədəflərin aşkarlanması və izlənməsi sistemi ilə yanaşı, pilotsuz döyüşlərdə daha yaxşı performans göstərən “96L6E” radarına malikdir.

Nəzəri olaraq, Moskva, xüsusən “S-300” yeniləməsi ilə bağlı yeni bir razılaşma olmasa da, mövcud olana əlavə şərtilə, Yunanıstanla müqavilə bağlamaqda maraqlı ola bilər. Bu, Rusiyaya Yaxın Şərq teatrında Türkiyə ilə oyundakı payları və Dağlıq Qarabağ münaqişəsi kontekstində müəyyən dərəcədə yüksəliş imkanı verərdi. Mülayim tonuna baxmayaraq, Moskva Ankaranın Cənubi Qafqazdakı fəaliyyətindən narazıdır, bu da Rusiya mediasında yayımlanan anti-Türkiyə sızmalarından aydın olur. Halbuki Türkiyə Dağlıq Qarabağdakı qarışıqlığın əsas mənbəyi deyil.

Bundan əlavə, Kipr prezidenti Nikos Anastasiades rəsmi olaraq Rusiya lideri Vladimir Putindən Aralıq dənizi mübahisəsinə müdaxilə etməsini və Türkiyəni Kiprin müstəsna iqtisadi bölgəsindəki qaz axtarışından çəkindirməsini istəyib. Bu müdaxilə Rusiyanın Kiprdəki səfiri Stanislav Osadçinin adanın müdafiə naziri Xaralampos Petrides ilə ikitərəfli əlaqələrə dair suallar ətrafında danışıqlar apardığı bir vaxtda baş verib. Ümumiyyətlə, o zaman Moskva özünü nüanslı bir vəziyyətdə aşkarlayıb. Məsələləri daha da çətinləşdirən Kipr, Yunanıstan və İsrailin Rusiyanın dəstəklədiyi “Türk Axını”na birbaşa rəqib olan “EastMed” boru kəməri layihəsini təbliğ etməsidir.

Rus mütəxəssislər Moskva-Afina münasibətlərinin gedişatında dəyişiklik perspektivi barədə düşünərkən ehtiyatlı olurlar. Rus jurnalist İqor Subbotin “Əl-Monitor”a bildirib ki, Rusiyanın Yunanıstanla bağlı qəti bir strategiyası olmasa da, bir tərəfdən, Aralıq dənizindəki müxtəlif oyunçularla Birləşmiş Ştatlar arasında artan ziddiyyətlər fonunda təsir gücünü böyütmək üçün fürsəti əldən verməyəcək. Digər tərəfdən, Vaşinqton silah embarqosunun ləğvini Kiprin Rusiya hərbi gəmilərinin limanlara girişinə qadağası ilə əlaqələndirib. Kiprin Belarusa qarşı sanksiyaları təsdiqləməyi rədd etməsi - Avropa İttifaqı Türkiyə ilə münasibətini sərtləşdirməsə, - Kremlin öz nüfuzunu təsdiqləmək üçün Qərb daxilindəki çəkişmələrdən istifadə etməsi baxımından faydalıdır. “Bu, Rusiya xarici işlər naziri Sergey Lavrovun adaya səfəri ilə eyni vaxta təsadüf edib. Beləliklə, “East-Med” boru kəmərinə qarşı “Türk axını” layihəsini dəstəkləyərək, Kreml yenə də Türkiyəyə təzyiq göstərə bilər. Ankaranın gələcəkdə özünü təmin edə bilməsi dəlillərini rədd edərək, qaz qiymətləri ilə bağlı daha yaxşı bir anlaşma imzaladar”.

Rusiya Beynəlxalq Məsələlər Şurasının Ankara mərkəzli mütəxəssisi Timur Axmetov açıqlamasında Rusiyanın Kipr problemi ilə əlaqədar mövqeyinin Türkiyədə narahatlıq yaratmadığını bildirib. Çünki o, adadakı fərqli icmalar arasında dialoqun bərpasını dəstəkləyir. Digər tərəfdən, Aralıq dənizindəki gərginlik Rusiya maraqlarına uyğundur. Əvvəla, bu gərginlik, Rusiyanın dəstəklədiyi boru kəməri layihələri ilə rəqabətdə olan qaz layihələri ilə əlaqəli ticari riskləri artırır. İkincisi, gərginlik ABŞ və NATO-ya baha başa gəlir, onları Qara dəniz bölgəsində və Suriyada Rusiyaya qarşı əzələ siyasəti yürütməkdən yayındırır.

***Anton Mordaşov***
***“Əl-Monitor”, 22.10.2020***

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# "Bütün dünya bilməlidir ki, Qarabağ uğrunda savaş haqq-ədalət savaşıdır"

## Məcburi köçkün: "27 ildir ki, arzumuz həsrət qaldığımız Zəngilan şəhərinə qayıtmaqdır"

***Hər il oktyabrın 29-da onlar Zəngilanı yenidən xatırlayır, o acı günlərə bir də geri dönürdülər. Amma bu il onlar ancaq və ancaq qələbə sevincini yaşayacaqlar. Çünki, müzəffər Azərbaycan ordusu Zəngilan şəhərinin işğal olunma tarixinə 9 gün qalmış Zəngilanı işğaldan azad etdi.***

Zəngilanlıların kompakt yaşadığı Masazır qəsəbəsindəki Zəngilan şəhərciyi də iki gündür ki, qələbə sevincini yaşayır. Əslən Zəngilan rayonundan olan 70 yaşlı Vaqif Hüseynov deyir ki, zəngilanlıların nəinki üzü, ürəyi də gülür, bu günlərdə. Bu xəbəri eşidəndən kövrəlib, elə hey ağlayan Vaqif dayı da Zəngilanı bir gün də olsun unutmadığını söyləyir: "Hər şeydən öncə bütün dünya bilməlidir ki, Qarabağ uğrunda savaş haqq-ədalət savaşıdır. Ona görə də hazırkı qələbələr bizə daha şirin, daha əzizdir. Evim-eşiyim, həyət-bacam, qonşularım, torpağım gözümün önündən getmir. 27 ildir ki, biz isti ocağımızdan didərginik. Bu hissi sözə çevirmək olmur. Bunu ancaq yaşayan bilər".

Vaqif dayı 2013-cü ildən Abşeron rayonu, Masazır qəsəbəsində məcburi köçkünlər üçün inşa edilən şəhərcikdə yaşayır. Həm özü, həm də həyat yoldaşı 1-ci qrup əlil olan bu ağsaqqal 27 ildir ki, hər ikisinin "Zəngilan" deyib göz yaşı tökdüyünü bildirir. Vaqif dayının ömür-gün yoldaşı olan Qızılgül ana da kövrəkdir, bu günlərdə. Deyir, 27 illik duası olub Zəngilana qovuşmaq.

Zəngilan şəhərciyində qələbə sevinci elə kənardan da hiss olunur. İndi bu şəhərcikdə yerləşən bütün evlərdən, balkonlardan 3 rəngli bayrağımız dalğalanır. Sakinlərin maşınlarını da bayraq və Zəngilan sözü bəzəyib. Şəhərciyin sakini Nəsibə Məmmədova isə kənd Zəngilandandır. Zəngilan şəhərciyində məskunlaşmış bu ağbirçəyin doğma torpaqlarına qayıtmaq sevinci üzündən hiss olunur: "Zəngilan camaatı dünəndən qələbə sevincini bayram edir. Şəhidlərimizə görə bir gözümüz ağlayır, bir gözümüz gülür. Zəngilana qayıdan gün ilk gedəcəyimiz yer şəhid məzarlığı olacaq. Biz orada neçə-neçə şəhidimizi dəfn etmişik. Onların ruhu biz onları yad etdiyimiz gün şad olacaq. Ordumuza da prezidentimizə də minnətdarıq. Bütün dualarımız onlar üçündür".

Şəhərcikdəki Zəngilan Şəhər İcra Hakimiyyətində də olduq. İcra Hakimiyyətindən bizə məlumat verildi ki, Abşeron rayonunda yerləşən Zəngilan şəhərciyinidə 380 ailə-1928 nəfər zəngilanlı məskunlaşıb. Rayon işğal olunduqda 33667 nəfər əhalisi olan Zəngilanın hazırda əhalisinin sayı artaraq 42487 nəfərə çatıb. İndi bu şəhərcikdə yaşayan bütün zəngilanlıların bir istəyi var,o da şəhərcik salıb adını verdikləri Zəngilandan doğma torpağa, 27 ildir ki, həsrət qaldıqları Zəngilan şəhərinə qayıtmaqdır. O günə isə az qalıb...



Qeyd edək ki, Zəngilanın işğaldan azad edilməsi bizim o torpaqlarımıza qayıtmaq inamımızı daha da artırır. Azərbaycan bu torpaqların xalqımıza məxsus olmasını isbatlamaq üçün illərdir ki, Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırsa da, beynəlxalq təşkilatlar buna göz yumur. Halbuki həmin torpaqlarda Azərbaycan xalqına məxsus mədəni-tarixi abidələrin olması o yurd yerlərinin bizə aid olduğunun əlavə dəlilə ehtiyacı olmayan sübutudur.

Zəngilan Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, Ermənistan Silahlı qüvvələri tərəfindən işğal edilənə qədər Zəngilan rayonu üzrə 96 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatında idi. İndi bu abidələrin əksəriyyəti məhv edilib. Bunu həmin abidələrin kosmosdan görüntüləri və İran ərazisindən görünən xarabalıqları da təsdiq edir. 29 oktyabr 1993-cü ildə Ermənistan qoşunları tərəfindən işğal olunduqdan sonra Zəngilan rayonu ərazisində mövcud olan yüzə qədər tarixi-dini və memarlıq abidəsi məhv edilib. Rayonun ermənilərin mədəni terroruna məruz qalmış tarixi-dini abidələri sırasında məscidlər və ziyarətgahlar (İmam Hüseyn məscidi (XVII əsr) - Zəngilan şəhəri; Zəngilan məscidi (XIX əsr) Malatkeşin məscidi (XIX əsr), Qırıq Muşlan, Muşlan, Rəzdərə kəndlərindəki məscidləri (XIX əsr), Xanazor, Yeməzli alban kilsələrini - Yeməzli kəndi); ziyarətgahlar (Səkkizguşəli türbə (XIV əsr) - Məmmədbəyli kəndi, Ziya Baba ocağı - Ağkənd kəndi, Xanazur türbəsi və piri, Sultan Heydər piri - Bartaz kəndi, Günqışlaq piri, Hacıllı günbəzi, Məlikli Hacı Mir Məhəmməd ocağı, Pirveyis piri, Seyid Musa ocağı - Sobu kəndi, Qaradağlı piri - Şəfibəyli kəndi, Yal piri - Vejnəli kəndi, Soltan ocağı - Yeməzli kəndi, Məmməd bəy türbəsi - Məmmədbəyli kəndi) bu gün tamamilə dağıdılıb.

Zəngilanın tarixi memarlıq abidələri - Şərifan abidələri (IX-XVI əsrlər), Şəhri Şərifan yaşayış yeri (orta əsrlər) - Hacallı kəndi, Ağca Aşıq yaşayış yeri (orta əsrlər) - Qumlaq kəndi, Qız qalası (orta əsrlər) - Qumlaq kəndi, Qəsr qalası (orta əsrlər) - Oxçuçayın Araza töküldüyü yerdə, Şərikan kəndində sərdabə (XIII əsr), Yenikənd kəndində Sərdabə (XIV əsr), Hacallı dairəvi bürcü (XIV əsr), Hacallı qülləsi (XIV əsr) - Məmmədbəyli kəndi, Nekropol (e.ə VI-IV əsrlər) - Quyudərə Xəştab kəndi, Küp qəbirlər (b.e.ə. IV-II əsrlər) - Yeməzli kəndi, Koroğlu daşı (VII-VIII əsrlər), Bartaz Qız qalası (XIV əsr), Tağlı körpüsü (XVI əsr) - Sobu kəndi, Yəhya ibn Məhəmməd əl-Hoca məqbərəsi - Məmmədbəyli kəndi və s. Zəngilan şəhərindən 8 km. aralı, Əsgulüm dağında 30 m hündürlüyündə, 150 metr enində "Qala" divarları (III-V əsrlər) Azərbaycanda tikilmiş müdafiə əhəmiyyətli tarixi abidələrdən biridir. Zəngilan abidələri öz memarlıq xüsusiyyətlərinə görə fərqlənirlər (46, s. 56-63). Bu ərazilərdə XIII-XIV əsrə aid sənduqə, başdaşı formalı, qoç, at heykəlli qəbirdaşları ərəb, fars, Azərbaycan dilli yazılarla və müxtəlif relyeflərlə Azərbaycan xalqının həyatının, məişətinin müxtəlif tərəflərini əks etdirir, xalqın tarixinə, toponimikasına, xalq təbabətinə, etnogenez məsələlərinə aydınlıq gətirir, Azərbaycanın orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırır. Bütövlükdə Ermənistan Silahlı qüvvələri tərəfindən işğal edilənə qədər Zəngilan rayonu üzrə 96 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatında idi. İndi bu abidələrin əksəriyyəti məhv edilib. Bunu həmin abidələrin kosmosdan görüntüləri və İran ərazisindən görünən xarabalıqları da təsdiq edir.

Xatırladaq ki, Prezidenti İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində işğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını açıqlayıb.Ali Baş Komandan bildirib ki, Zəngilan rayonu, Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Qeyd edək ki, Qarabağ müharibəsində 188 şəhid verən Zəngilan rayonunun 44 sakini itkin düşmüş sayılır. Qubadlı və Cəbrayıl rayonlarının işğalı nəticəsində mühasirəyə düşən Zəngilan əhalisi çıxış yolunu Araz çayından İran ərazisinə keçməkdə görürdü. Əks-təqdirdə ikinci Xocalı faciəsi yaşana bilərdi. Zəngilan rayonu inzibati ərazi vahidi kimi 1930-cu ildə təşkil edilib. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, cənubdan İran İslam Respublikası, qərbdən Ermənistan ilə həmsərhəddir. Bakı-Culfa-Naxçıvan dəmir yolunun üzərində yerləşən bu rayon mühüm strateji əhəmiyyətə malikdir. Rayonun ərazisi 707 kvadratkilometr, əhalisi isə 35 mindən çox idi. İqtisadiyyatının əsasını kənd təsərrüfatı - üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edirdi. İşğal olunmazdan əvvəl bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 34 ümumtəhsil məktəbi, texniki peşə və musiqi məktəbləri, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu fəaliyyət göstərirdi. Bütün Avropada ən böyük çinar meşəsi bu rayonda idi. Ermənilər həmin çinarları doğrayaraq xarici ölkələrə satıblar. Həmçinin mərmər, qızıl, qranit və digər yeraltı sərvətlər də işğalçılar tərəfindən talan edilib. Rayonun ərazisində 1974-cü ildə yaradılan Bəsitçay Dövlət Təbiət Qoruğu bərbad vəziyyətə salınıb. Qoruqdakı qiymətli ağacları kəsib-doğrayan ermənilər onlardan mebel sənayesində istifadə edirlər. Zəngilanın ərazisi arxeoloji və memarlıq abidələri ilə də zəngindir. Onlardan ən böyüyü "Şəhri Şərifan" adı ilə tanınan orta əsr şəhərinin xarabalıqlarıdır. Doğma yurd-yuvalarından didərgin düşmüş zəngilanlılar ölkəmizin müxtəlif rayonlarında məskunlaşıblar. Digər məcburi köçkünlər kimi, onlar da dövlət qayğısı ilə əhatə olunublar, həyat şəraitləri getdikcə yaxşılaşıb. Amma bunlar zəngilanlıların yurd həsrətini ovuda bilməyib. İndi Zəngilan camaatı öz dədə-baba yurdlarına böyük köçün astanasındadırlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# Bakıda hamilə qadına dəhşətli hərəkət: “Mətbəxdə yalvardım ki, mənimlə...”



***Abşeron rayonunda hamilə həyat yoldaşını öldürməyə cəhddə təqsirləndirilən 1997-ci il təvəllüdlü Şəmil Abdullayevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Şəmil Abdullayev nikahlarını rəsmi qaydada qeydiyyata aldırmadan birgə yaşadığı, ikinci uşağa hamilə olan arvadı Səbinə Atababayeva ilə mübahisə edib.

2019-cu ilin mart ayında Səbinə Atababayeva Şəmil Abdullayevdən ayrılıb və atasının evinə gedib.

Şəmil Abdullayev arvadını birgə yaşadıqları Ağstafa şəhərinə qaytarmaq üçün qayınatasına məxsus Abşeron rayon Fatmayi qəsəbəsində evə gəlib. O, arvadı ilə görüşsə də, onun razılığını ala bilməyib.

### Hamilə qadına qarşı dəhşətli cinayət

Daha sonra o, eyni məqsədlə növbəti dəfə 16 may 2019-cu il tarixdə, saat 19.00-da qayınatasının ervinə gəlib. Azyaşlı övladını əzizlədikdən sonra evin mətbəxində tək olan Səbinəyə yaxınlaşıb, söhbət əsnasında ona ailəni bərpa etməyi, birgə yaşadıqları evə qayıtmağı təkidlə tələb edib.

Bu zaman Şəmil Abdullayev arvadının qəti etiraz etdiyini görüb qisas almaq niyyəti ilə onu öldürmək qərarına gəlib. O, arvadına üç bıçaq xəsarəti yetirib.

Şəmil Abdullayevin barəsində Cinayət Məcəlləsinin 29, 120.2.8-ci (təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürməyə cəhd) maddəsi ilə ittiham elan edilib.

### “Aramızda sevgi hissləri yarandı”

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Şəmil Abdullayev elan olunmuş ittiham üzrə özünü qismən təqsirli bilib. O, qeyd edib ki, 2017-ci ildə Bakı şəhərində yaşayıb: “Bu müddətdə Səbinə ilə tanış oldum, aramızda sevgi hissləri yarandı. Səbinəyə ailə qurmağı təklif etdim, amma onun valideynləri ailə qurmağımıza narazı oldular.

Səbinənin razılığı ilə ailə qurmaq məqsədilə onu 8 may 2017-ci il tarixdə qaçırdım və valideynlərimin yaşadığı Ağstafa şəhərinə apardım. Səbinənin anası mənim barəmdə Abşeron rayon Polis İdarəsinin Mehdiabad polis bölməsinə ərizə yazaraq qızının zorla qaçırıldığını bildirdi. Bununla bağlı araşdırma aparıldı. Səbinənin izahatı alındı.

Səbinə ailə qurmaq üçün özü mənə könüllü qoşularaq rayona getdiyini bildirdi, valideynlərinin yanına qayıtmaqdan imtina etdi. Polis orqanı bizi sərbəst buraxdı”.

### “Əməlindən əl çəkmədi”

Şəmil Abdullayev bildirib ki, Səbinə ilə ailə qurub və valideynləri ilə bir evdə Ağstafa şəhərində yaşayıblar: “Bu nikahdan 1 aprel 2018-ci ildə Aslan adlı oğlum olub. Səbinə ana olduqdan sonra tamamilə dəyişdi, anam Baharla konfliktlərə girdi, mənimlə kinli davranmağa, atamı saymamağa başladı. Səbinənin bu hərəkətlərindən ailədaxili mübahisələr yarandı. Onu tənbeh etməyə çalışsam da, Səbinə əməlindən əl çəkmədi”.

Təqsirləndirilən şəxsin sözlərinə görə, 2019-cu ilin mart ayının sonlarında qayınanası Mehriban onlara gəlib: “Mehriban qızı Səbinəyə pis münasibət göstərildiyini iddia edərək qızını və nəvəsini Bakı şəhərinə apardı. Səbinə anası ilə ata evinə gedərkən ikinci uşağa 6-7 aylıq hamilə idi.

Söhbətlərdən belə başa düşdüm ki, Səbinə bilərəkdən anasına giley edib, anasından gələrək onu aparmasını tələb edib. Buna baxmayaraq düşündüm ki, Səbinənin bu hərəkətləri hamiləliyi ilə əlaqədardır, ata evinə gedib, bir müddət qaldıqdan sonra ailəsi üçün darıxar, geri qayıdar.

Mobil telefonu olmadığından ata evinə gedəndən sonra Səbinə ilə şəxsən telefon əlaqəsi saxlaya bilmədim. Ara-sıra qayınanam Mehribanın mobil telefonuna zəng etmişəm, oğlum Aslan və arvadım Səbinə ilə maraqlandıqda, qayınanam ünvanıma alçaldıcı ifadələr işlədir, qızından və nəvəsindən uzaq durmağımı tələb edirdi. O, Səbinə ilə danışmağıma imkan vermirdi”.

### “Telefon kimindir, kimə SMS yazırsan?”

Şəmil Abdullayevin ifadəsinə görə, bir müddət keçdikdə ailəsiz qala bilməyib: “2019-cu ilin may ayının əvvəllərində qərara gəldim ki, Səbinənin arxasınca qayınatamgilə gedim. Əgər Səbinə ailəmdən və məndən küsübsə, nəyin bahasına olur-olsun barışaraq onu rayona valideynlərimin yanına qaytarım.

Bakı şəhərində Səbinə ilə görüşdüm. Ona Ağstafa şəhərinə qayıdaraq birgə yaşamağı təklif etsəm də, Səbinə rayonda yaşamaq istəmədiyini, bir daha rayona getməyəcəyini bildirdi. Mənimlə danışmaq istəmədiyini dedi.

Hadisədən bir neçə gün əvvəl növbəti dəfə Səbinəni görmək üçün yanına gedərkən qayınanam Mehriban və baldızım Samirə mənimlə pis rəftar etdi. Səbinənin isə əlində mobil telefonla kiməsə SMS yazdığını gördüm.

Ondan “telefon kimindir, kimə SMS yazırsan”, - deyə soruşdum. O, “telefon bacım Samirənindir, bir də bunun sənə nə aidiyyəti var?!”, - deyərək kobud cavab verdi. Səbinənin hərəkətlərinə və verdiyi kobud cavaba əsəbləşdim, oranı tərk etdim”.

### “Oğlumu öpdüm, əzizləyərək oynatdım”

Təqsirləndirilən şəxs bildirib ki, hadisədən iki gün əvvəl yenə Səbinəni görmək üçün onlara gəlib: “Səbinəyə yaxın günlərdə ikinci uşağa ana olacağını, iki körpə uşaqla şəhərdə yaşayıb, dolanmağın çətin olduğunu izah etdim. Səbinə sözlərimə əhəmiyyət vermədi. Mayın 16-da qərara gəldim ki, Səbinəni görüb, münasibətlərimizə aydınlıq gətirim. Bu məqsədlə saat 16-17 radələrində evdən gedərkən uzaq qohumum Qasımla rastlaşdım. Ona dedim ki, qayınatamgilə gedib, oradan arvaduşağımı rayona aparacam, yükü ağır ola biləcəyi üçün çantalarımı avtovağzaladək aparmasında mənə kömək etsin. Qasım razılaşdı, birlikdə qayınatamgilə yollandıq.

Təxminən saat 18.00-da qayınatam Ağasəfin yaşadığı çatdıq. Bu zaman haradansa gələn qayınatam bizimlə görüşdü. Ağasəfə Səbinəni rayona aparmaq istədiyimi bildirdim. Sonuncu mənə “sizdə alınmır, icazə verə bilmərəm onu aparasan”, - deyə cavab verdi. Bu ifadə mənə pis təsir etdi. Qayınatama arvad-uşağımı görmək üçün gəldiyimi təkrar etdim. Ağasəf evə keçərək azyaşlı oğlum Aslanı gətirdi. Oğlumu öpdüm, əzizləyərək oynatdım”.

### “Rədd ol, çıx get buradan, səni görmək istəmirəm!”

Şəmil Abdullayev qeyd edib ki, bu vaxt arvadı Səbinə, baldızı Samirə, Səbinənin bibisi Bahar və qayınatası Ağasəf onun yaxınlığında olublar: “Səbinədən evə getməyi xahiş etdim. Bizim sərbəst danışmağımız üçün Ağasəf həyətə düşdü, Qasımla söhbət etməyə başladı. Samirə və Bahar isə qonaq otağına keçdi. Səbinə sözlərimə diqqət etmədi və mətbəxə keçdi. Onun arxasınca mətbəxə daxil oldum. Orada onunla xeyli söhbət etdim, onu barışığa gətirməyə çalışdım. Səbinə razılaşmadı.

Ona dedim ki, nə şərt qoysa, yerinə yetirəcəm, amma məndən ayrılmasın. Səbinə isə üzünün ifadəsi ilə saymazyana, ata evindən heç yana getməyəcəyini, mənimlə barışmayacağını bildirdi. Mətbəxdə Səbinə ilə tək olduğumdan, onun sözlərinə dözmədim. Ağlayaraq yenə barışmağı təklif etdim. Səbinə “rədd ol, çıx get buradan, səni görmək istəmirəm!” dedim.

Səbinənin son vaxtlar mənə qarşı kobud və saymazyana hərəkətləri, mobil telefondan istifadə etməsinə icazə vermədiyim halda, ata evinə gələndən sonra telefon alıb, mənim yanımda oyun oynayaraq kiməsə SMS yazması, mənimlə barışmayıb, ərsiz daha sərbəst yaşamağa üstünlük verməsi mənə pis təsir etdi”.

### “Qışqıraraq üzərimə yeridi”

Təqsirləndirilən şəxsin ifadəsinə görə, Səbinənin qərəzli hərəkətlərini, birgə yaşamaqdan imtina etməsini gördükdə ondan qisas almaq qərarına gəlib: “Mətbəxdə masa üzərində olan bıçağı götürdüm, Səbinənin döş qəfəsinin ön hissəsindən zərbə endirdim. Səbinə bu vaxt “ay papa!” deyib onu köməyə çağırdı. Başa düşdüm ki, Səbinənin ailə üzvləri evdədir, Səbinənin qışqırıq səsinə dərhal köməyə gələcəklər. Onlar gəlib çatsalar bıçaq zərbələrini davam etdirə bilməyəcəm. Bu səbəbdən Səbinənin ailə üzvləri gələnədək, onun bədəninin müxtəlif nahiyələrindən ardıcıl və surətli zərbələr endirməyə başladım.

Amma Səbinə o tərəf-bu tərəfə dartınaraq zərbələrdən yayındığından, zərəbələrin bəzisi onu tutmadı. Növbəti bıçaq zərbəsindən Səbinə müvazinətini itirdi, döşəməyə dəydi. Yerdən qalxmağına imkan verməyib bıçaq zərbələrini davam etdirdim. Səbinənin səsinə baldızım Samirə gəldi.

Samirə mətbəxə daxil olan kimi hərəkətlərimi dayandırdım, əlimdə bıçaq mətbəxi tərk etdim. Bu vaxt dəhlizdə qayınatam Ağasəflə rarştlaşdım. Ağasəf qışqıraraq üzərimə yeridi. Qaçaraq evi tərk etdim. Əlimdəki bıçağın Ağasəfə dəydiyini görməmişəm.

Həyətə düşərkən Qasıma Səbinəni bıçaqla vurduğumu dedim. Qasım əlimdə bıçağı gördükdə ağladı. Birlikdə həyəti tərk etdik, bıçağı həyətin çöl tərəfində darvazanın yaxınlığında yerə atdım”.

### “Törətdiyim cinayəti etiraf etdim”

Şəmil Abdullayev qeyd edib ki, oradan Xocasən kəndinə qayıdıb: “Paltarları üzərində zədə, dartınma, süzülmə əlamətlərinin, qan ləkələrinin olub-olmadığına diqqət etmədim. Hadisə zamanı hər hansı zədə və xəsarət almamışam. Qasıma rayona gedərək valideynlərim ilə vidalaşaraq özüm polis idarəsinə könüllü təslim olacağımı dedim, həmin gün evdə qaldım.

Mayın 17-də səhər 11.00-da Lökbatan qəsəbəsindən Ağstafa rayonuna gedən avtobusa mindim. Ağstafda valideynlərimə törətdiyim cinayət hadisəsi barədə məlumat verdim. Bu arada rayon polis şöbəsinə zəng etdim. Atam məni axşam saatlarında Ağstafa rayon polis şöbəsinə apardı. Orada törətdiyim cinayəti etiraf etdim”.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Şəmil Abdullayev 15 il müddətinə azadlıqdan məhrum edilib.

# Malik Rəşidov: Hazırda, vəziyyət dünya miqyası ilə müqayisədə elə də yaxşı deyil

***Pandemiya dövründə karantin rejimin tətbiqi eyni zamanda biznesin və həyatı tələbatların dəyişməsi biznes subyektlərinin fəaliyyət istiqamətini onlayn xidmət və bu kimi məsafədən xidmətlə bağlı dəyişmiş oldu. Fins.az biznes subyeklərinin informasiya texnologiyalarına tələbatı və bu yöndə həyata keçirdiyi tədbirlərlə bağlı Ultra Technologies şirkəti, Marketinq komandasının rəhbəri Malik Rəşidovun müsahibəsini təqdim edir.***

***-Pandemiyadan öncə sahibkarların çox hissəsi hesab edirdi ki, sahibi olduğu şirkətin sosial şəbəkələrdə hesabının olması vacib deyil ancaq pandemiya dövründə onlayn fəaliyyətə önəm yarandığından tələblər dəyişdi, hazırda bu sahədə vəziyyət necədir?***

-Pandemiyadan öncə sahibkarların əksəriyyəti mövcud müştəri bazası ilə çalışmağa və onlara xidmət göstərməklə fəaliyyətlərini icra edirdilər. Yalnız pandemiya iş yerlərinin fiziki fəaliyyətininin qarşısını aldığına görə onlayn xidmət göstərmək, məhsul və xidmətləri internet üzərindən potensial alıcılara çatdırmağa məcbur etdi. Effektivlik cəhətdən və eyni zamanda alıcılara daha asan yolla çıxmaq üçün sosial şəbəkə üzərindən reklam və informativ məlumatların paylaşımlarına ehtiyac duyuldu. Hazırda, vəziyyət dünya miqyası ilə müqayisədə elə də yaxşı deyil. Amma sevindirici hal var və bu da odur ki, vaxtıkən heç səhifəsi olmayan şirkət və xidmət obyektlərinin artıq sosial şəbəkə hesabları var və onlar onlayn satışlar istiqamətində irəliləyiş ediblər.

***-Şirkətlərin onlayn biznesə yönəlməsi bu sahədə İT şirkətləri üçün hansı yeni tələblər yaradıb?***

-Mövcud vəziyyətdə onlayn biznes dediyimiz əfsuslar olsun ki, e-kommersiya platformaları, müştəri məmnuniyyətləri platformaları deyil. Belə olardısa İT şirkətlərin də satış və xidmət imkanları genişlənərdi. Hazırki vəziyyət SMM agentliklərin, fərdi influserlərin, marketinq agentliklərin azacıq müştəri bazasını artırmışdır.



***-Biznes subyektləri tərəfindən aplication-ların sifarişi yaxud bu yöndə başqa nə kimi müraciətlər olur?***

-Yerli bazarı təhlil etdikdə görə bilərik ki, pandemiya dövründə əsasən yemək sifarişi, onlayn çatdırılma, geyim və bank xidmətləri sahəsində yeni mobil tətbiqlər yarandı. Xarici ölkələrdə isə bunlardan savayı daha geniş imkanlara sahib xidmətlər yaranmışdı. Hətta, sosial tipli mobil tətbiqlər yaradaraq, köməyə ehtiyacı olan insanlara maddi ianələr,qidalanması üçün yardımların çatdırılması və s. Dünya üzrə ümumi təhlil isə göstərir ki, ən çox restoran xidmətləri və yemək sifarişi üçün mobil tətbiqləri daha çox yaradılmışdır. Əminliklə deyə bilərəm ki, pandemiyanın öncədən uzunmüddətli olacağı bilinsəydi yaradılacaq xidmətlərin sayı qat-qat çox olacaqdı.

***-Pandemiya şirkətlərin İT sahəsində tələblərini hansı yöndə dəyişib?***

-Pandemiya şirkətlərin onlayn çalışmasına və onlarda "homeoffice" anlayışını yaratmağa təkan verdi. Şirkətlər əvvəlki iş fəallıqlarını yeni formatda qurmağa başladılar. İclas və görüşlərin video konrans formatında keçirilməsi, "helpdesk" xidmətlərinin artıq tam online edilməsi, bulud texnologiyalarından istifadə edən platformalara keçid, mobil tətbiqlərdən istifadə, elektron sənəd dövriyyəsinə ehtiyacın yaranması, elektron imzadan istifadənin artırılması, tapşırıqların idarəolunması üçün onlayn platformalardan istifadə, Agile platformalarına keçid və s. nümunələr çəkmək olar. Misal çəkdiyim hər bir həllin proqram təminatının çalışması üçün şirkətlərin texnoloji bazalarının yenilənməsi və ya tam yeni məhsulların almasına tələb yaratmışdır.

***Aynur Qəniyeva***

# Zəngilanın işğaldan azad edilməsi ölkəmizin mineral resurs istehsalını və ixracını artıracaq

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Nicat Hacızadənin şərhini təqdim edirik.***

Kəlbəcər- Laçın iqtisadi rayonuna daxil olan Zəngilan rayonu iqtisadi və coğrafi nöqteyi-nəzərdən əlverişli potensiala malikdir. Hər iki tərəfdən müxtəlif ölkələrlə həmsərhəd olan rayon qərbdə dağlıq, şərqdə düzənlik əraziyə malikdir. Bu özəlliklər Zəngilan rayonunun şaxəli resurslara malik olması ilə bağlı ilkin təəssüratları formalaşdırır. Kəlbəcər-Laçın iqtisadi rayonu mineral yataqların sayı üzrə coğrafi şaxələndirməyə malikdir. Rəsmi hesablamalara görə, Ermənistanın işğalçılıq siyasəti nəticəsində, işğaldan azad olunan və davam edən iqtisadi rayonlarda 155 müxtəlif növ mineral yataqları mövcuddur ki, bunlar qızıl, gümüş, mis, dəmir, sink, qranit, mərmər, qiymətli daşlar, odadavamlı gil və digər faydalı qazıntılardır.

Zəngilan rayonu iki ölkə ilə qonşu dəhlizlərə malik olmaqla xarici ticarət üçün unikal imkanlara sahibdir. Tranzit nöqteyi-nəzərdən, rayonun xüsusi özəlliyi var ki, İran islam Respublikası ilə ticarət münasibətlərinin daha da inkişafına töhfə verə bilər. Habelə, Kəlbəcər-Laçın iqtisadi rayonunda Kəlbəcərdən sonra ikinci daha böyük və sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vecnəli yatağı, ehtiyatları 6618 min m3 olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 mln. ton olan Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı, ehtiyatları 6024 min ton olan qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı, ümumi ehtiyatları 28943 min m3 təşkil edən Bartaz-I və Bartaz-II porfirit, ehtiyatları 1102 min m3 olan kərpic-kirəmid istehsalına yararlı Zəngilan gil və ehtiyatları 17367 min m3 olan Zəngilan qum-çınqıl qarışığı yataqları mövcuddur. Erməni



işğalçıları tərəfindən istismar edilən bu yataqlar sözügedən ölkənin dırnaqarası "keyfiyyətli mineral ehtiyatlar" ixrac edən ölkəsinə çevirmişdir.

Belə ki, Ermənistan xarici ticarətini tədqiq edən zaman ixracda dominant mövqe mineral ehtiyatlara aiddir. Qədim Azərbaycan torpağına aid Ermənistan ərazisində də mineral ehtiyatlar mövcuddur. Sözügedən ölkə Kəlbəcər və Zəngilan rayonu ərazisində yerləşən mineral ehtiyatları mənimsəyərək erməni mənşəli resurs kimi Avropa ölkələrinə və Rusiya Federasiyasına ixrac edir. Söz yox ki, istismar edilən mineral resursların mənşəyini saxtalaşdıraraq, Avropa ölkələrinə satan Ermənistan iqtisadi cinayətkarlıqla məşğul olurdu. Çünki Avropa Birliyinin qanunvericilik normalarında mənşə ölkəsinin bilərəkdən səhv ekspertiza edilməsi iqtisadi cinayətkarlıq hesab edilir və bu kimi hallar aşkarlandığı müddətdə ticarət sanksiyaları tətbiq edilir. Bütün bunları bilən Ermənistan malın mənşə özəlliyini saxtalaşdıraraq Ermənistan ərazisi kimi göstərib. Bu yataqların işlənməsində iştirak edən Sterlite Gold Ltd, Sirkap Armenian, Base Metals, Manex and Valex və Armenian Copper Program kimi onlarla şirkətin əksəriyyəti xaricdəki erməni diasporası tərəfindən idarə edilib.

Zəngilan rayonu coğrafi müxtəlifliyinin bariz nümunəsi turizm potensialına malik olmasıdır. Avropada misli olmayan Şərq çinarları, qoz və digər qiymətli ağaclar bu zonada yerləşir. Yaşı 500-ə, uzunluğu 12 km çatan çinar meşəliyi Bəsitçay qoruğunda saxlanılır. Bəsitçay qoruğu Azərbaycanın cənubi-qərbində işğal olunmuş Zəngilan ərazilərində Bəsitçayın dərəsində 1974-cü ildə yaradılmışdı. Qoruğun sahəsi 107 hektardır. Qoruqda yerləşən Şərq çinarı "Qırmızı Kitab"a daxil edilib. Təəssüflər olsun ki, erməni işğalçıları tərəfindən kəsilərək yüngül sənayedə və digər biznes məqsədləri üçün istismar edilən ağaclar da iqtisadi cinayətkarlığın qurbanıdır.

Nəticə etibarı ilə ölkəmizin mədən, tikinti sənayesi və turizm potensialı üçün əlverişli iqtisadi mühitə malik Zəngilan rayonunda istismar edilən təbii sərvətlər ölkəmizin resurslarına qarşı faşist siyasətin nümunəsidir. Son 27 ilə yaxın müddətdə Ermənistanın işğalçılıq siyasəti nəticəsində istifadəsi mümkün olmayan təbii sərvətlər, Ermənistanın kriminal fərdləri tərəfindən çıxarılaraq digər ölkələrə ixrac edilmişdir. Erməni cəmiyyətinə məlum olmalıdır ki, işğal altında olan torpaqlarda istismar olunan sərvətlərdən gələn gəlirlər, heç zaman monoetnik erməni milləti arasında bölüşdürülməyib. Yalnız öz şəxsi mənafeyinə xidmət edən fərdlərin qanunsuz şəxsi yığım, satış və sərvət toplaması hüquqi cəhətdən cinayət predmetidir.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Zəngilan şəhərinin işğaldan azad olunması ölkəmizin iqtisadi inkişafını daha da sürətləndirəcəkdir. İqtisadiyyatda tikinti sektorunun drayver roluna malik olduğunu nəzərə aldıqda, daxili tələbin qarşılanmasında Zəngilan rayon təbii sərvətləri əhəmiyyətli rol oynacaqdır. Bundan əlavə, son illər mineral resurslarımızın ixracı qeyri-neft sektorunda lider mövqelərdə təmsil olunur. Belə ki, qızıl ixracı həyata keçirən dövlət şirkətinin ixracı aylıq ortalama 10-18 milyon ABŞ dolları arasında dəyişir. Zəngilan rayonunda sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vecnəli yatağından istifadə ilə ölkəmiz mineral resurslar ixracını daha da artıracaqdır.




## Budapeşt şəhərində Gəncə terroruna etiraz aksiyası keçirilib

***Macarstanda yaşayan soydaşlarımız Ermənistanın hərbi təxribatına etiraz etmək və Azərbaycan həqiqətlərini Macarıstan ictimaiyyətinə çatdırmaq məqsədi ilə Budapeşt şəhərinin mərkəzində yerləşən "Szent İstvan Basilica" kilsəsinin qarşısında icazəli aksiya keçirib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən "Unikal"a verilən məlumata görə, Macarıstan-Azərbaycan Gənclər Birliyinin və Budapeştdəki Azərbaycan Evinin təşkilatçılığı ilə baş tutan aksiyada Azərbaycan diasporunun və türkdilli icmaların üzvləri, bu ölkədə təhsil alan gənclərimiz və yerli sakinlər iştirak ediblər. Əllərində Azərbaycanın, Türkiyənin və Macarıstanın dövlət bayraqlarını, eləcə də ingilis və macar dillərində yazılmış "Qarabağ Azərbaycandır!", "Erməni işğalına son qoyun!", "Erməni terrorçuluğuna son qoyun!", "Uşaq ölümünə son qoyun!", "Mülki insanlar toxunulmazdır!", "Biz terrora yox deyirik!", "Gəncə üçün dua et!" və s. kimi şuarlar tutan aksiya iştirakçıları Gəncə şəhərində və ölkəmizin digər yaşayış məntəqələrində Ermənistan silahlı qüvvələrinin törətdiyi vandalizm aktları nəticəsində mülki şəxslərin, o cümlədən azyaşlı uşaqların həlak olmasını, mülki obyektlərin dağıdılmasını insanlığa qarşı cinayət adlandırıblar.

Aksiyanın sonunda Gəncə terroru ilə bağlı qəbul edilən bəyanat oxunub, yerli sakinlərə erməni təcavüzünü əks etdirən broşürlar paylanılıb və media nümayəndələrinə erməni vandalizmi barədə məlumat verilib.

## Azərpoçt" "Qarabağ Azərbaycandır!" mövzusunda zərflər dövriyyəyə buraxdı

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC tərəfindən "Qarabağ Azərbaycandır!" mövzusunda markalı zərflər dövriyyəyə buraxılıb.***

Unikal.org xəbər verir ki, zərflərin üzərində Azərbaycan xəritəsi, Azərbaycan və ingilis dillərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunub. Üz tərəfin fonunda isə hərbi kamuflyaj təsvir edilib.

Sözügedən zərflər sadə, sifarişli və sifarişli-xəbərnaməlidir. Sadə zərflərin markasında işğaldan azad edilən Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüsü, sifarişli zərflərin markasında Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşən və 1314-cü ilə aid Qutlu Musa türbəsi, sifarişli-xəbərnaməli zərflərin markasında isə Şuşa şəhərinin gerbi təsvir olunub.

Əsas məqsəd son günlər hər birimizi qələbə xəbərləri ilə sevindirən rəşadətli Azərbaycan Ordusuna mənəvi dəstək olmaq, zəngin tariximizi və qədim abidələrimizi beynəlxalq miqyasda təbliğ etməkdir.

Qeyd edək ki, zərflərin dizaynı "Azərmarka" MMC-nin əməkdaşı Anar Mustafayev tərəfindən hazırlanıb.

# Səfərbərliyə çağırılanlardan koronavirus testi götürülür - RƏSMİ

***AR Səhiyyə Nazirliyinin nəzdində COVID-19 ilə mübarizənin gücləndirilməsi üçün yaradılmış işçi qrupu Bakı şəhərinin 87 tibb müəssisəsini əhatə edən 39 sahə məntəqəsinin üçüncü monitorinqi həyata keçirilib.***

Səhiyyə Nazirliyindən "Unikal"a verilən məlumata görə, işçi qrupunun üzvü Nailə Daşdəmirova bildirib ki, hal-hazırda Azərbaycanda COVID-19 virusuna yoluxanların sayı dayanmadan artması ilə əlaqədar sahə tibb məntəqələri gücləndirilmiş iş rejiminə keçirilib və məntəqələr həftənin 6 günü (bazar günü istisna olmaqla) səhər saat 08:00-dan axşam saat 20:00-dək fəaliyyət göstərməkdədir. İş yükünün artması səbəbindən məntəqələrə əlavə tibb işçi heyəti də cəlb olunub.

Müsahibəsini davam etdirən Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən işçi qrupunun üzvü Nailə Daşdəmirova sahə məntəqələrinin tibbi heyətinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhərində 11 rayon üzrə İdarələrinə ezam olunması haqqında da danışıb.

Onun sözlərinə görə, sahə tibb məntəqələrinin işçiləri ora səfərbərlik üzrə hərbi xidmətə çağırılan vətəndaşlarımızdan hərbi xidmətə yollanmazdan əvvəl COVID-19 virusunun aşkarlanması məqsədilə test nümunələri götürmək üçün göndərilib. Götürülən testlərin nəticələri bir neçə saat ərzində əldə olunması və nəticədən asılı olaraq müvafiq tədbirlərin görülməsini qeyd edən Nailə Daşdəmirova fikrini tamamlayıb.




Bundan sonra müsahibə verən Nailə Daşdəmirova bildirib ki, cari ilin oktyabr ayının 11-də başlayan 3-cü monitorinq 21 oktyabr tarixində yekunlaşdırılıb. Onun yekunu olaraq, işçi qrupu tərəfindən sahə məntəqələrinin rəhbərliklərinə məntəqələrdə işin yüksək səviyyədə təşkili və göstərilən tibb xidməti keyfiyyətinin artırılması üzrə tövsiyələr verilib. Bundan əlavə, monitorinqin keçirilməsi zamanı müəyyən olunan çatışmazlıqların aradan qaldırılması üçün peşəkar məsləhətlərlə bölüşülüb.

Nailə Daşdəmirova sahə tibb məntəqələrində keçirilmiş monitorinqin əsas məqsədinin daxili iş prosesinin müşahidəsi və yoxlanılması olduğunu xüsusi qeyd edib:

"İşçi qrupumuzun nümayəndələri tərəfindən hər bir məntəqədə termometriyanın təşkili, sanitayzerlərin mövcudluğu, tibbi maskadan düzgün istifadə olunub-olunmaması kimi meyarların monitorinqinə xüsusi diqqət yetirilib". Bundan başqa, COVID-19 xəstələrinə göstərilən tibb xidmətinin keyfiyyətinin yoxlanılması işçi qrupunun üzvü tərəfindən monitorinqin digər bir predmeti kimi qeyd olunub. Bura daxil olan məqamlar bunlar olub:

"814 Çağrı Mərkəzi və poliklinikalara daxil olan müraciətlərin dəyərləndirilməsi, sahə həkimlərinə yönəldilməsi, sahə həkimləri tərəfindən xəstələrin şikayətlərinə uyğun olaraq testlərin müəyyən edilməsi, testin ev şəraitində götürülməsi və qısa bir müddətdə cavablandırılması, Səhiyyə Nazirliyi tərəfindən verilən dərman preparatlarının xəstəyə çatdırılması, 14 gün ərzində xəstəyə nəzarət məqsədilə gündə iki dəfə əlaqə saxlamaq və vəziyyəti haqda qeydlərin tibbi kartlara daxil edilməsi".

Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən işçi qrupunun üzvü Nailə Daşdəmirova müsahibəsinin sonunda sahə tibb mənqələrinin işində tədbiq olunmuş yeniliklər haqqında da məlumat verib:

"Belə ki, 814 Çağrı Mərkəzi və poliklinikalara daxil olan müraciətlərin əsasında müraciət edən şəxslərin xəstəliyə yoluxma faktı təsdiq edildiyi halda dərhal onların son zaman təmasda olduqları ailə üzvlərinin müəyyən olunması həyata keçirilir. Bundan sonra koronavirusa yoluxmuş şəxslərin yaxınlarından ev şəraitində testlər götürülür və onlar müvafiq qaydada izolyasiya edilir".

***Hüseyn***

# "Erməni təxribatları bütün regionda İKT-nin inkişafına əngəl törədir" - Nazir

***Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) və Vyetnamın birgə təşkilatçılığı ilə "ITU Virtual Digital World 2020" beynəlxalq tədbiri çərçivəsində nazirlər səviyyəsində dəyirmi masa keçirilib.***

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən "Unikal"a verilən məlumata görə, BTİ-yə üzv olan çoxsaylı ölkənin İKT üzrə rəsmilərinin qatıldığı video-tədbir COVID-19 pandemiyası zamanı və sonrakı dövrdə rəqəmsal texnologiyaların rolu mövzusunu ehtiva edib.

Tədbir BTİ-nin Baş katibi Houlin Jao, Vyetnamın İnformasiya və Kommunikasiya naziri Nquyen Man Hunq və BTİ-nin Radiorabitə Bürosunun direktoru Mario Manieviçin açılış nitqləri ilə başlayıb.

COVID-19 pandemiyasının qlobal və milli səviyyədə rəqəmli inkişafa təsirinə dair müzakirələrin aparıldığı dəyirmi masada nazir Ramin Quluzadə çıxış edib.

Nazir çıxışında ölkədə COVID-19-la mübarizə və pandemiyanın təsirini minimuma endirmək üçün görülmüş işlər barədə müfəssəl məlumat verib.

R. Quluzadə bildirib ki, pandemiya zamanında da vətəndaşlar yüksək keyfiyyətli nəqliyyat, poçt və telekommunikasiya xidmətləri, o cümlədən internet və mobil rabitə xidmətləri ilə təmin edilib. Telekommunikasiya infrastrukturunun davamlılığı tələbata uyğun olaraq artırılıb.

Nazir dövlət qurumları tərəfindən yeni informasiya sistemlərinin yaradıldığını, xüsusi veb-saytlarla yanaşı, vətəndaşlar üçün məlumat-bildiriş sistemi və yoluxmuş insanlar üçün izləmə sistemi olaraq istifadə olunan mobil tətbiqetmənin hazırlandığını diqqətə çatdırıb.

"Pandemiya dövründə təhsil üzrə "Connected schools" və qurumlar üçün videokonfrans xidmətlərinin təmin edilməsi məqsədilə "Connected Government" layihələrinin tətbiqinə başladıq", - deyə R. Quluzadə qeyd edib.

Nazir Azərbaycanın hazırda iki cəbhədə mübarizə apardığını söyləyib: "Pandemiya ilə yanaşı, bütün regionda İKT-nin inkişafına əngəl törədən erməni təxribatlarına və təcavüzlərinə cavab olaraq lazımi addımlar atırıq".



R. Quluzadə əlavə edib ki, Ermənistanın son hərbi təxribatları səbəbindən Azərbaycanın bir neçə bölgəsində İKT və telekommunikasiya infrastrukturu ya tamamilə məhv edilib, ya da ciddi şəkildə ziyan görüb. Son günlər bu təcavüz nəticəsində uşaqlar da daxil olmaqla, Azərbaycanın 63 dinc sakini həlak olub və 293 mülki şəxsi yaralanıb.

Nazir çıxışının sonunda qeyd edib ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan hökuməti inkişaf strategiyalarını genişləndirmək üçün səylərini davam etdirəcək.

# Ruhun şad olsun, Səid! - Anım



***1993-cü ilin yazında Azərbaycan Müdafiə Nazirliyinin "Azərbaycan ordusu" qəzetində hərbi jurnalist kimi xidmətdə olarkən qəzetimizin əməkdaşı Şamil Sabiroğlu və mən Füzuli cəbhəsinə ezam olunmuşduq. Beynəlxalq Avrasiya Fondunun rəhbəri Umud Rəhimoğlu da bizimlə idi.***

Şamil Sabiroğlu Zəngilan tərəfə getdi, Umud Rəhimoğlu ilə mən Füzulidə qaldıq. O vaxt Füzulidəki Məngələnata dağı yenicə ordumuz tərəfində geri qaytarılmışdı. Füzuli şəhərinin giriş qapısına çatanda atəş və mərmi səsləri yaxından eşidilirdi. Mən həyəcanımı gizlədə bilmirdim. Bundan əvvəl Tərtər cəbhəsində olmuşdum, buna baxmayaraq, üzümdəki soyuq ifadəni özüm də hiss edirdim. Əslində, Sovet ordusunda motorlu-atıcı qoşun birləşməsində tibb xidmətdə olmuşdum və hərbi təlimlərdə çox iştirak etdiyimdən qorxu hissimə qalib gəlməyi bacarırdım. Ancaq bu, təlim yox, real müharibə idi. Və bu müharibə bizim ölkəmizə xain qonşumuz Ermənistan tərəfindən aparılan işğalçılıq siyasətinin nəticəsi idi. Ermənistana dəstək verən dövlətlərin silahlarından bizim torpaqlarımızın işğal olunmasında istifadə edilirdi və beynəlxalq aləm də buna göz yumurdu.

Sovet imperiyası dağılandan sonra müstəqillik qazanan ölkəmizin xarici və daxili düşmənləri fəallaşmışdı və bütün gücləri ilə xalqımızın dəmir iradəsini qırmağa çalışırdılar. Sovet ordusunu Ermənistanın Gümrü şəhərindəki və Xankəndidəki hərbi hissələri də ermənilər tərəfindən bizə qarşı döyüşürdü.

Biz Füzuli şəhərinə çatanda ilk dəfə İcra Hakimiyyətini başçısı Nofəl Qasımovla görüşdük. Mən ilk dəfə idi ki, hərbi formada olan bu son dərəcə xoşüzlü insanı görürdüm və cüssəsindən, üzünün ifadəsindən mərdlik, qəhrəmanlıq yağan bu adamın bizimlə rəftarından sanki onu illər öncədən tanıyırammış kimi düşündüm. Bu, təbii idi. Xoş ovqatlı insanların üzündəki xoş ifadə bizim xalqın gözəl xüsusiyyətlərindən xəbər verir.

Tanışlıqdan sonra Füzulidə olan hərbçilərimizin iştirakı ilə görəcəyimiz işlərlə bağlı məsləhətlər aldıq. Səhərisi gün Nofəl Qasımovla görüşdük və o, bizi 2-3 yaşlarında olan iki oğlu ilə qarşıladı. Mənə də bir diktafon bağışladı ki, bununla əsgərlərimizdən müsahibə götürərsən. O diktofonu hələ birinci Qarabağ savaşının yadigarı kimi saxlayıram. Nofəl bəyin oğlanlarının birindən adını soruşdum:

- Səid, - dedi və əynimdəki hərbi formaya, belimdəki tapançaya baxıb komandir olacağını dedi. Uşağın üzünün ifadəsi və ürəyinin dərinliklərində uşaq dünyasına xas olan, hələ də tam anlaya bilmədiyi düşmən obrazına olan nifrət duyğusu məni kövrəltdi. Bəli, müharibə uşaqları da dəyişdirir. Ətrafımızda baş verən gəlişikliklər, müharibə və ölüm səhnələrini ekranlarda, həyatda müşahidə elədikcə onların qəlbində düşmən obrazı və ona qarşı nifrət hissi yaranır.

O gündən 27 il ötdü, Səid böyüdü, orta məktəbi bitirdi, ali məktəbə daxil oldu, bitirdikdən sonra isə zabit oldu. İlk döyüş yolu isə 2016-cı ildə Lələtəpədən başladı.

Bəli, 2020-ci il də gəldi. Səid əlində silah, könlündə Vətən sevgisi yenə torpaqlarımızın müdafiəsi uğrunda döyüşə atıldı. Bu yaxınlarda Nofəl bəylə görüşəndə Səidi soruşdum, dedi ki, Füzuli istiqamətindəki döyüş bölgəsindədir. Uğurlar dilədim.

Lakin bir neçə gündən sonra eşitdiyim dəhşətli xəbərdən çox üzüldm. Nofəl bəy zəng edə bilmədim. Rəşad Məcidi aradım. Dedi ki, Səidi dəfn eləmək üçün Füzuliyə gedirik...

Və bir neçə gündən sonra Səidin atası Nofəl bəylə görüşdüm. Kövrəldiyimi görüb qolumdan tutdu və məni silkələyib dedi:

- Nazim, ağlamaq olmaz, Səid Vətən uğrunda şəhid olub!

Bəli, doğulduğu Füzuli rayonu üçün, cəmi Azərbaycan üçün, xalqımız üçün canını fəda edən bir Vətən oğlunin - Səid Rəşidzadənin 3 yaşındakı üzünün ifadəsi hələ də yadımdadır. Və bu gün hərbi geyimində olan şəklində də Səidin üzündəki inam və xoş əhval-ruhiyyə o üç yaşındakı uşağın üzünün ifadəsini xatırlatdı.

Səid Vətən torpaqlarının bütövlüyü uğrunda şəhid oldu. Müzəffər ordumuzun qələbəsi yaxın günlərdə elan olunacaq. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi və müzəffər ordumuzun sayəsində bütün şəhidlərimizin intiqamı alınır, Vətənimiz xain erməni işğalçılarından təmizlənir.

Qarabağ Azərbaycandır!

Azərbaycanı göz bəbəyi kimi qoruyan Ordumuza, Xalqımıza eşq olsun!

Ruhun şad olsun, Səid!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Nazim ƏHMƏDLİ***
***Şair-publisist, birinci Qarabağ müharibəsi veteran***

# Marneulidə Gəncə terrorunun qurbanları yad edilib

***Gürcüstanın Marneuli rayonunda fəaliyyət göstərən Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) təşəbbüsü ilə Gəncə terrorunda həlak olanların anım mərasimi keçirilib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən "Unikal"a verilən məlumata görə, mərasimdə gənclər və GAİM-in müəllim-şagird heyəti iştirak ediblər. GAİM qarşısında yaradılan Gəncə guşəsində Ermənistanın törətdiyi vandalizm aktları zamanı həlak olan və yaralanan uşaqların şəkilləri, "Ermənistanın təcavüzünə son qoyulsun!", "Ermənistan terroruna son!", "Gəncə üçün dua et!", "Uşaq ölümünə son qoyun" və s. şüarlar nümayiş etdirilib, güllər düzülüb, şamlar yandırılıb.




Tədbirdə GAİM-in icraçı direktoru Rafiq Hümmət və gənclər üzrə koordinator Atif Abbasov çıxış ediblər. Onlar bildiriblər ki, 11 oktyabr və 17 oktyabr tarixlərində işğalçı Ermənistan ordusunun humanitar atəşkəs rejimini kobudcasına pozaraq cəbhə bölgəsindən uzaq olan Gəncədə yaşayış binalarını raket atəşinə tutması düşmən ölkənin faşist və təcavüzkar mahiyyətinin təzahürüdür. 24 dinc sakinin, o cümlədən qadınların və uşaqların həlak olması, 90 nəfərin yaralanması ilə nəticələnən terror aktları beynəlxalq təşkilatlar da daxil olmaqla bütün dünya ictimaiyyəti, eləcə də Gürcüstan cəmiyyəti tərəfindən kəskin şəkildə pislənilir.




# "Müasir kimyanın problemləri və inkişaf tendensiyaları" mövzusunda konfransı keçiriləcək

***Qərbi Kaspi Universitetində 21 noyabr 2020-ci il tarixində "Müasir kimyanın problemləri və inkişaf tendensiyaları" mövzusunda Respublika elmi-praktiki konfransı (onlayn) keçiriləcək.***

"Unikal" xəbər verir ki, konfransın məqsədi - nanostrukturlu, polimer, üzvi, qeyri-üzvi materialların aşkarlanması və aktual problemlərinin tədqiqi, neft emalı sahəsində əldə edilmiş yeniliklərin müzakirəsi və geniş əhatə dairəli tədqiqatçılar arasında professional əlaqələrin yaranması, təcrübələrin bölüşülməsi.

Konfransda aşağıda göstərilən istiqamətlər üzrə tematik seksiyalarda müzakirələrin aparılması planlaşdırılır:

- nanotexnologiyalar: inkişaf perspektivləri
- neft kimyası: neft emalı sektorunun gələcəyi
- polimer materiallarının mikroelektronika, optika və optoelektronikada istifadəsi; polimerlərin emalı və utilizasiyası
- qeyri-üzvi və üzvi maddə və materialların kimya və texnologiyası.

Konfransda iştirak üçün kimya istiqamətində elmi təqiqatla məşğul olan alimlər, müəllimlər, aspirantlar, magistrlar və digər maraqlanan şəxslər dəvət olunurlar.

**Konfrans üçün qəbul olunan məqalələrə tələblər:**

1. Konfransın dili: Azərbaycan, rus,ingilis
2. İştirak forması: məruzə, qiyabi iştirak (yalnız tezis çapı ilə)
3. Məqalənin yazılış tələbatı: A4 formatlı kağızda (hər tərəfdən 2,0 sm) Times New Roman şrifti, 14 ölçü (keql), 1,0 interval, 2-4 səhifə həcmində.
4. Məqalənin adı: böyük hərflərlə ortada yazılmalı.
5. Müəllifin adı, atasının adı və soyadı, elmi dərəcəsi (varsa), işlədiyi və ya oxuduğu yer göstərilməli, əlaqə telefonu, emaili qeyd olunmalıdır.
6. Məqalənin mətni: giriş hissə, metodika, alınmış nəticələr və müzakirə, açar sözlər (5-8 -dən artıq olmamaq şərtilə), qrafik təsvirlər, cədvəllər Microsoft Word proqramında işlənməli və mətnin arasında verilməli, ədəbiyyat siyahısı 5-12 istinad olmaqla, original dildə verilməlidir.
7. Xülasələr məqalənin dilindən əlavə 2 dildə tərtib olunmalı, məqalənin adı, açar sözləri daxil olmaqla 200-300 simvoldan artıq olmamalıdır.
8. Məqalələr və müəllif haqqında məlumat anketi bu emaildə qəbul olunur: conference_chemistry@wcu.edu.az
9. Məruzə etmək istəyənlər əlavə olaraq, öz məruzəsinin slaydını konfransdan ən azı iki həftə əvvəl təqdim etməli, məruzə -6-10 dəqiqə müddətində nəzərdə tutulmalıdır.
10. Konfrans üçün heç bir ödəniş tələb olunmur, konfransın sonunda məqalələr toplusu və sertifikat veriləcək.
11. Məqalələr və ya konfrans barədə məlumat almaq üçün bu (conference_chemistry@wcu.edu.az; science@wcu.edu.az) ünvanlara və bu (+ 994552835857, +994706809463) nömrələrə zəng edə bilərsiniz.




# Vətənpərvərlik mövzusunda ədəbi müsabiqə elan edildi

***Azərbaycan Ordusunun döyüş meydanındakı rəşadətini, igid hərbçilərimizin şücaətinin bədii nümunələrdə əks etdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən vətənpərvərlik mövzusunda ədəbi müsabiqə elan edilib.***

Mədəniyyət Nazirliyindən verilən məlumata görə, müsabiqənin təşkilində əsas məqsəd xalqımızda hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərə milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hisslərin aşılanması, Vətənimizin suverenliyi uğrunda Azərbaycan əsgərinin döyüş rəşadəti və şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə gələcək nəsillər üçün yeni bədii mətnlərin yaradılması, yaradıcı potensialı olan hər bir kəsi müsabiqəyə cəlb etməklə mövzu baxımından müasir ədəbi əsərlərin yazılmasına stimul verməkdir.

Müsabiqə 3 ədəbi janr üzrə keçirilir: Hekayə, esse və poeziya (şeir). Müsabiqəyə esse və şeirlərin qəbulu üçün son tarix noyabrın 25-ə kimi, hekayələrin qəbulu üçün isə noyabrın 30-a kimidir.

**Müsabiqənin şərtləri aşağıdakı kimidir:**

Hər bir müəllif müsabiqəyə yalnız bir əsər təqdim edə bilər. Əsərlər orijinal olmalı və daha əvvəl heç yerdə çap olunmamalı və yayımlanmamalı, Azərbaycan Respublikasının dövlət dilində yazılmalıdır. Əsərin üz qabığında (ilk səhifədə) müəllif özü haqqında məlumatı, əlaqə vasitəsini (Telefon nömrəsi və e-mail), hansı ədəbi janr və kateqoriya üzrə iştirakçı olduğunu qeyd etməlidir. Əsərlər bir şəxs tərəfindən yazılmalıdır. Müştərək iş qəbul olunmur.

Əsərlər elektron formada aşağıda göstərilən e-poçt ünvanına göndərilməlidir.

Hekayə janrı üzrə müsabiqənin mövzusu hərbi vətənpərvərlikdir.

Müsabiqəyə 20.000 (iyirmi min) işarədən artıq olmayan hekayələr qəbul olunur. Hekayənin mətni üçün tələblər - şriftin qarnituru "Arial" 12, sətirlər arası interval 1, faylın formatı "doc." A4.

Esse janrı üzrə yazılar "Qarabağdan namə" mövzusunda olmalı, mətnin həcmi 700 sözdən çox olmamalıdır.

Poeziya (şeir) janrı üzrə əsərlər istiqlaliyyət və milli ruhun tərənnümü, Qarabağ müharibəsi mövzusunda olmalıdır. Müsabiqəyə iri həcmli nəzm əsəri (poema) qəbul olunmur.

Müsabiqədə peşəkar yaradıcı şəxslər, həvəskar yaradıcı şəxslər, 10-15 yaş arası uşaqlar (bu kateqoriya üzrə iştirakçılar şəxsiyyətini təsdiq edən sənədi təqdim etməlidir) iştirak edə bilərlər.

Müsabiqənin mükafat fondu 20 700 (iyirmi min yeddi yüz) manatdır.

Münsiflər heyəti tərəfindən müəyyən edilmiş qiymətləndirmə meyarlarına uyğun olaraq hər bir janrda "Peşəkar yaradıcı şəxslər" kateqoriyası üzrə 3 əsas qalib, "Həvəskar yaradıcı şəxslər" kateqoriyası üzrə 3 həvəsləndirici qalib, "10-15 yaş arası uşaqlar" kateqoriyası üzrə 5 nəfər qalib seçiləcək.

Hər bir janr üzrə əsas qaliblərə (9 nəfərə) fəxri diplom və 1500 manat pul mükafatı təqdim olunacaq.

Hər bir janr üzrə həvəsləndirici qaliblərə (9 nəfərə) xüsusi diplom və 800 manat pul mükafatı təqdim olunacaq.

Hər bir janr üzrə qalib uşaqlara (15 nəfər) fəxri fərman və nazirliyin tabeliyində olan muzeylərə bir illik ödənişsiz ziyarət kartı təqdim olunacaq.

Müsabiqə şərtlərinə cavab verməyən əsərlər komissiya tərəfindən qəbul edilməyəcək.

**Əlavə məlumat üçün müraciət edə bilərsiniz:**

**Tel.: (012) 493 42 94**

**İştirakçılar tərəfindən əsərlər aşağıdakı elektron poçt ünvanına göndərilməlidir.**

**E-mail: nrtis@mct.gov.az**

# "Dağlarda dron" - ermənilər üçün KABUS

***Yadınızdadırsa, erməni ordusunun Şuşanı işğal əməliyyatının adı -"Dağlarda toy" idi. Bir qərinəyə yaxın vaxt lazım oldu Azərbaycan Ali Baş Komandanının və Ordusunun cavab zərbəsinə.***

Bir gün belə azalmadı inamımız. hirsimizlə, hikkəmizlə gözlədiyimiz, "lazım gələrsə" sözləriylə başlayan arzularımız sentyabrın 27-sindən reallaşır.

Bu arzunun maddiləşməsində, azad edilən torpaqlara çevrilməsində tək Qafqazı deyil, bütün dünyanı təccübləndirən bir silahın xüsusi yeri var: - DRON. Daha ünvanlı desək, Bayraktar TB2.

Bu yeni nəsil silahının seyredici sürəti 130 km/s, maksimum sürəti isə 222 km/saatdır. Fəaliyyət radiusu 150 km olan Bayraktarın avtonom idarəetmə vaxtı 24 saatdır.


Bayraktarı yaradanlar

Türkiyənin operativ-taktiki, orta yüksəklikdə uçan qırıcı milli pilotsuz döyüş (PUA) təyyarəsi "Baykar Makina" şirkəti tərəfindən istehal edilir. Yaradıcı Selçuk Bayraktardır və Türkiyə Cümhurbaşkanı Erdoğanın qızı Sümeyyanın həyat yoldaşıdır.

Sistem 2015-ci ildə Türkiyə Silahlı Qüvvələri arsenalına daxil edilib. Türk Silahlı Qüvvələrinin həyata keçirdiyi Pəncə Əməliyyatlarında, Suriyadakı vətəndaş müharibəsində və İkinci Liviya vətəndaş müharibəsindəki müdaxilələr dövründəki əməliyyatlarda fəal şəkildə istifadə edilib. Bu sistemdən Türkiyə və Azərbaycandan başqa Qətər və Ukrayna ordusu da istifadə edir.

Prezident İlham Əliyev də "France 24" televiziya kanalına müsahibəsində Türkiyə istehsalı olan dronların döyüşə cəlbi ilə bağlı sualı cavablandırarkən deyib: "Əlbəttə, onlar çox müasir, inkişaf etmiş silahlardır. Sizə deyə bilərəm ki, təkcə Türkiyədən əldə etdiyimiz dronlar vasitəsilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik, yalnız dronlar vasitəsilə. Əlbəttə, bildiyiniz kimi, biz başqa mənbələrdən olan dronlardan da istifadə edirik. Biz artilleriyadan istifadə edirik, geniş çeşiddə hərbi avadanlıqdan istifadə edirik. Lakin təkcə dronlar Ermənistana 1 milyard dollar ziyan vurub"

Ordumuz həm müşahidə, həm də hücum üçün Azərbaycan, Türkiyə və İsrail istehsalı olan çoxsaylı dronlar istifadə edir. Ölkəmizin dron təcrübəsindən ustalıqla istifadə etməsi bütün dünyada maraqla izlənilir. Belə ki, Azərbaycanın dağlıq ərazilərdə kamikadze-dronlar tətbiq edərək düşmənin canlı qüvvəsini və texnikasını məhv etməsi yeni müharibə taktikası kimi Pentaqonda, Hindistan və Rusiyada təhlil edilir.

ABŞ Ordusunun Baş Qərargah rəisi, general James Makkonvill "Army Times" qəzetinə verdiyi müsahibəsində Qarabağdakı qarşıdurmadan sonra, ABŞ Quru Qoşunlarının modernləşdirilməsinin prioritetlərindən biri kimi hava hücumundan və raketlərdən müdafiə sistemlərinə üstünlük veriləcəyini vurğulayıb.

Ötən il Səudiyyə Ərəbistanı neft obyektlərini pilotsuz uçuş aparatlarından qoruya bilmədi. 2019-cu il 14 sentyabrında onlarla "pilotsuz"un hücumunun qarşısına almaq mümkün olmadı. O zaman bu döyüş vasitəsinin 4 lazerli tuşlayıcılı idarəolunan bomba daşıdığı da bildirildi.

Hərbi ekspertlər effektif antidron quruların yaradılmasının olduqca mürəkkəb olduğunu bildirirlər. Doğrudur, Rusiya iddia etdi ki, onların "Pantsir C1" qurğusu belə vasitələrin qarşısını ala bilir. Bu Zenit Raket Komleksi 16 noyabr 2012-ci ildə Rusiyanın silahlanmasına qəbul edilib. 2016-cı ildə yaradılan yeni modifikasiya çoxfunksiyalı nişangah stansiyası ilə hədəfi məhv etmə dərinliyini 40 km-ə çatdırdı. "Pantsir C1"kiçik həcmli pilotlu və pilotsuz uçuş vasitələri məhv etmək üçün yaradılıb. Kompleksin reaksiya vaxtı 4-6 saniyədir və eyni vaxtda 15 metrdən 15 km-ədək hündürlükdə olan 2-4 hədəfə atəş aça bilir. Bir dəqiqədə 10 hədəfi əhatə edə bilir və raketlərin buraxılması intervalı 1-1.5 saniyə arasında dəyişir.

2018-ci ci ilin məlumatına görə, Rusiya 116, Əlcəzairdə 38, İranda 10, İraqda 72, BƏƏ də 50, Omanda 12, Suriyadada isə 80-dən çox bu komleksdən var. Kompleksin eksport qiyməti 13, 15- 14,67 milyon ABŞ dollardır.

Ermənistan Ordusunun sonunun başlanğıcı mərhələsini deyəsən özləri də anlayıblar.

Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Ovhannisyan Azərbaycan dronları qarşısında aciz qaldıqlarını etiraf edir: "Dünyada heç kim dronlara qarşı tam müdafiəni təmin edəcək bir vasitəyə malik olmağı bacarmayıb. Bu silahlara qarşı qızıl həll yoxdur, kompleks həllərin ümumiliyi - vuran, aşkar edən, mübarizə aparan, təzyiq göstərən tədbirlərin ümumiliyi tətbiq olunmalıdır. Müasir müharibələrdə PUA-lar ən çox baş ağrısı olan silah növlərindədir".

Döyüşdən qaçan fərarilərin sayı 3 mini ötən qondarma qurumun rəhbəri isə son çıxışında "ermənilər təmas xəttində gözlədiklərini" deyir.

Görəsən anlamır ki, Ali Baş Komandanımızın sözləriylə desək, sentyabrın 27-sindən sonra "təmas xətti yoxdur"!

"Bismillal" deməklə donuz darıdan çıxmadı. İnid Ordumuz "iti qovan kimi " qovur erməni daşnaklarını.

Daşnak tör-töküntüləri hazır olun: - Növbədə sırf sizin üçün istehsal edilən "İTİ QOVAN" dronları var!

Müdafiə Sənayesi Nazirliyinin müəssisələri yeni növ zərbə tipli, daha böyük dağıdıcı gücə malik "İti qovan" Pilotsuz Uçuş aparatlarının (PUA) seriyalı istehsalına başlayıblar.

Bir dəfə "Qarabağ müxbiri" kimi təqdimatımda belə bir ağır sualla rastlaşdım - "Hanı Qarabağ?"

Çox şükür, indi hamımız çətinlik çəkmədən bu sualın cavabını verə biləcəyik! -

QARABAĞ AZƏRBAYCANDIR!

***Şöhrət Eyvazov***

# Xankəndində doğulmuş Xalq artisti: "Hər gecə səhər saat 5-dək..."



***Xalq artisti Fəxrəddin Manafov teleqraf.com-a müsahibə verib. "Unikal" müsahibəni təqdim edir:***

***- Fəxrəddin müəllim, cəbhə bölgəsində baş verən hadisələri yəqin izləyirsiz. Hansı sözünüz, fikriniz var?***

- Bu gün ordumuz Ali Baş Komandanın qarşıya qoyduğu bütün missiyanı yerinə yetirir. Mən əsgərlərimizə səbr, hər şeyə ehtiyatlı və peşəkar yanaşmağı arzu edirəm. Özlərini qorumalıdırlar. Bu gün tarix yazırlar. İnşallah, tez bir zamanda bütün torpaqlarımızı işağlçı ölkədən azad edəcəklər. Onların şücaəti haqqında filmlər çəkiləcək. Qoy bilsinlər ki, bu gün qəhrəmanlıq kürsüsündədilər. Gələcəyin filmlərində qəhrəman kimi, Azərbaycan ordusunun əsgərləri kimi yaddaşa həkk olunacaq, tarixə yazılacaqlar.

Əsgərlərimizlə qürur duyuram, hər birini bağrıma basıram. Əgər lazımdırsa, onların yanına gedə və onlarla birlikdə ola bilərəm. O qədər qürurverici hadisədir, təsəvvür eləmirlər ki, biz onlara nə qədər güvənirik, onlarla necə fəxr edirik.

***- Vətən müharibəsində üstünlük, qələbə bizimlədir. Rayonlarımız, kəndlərimiz işğaldan azad edildi. İlk olaraq işğaldan azad olunmuş hansı şəhərimizə getmək istəyərsiniz?***

- Bugünün məşhur ifadəsiylə desək, Qarabağ Azərbaycandır! Mən işğaldan azad olunmuş bütün torpaqlarımızı bağrıma basmaq istəyirəm. Qarabağın hər qarışı Azərbaycan torpağıdır. Onun hər qarışına ayağıyalın gedərdim, torpaqlarımızı bağrıma basardım.

Mən Xankəndində dünyaya gəlmişəm. Əlbəttə, bütün şəhər və regionlarımızı eyni şəkildə sevirəm. Heç bir şəhərimizi birbirindən ayıra bilmərəm. Baxmayaraq ki, özüm Xankəndində doğulmuşam. Mənim anamın bir sözü vardı, deyirdi ki, barmaqların hamısı eyni boyda deyil, amma hansını kəssən, ağrısı eynidir.

Qarabağın hər qarışı bizimdir. Yüz faiz əminəm ki, işğal altında olan bütün torpaqlarımız azad olunacaq. Nəhayət, biz o günü görəcəyik. Allah bizim ordumuza yar olsun. Ali Baş Komandamızı, prezidentimizi Allah qorusun!

***- Qardaş Türkiyənin Azərbaycana mənəvi dəstəyini necə qiymətləndirirsiniz?***

- Türkiyə olmasaydı, biz tək qalardıq. 83 milyonluq Türkiyə mənəvi və informasiya tərəfdən bizə çox dəstək göstərir. Orada mənim çoxlu dost-tanışlarım var. Azərbaycana belə münasibət bizi çox sevindirir. Türkiyə mediası bizə böyük kömək edir, hadisələri bütün dünyaya çatdırırlar. Türkiyə mediası çox güclüdür. Hətta ermənilər Gəncəni atəşə tutanda gecəylə bizim media ilə birlikdə hadisə yerinə gəldilər, faciəni bütün dünyaya çatdırdılar.

***- Ümumiyyətlə, izlədiyiniz xarici kanallarda Azərbaycana qarşı adekvat mövqe görürsüzmü?***

- Rusiya kanallarına baxıram, çox vaxt yalnız əsəbiləşirəm. Biz Vətənimizi qoruyuruq. Öz torpaqlarımızı işğaldan azad edirik. Biz heç kimin torpağına, dövlətinə göz tikməmişik. Baxmayaraq ki, onlar bizim qədim torpaqlarımızda yaşayırlar.

***- Xankəndinə gedərkən ilk olaraq nə etməyi düşünürsünüz?***

- İnşallah, gedəndə nə edəcəyimi planlaşdıracam. Yalnız onda biləcəm ki, nə etmək lazımdır... Qabaqcadan bunu demək mümkün deyil. Amma onu bilirəm ki, sevincimin həddi-hüdudu olmayacaq.

Hazırda bir gözümüz ağlıyır, bir gözümüz gülür. Göz yaşlarımız sevincdən gəlsin. Allah bizim Ali Baş Komandamız İlham Əliyevi, vitse-prezident Mehriban Əliyevanı, ordumuzu, generallarımızı, əsgərlərimizi, Azərbaycana dəstək olan ölkələri, Türkiyəni, Pakistanı qorusun. Allah hamısına yar olsun! Biz haqq yolundayıq və haqq yolu Allah tərəfindən həmişə qorunur. Biz artıq 90-cı illərdə deyilik.

Təkrar edirəm, bu bizim haqq yolumuzdur. Azərbaycan qələbə çalacaq. Qarabağ Azərbaycandır! Qarabağın hər qarış torpağı Azərbaycanındır.

Hər gecə saat 4-ə, 5-ə qədər televiziya qarşısında oturub, ölkəmizlə bağlı baş verən hadisələri izləyirəm. Bütün media işçilərinə təşəkkür edirəm, bağrıma basıram. Biz Vətən müharibəsindəyik və torpaqlarımızı azad edirik. Tarixi bir zamanda yaşayırıq. Bu gün Azərbaycan tarixinə qızılı hərflərlə yazılacaq.

# "Qarabag? – mədəniyyətimizin bes?iyi": Gürcülü türbəsi

***Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə dağıdılan, talan edilən mədəniyyət ocaqları, abidələr, tariximemarlıq nümunəsi olan tikililər, Azərbaycan xalqının Qarabağda saxtalaşdırmaya və mənimsənilməyə məruz qalan zəngin mədəni irsi ilə bağlı həqiqətlərin beynəlxalq səviyyədə ictimailəşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən "Qarabağ - mədəniyyətimizin beşiyi" adlı layihə davam edir.***




Mədəniyyət Nazirliyindən "Unikal"a bildirilib ki, layihə çərçivəsində növbəti material Gürcülü türbəsinə həsr olunub.

Gürcülü türbəsi Qubadlı rayonunun Gürcülü kəndi ərazisində yerləşən XVIII əsrə aid tarixi-memarlıq abidəsidir.

Qubadlı rayonu 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra türbənin hazırki vəziyyəti məlum deyil.

Qeyd edək ki, layihə çərçivəsində mədəni irsimizə qarşı vandalizm aktları, əzəli yurd yerlərimizdəki abidələr, tarixi həqiqətlərin yerli və dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün hazırlanan məlumatların müxtəlif dillərdə qlobal internet məkanında, o cümlədən sosial şəbəkələrdə yayılması nəzərdə tutulur.

# Ermənistanın raket zərbələri Gəncədəki alman tarixi və mədəni irsi üçün təhlükə mənbəyidir

***Ermənistan ərazisindən Azərbaycanın cəbhə bölgəsindən uzaqda olan Gəncə, Şəmkir şəhərlərini raket atəşinə tutması almanların bu ərazidə qorunan tarixi və mədəni irsini təhlükə altına qoyur.***

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, bu fikir Alman-Azərbaycan Cəmiyyətinin İdarə Heyətinin sədri, professor Çingiz Abdullayevin imzası ilə Almaniyanın hökumət və bundestaq (parlament) üzvlərinə ünvanlanan məqaləsində əksini tapıb. Qeyd edilib ki, söhbət 200 il öncə Gəncə ətrafında, əsasən Göy-Göl (Helenendorf) və Şəmkir (Annenfeld) ərazisinə Baden-Vürtenberq torpağından köç edərək məskunlaşan almanların bu gün respublikada, o cümlədən Gəncədə qorunan tarixi və mədəni irsindən gedir.

Müəllif xatırladıb ki, Azərbaycanda alman irsi yaxşı mühafizə olunur və Azərbaycan Prezidenti İlham Əliyevin 30 avqust 2016-cı il tarixli "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" imzaladığı sərəncam buna sübutdur. Amma işğalçı Ermənistan ordusunun artilleriya və raket zərbələri alman abidələrinə də ziyan vura bilər.

"Qərb və Şərqin qovşağında yerləşən Azərbaycan Respublikası beynəlxalq münasibətlər sisteminin faktorudur. Onun suverenliyi beynəlxalq hüquq normaları ilə qorunur. Xalqımızın ərazi bütövlüyü uğrunda apardığı mübarizə dövlətimizin suveren hüququdur. Bu mənada multikultural ənənələri özündə birləşdirən, tolerant dəyərləri qoruyan Azərbaycan xalqına qarşı yönələn erməni təcavüzünə nə ad verək?", - professor sual edib.

# Ölkəmiz beynəlxalq musiqi festivalında təmsil olunacaq

***Bu ayın sonunda ölkəmizin də iştirak edəcəyi beynəlxalq musiqi festivalı keçiriləcək. Koronavirus pandemiyası səbəbindən festival onlayn şəkildə reallaşacaq.***

Bu barədə "Unikal"a Əməkdar artist, xanəndə Qoçaq Əsgərov məlumat verib. Onun sözlərinə görə, xanəndə özü Ukraynanın təşkil etdiyi bu festivalın münsiflər heyətində təmsil olunacaq. "Münsiflər heyətinin rəhbəri "Eurovision-2004"ün qalibi Ruslanadır. Artıq bizim iştirakçılar Almaxanım Əhmədova və Kamran Məmmədovun lentə alınan ifaları festivala təqdim olunub. Azərbaycanlı iştirakçıların adı festivalda "Qarabağın təmsilçiləri" olaraq qeyd olunub. Təşkilatçılarla söhbət zamanı onlar məni qabaqladılar və bildirdilər ki, "bu yarışmada Ermənistan adlı ölkə iştirak etməyəcək", - deyə Qoçaq Əsgərov bildirib.

Qeyd edək ki, festivalda seçilən ifaçılar gələn il Monteneqroda keçiriləcək festivala dəvət alacaqlar.

Məlumat üçün bildirək ki, sözügedən festivala Azərbaycanla yanaşı, Türkiyə, Özbəkistan, Gürcüstan, Belarus, Rumıniya, Moldova, Albaniya, Latviya və digər ölkələr təmsil olunacaq.

# Ordubadda qədim abidələr aşkarlanıb

***AMEA-nın Naxçıvan Bölməsində Ordubad rayon ərazisində fəaliyyət göstərən Xaraba Gilan arxeoloji ekspedisiyası yeni qədim abidələr aşkarlayıb.***

Akademiyadan verilən məlumata görə, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli bildirib ki, Xaraba Gilan arxeoloji ekspedisiyası 64 kv. metr sahədə arxeoloji qazıntı aparıb.

Tədqiqatlar nəticəsində 40-a qədər daş balta, son tunc dövrünə aid gil küpün içərisində 5 ədəd tuncdan hazırlanmış boyunbağısı ilə birgə dəfn olunan uşaq qəbri və kurqantipli qəbirlər aşkar edilib.

# "Şəhidlər ölməz, Vətən bölünməz!" layihəsi davam edir

***Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında həyata keçirilən "Şəhidlər ölməz, Vətən bölünməz!" layihəsi davam edir.***

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, layihə çərçivəsində növbəti dəfə Azərbaycan Yazıçılar Birliyinin üzvü, şairə Sənəm Səfərova (Sənəm Səbayel) "Ölümü öldürən ölməz" şeirini təqdim edib.

Torpaqlarımızın azadlığı uğrunda canından, qanından keçən şəhidlərimiz and yerimiz, qürurumuz, fəxrimizdir. Şəhidlik bir zirvədir. Bu zirvəyə ucalan, əbədi ömür qazanan igid Vətən oğul və qızlarının xatirəsini əziz tutmaq hər birimizin müqəddəs borcudur.

Şairə Sənəm Səbayel də öz hisslərini misralara çevirərək oxuculara çatdırıb.



# Saçları necə yumalı?

**İndiyə kimi saçlarınızın yuyulmasında səhvlərə yol verdiyinizi bilirdinizmi?**

Sizin bahalı bir paltarınız, qiymətli daş-qaşlarınız ola bilər. Amma, əgər saçlarınız gözəl görünmürsə o zaman bunların heç bir əhəmiyyəti qalmır. Çünki, bir qadını gözəl göstərən onun saçlarıdır. Saçların gözəl görünməsinin sirri isə ona göstərilən düzgün qulluqdan asılıdır.

Qadınların saçları onların necə qadın olmalarının göstəricisi sayılır. Saçların gözəl olması qadının ətrafdakılara gözəl görünməsinə səbəb olan amildir. Bu səbəbdən də qadınların saçlara daha çox diqqət yetirmələri lazımdır.

Saçlara qulluq etmək ilk növbədə onu necə yumaqdan başlanır. Əgər saçlarınıza yetərincə qulluq eməsəniz və onları lazım olan qaydada yumasanız bu saçlarınızın tədricən korlanmasına səbəb olacaq.

## Saçların korlanmaması üçün onları necə yumaq lazımdır?

Bəzi insanlar hər gün saçlarını yuyurlar. Buna səbəb onların saçları kirli və yağlı olmasıdır. Bu sözləri hər gün saçlarını yuyan adamlar söyləyir. Saçlarının kirli və yağlı olmasını düşünərək onları hər gün yuyanlar özləri də bilmədən saçlarının strukturunu korlayırlar. Uzun müddət hər gün yuyulan saçlar bir müddət sonra quru və cansız hala düşürlər.

## Saçların korlanmasına nələr səbəb ola bilir?

1. Saçları hər dəfə eyni və keyfiyyətsiz şampunlarla yuyan adamlar da saçlarının korlanmasına səbəb olurlar. Əslində şampundan tez-tez istifadə etmək saçlara zərər vurur. Tez-tez şampundan istifadə etmək saçların yağlılığını artırır.

2. Saçları yuyarkən saç dərisini bərk-bərk övkələmək saçların quruduqdan sonra tez yağlanmasına səbəb olur.

3. Eyni şampundan istifadə etmək saçların korlanmasına səbəb ola bilir.

4. Çox isti su ilə saçların yuyulması zamanı saçların keyfiyyəti itə bilir. Bu səbəbdən də saçları yuyarkən orta tempraturda sudan istifadə edilməlidir. Çox isti su saç dərisini qurudur və saçları zəifləDİr.

5. Saçlarınızın xüsusiyyətini yaxşı öyrənin. Bu sizə saçınızın xüsusiyyətlərinə uyğun şampun almağa kömək edər. Saçiniza uyğun olmayan şampun saçlarınızın korlanmasına səbəb olur.

6. Saçlarınızı yumazdan əvvəl saçlarınızı darasaız yaxşı olan. Bu sizin saçlarınızdakı saç laklarının, jelelərin tökülməsinə və saçlarındaha yaxşı yuyulmasına səbəb olar. Çünki, kimyəvi vasitələr olan saçları daramamış yuduqda saçlar tam təmiz olmur və daha da korlanır.

7. İstifadə edilən şampunun miqdarına diqqət yetirin. Çox şampundan istifadə etmək saçların korlanmasına səbəb ola bilir. Düzdü, şampunun miqdarı saçların ölçüsünə görə götürülür. Amma, həddindən artıq istifadə etmək saçları korlayır.

# Özünüzdə mineral çatışmazlığı olduğunu bilmək istəyirsinizmi?

***Siz özünüzdə mineral çatışmazlığı olduğunu bilmək istəyirsinizmi? Oxuyun və özünüz təyin edin!***

Əgər sizin qolunuzda səpgilər, dırnaqlarınızda qopmalar və baş ağrılarınız varsa o zaman aşağıakılara diqqət yetirin.

Orqanizminizdə mineralların az olmasını bilmək üçün həkim olmağa ehtiyac yoxdur. Siz bu çatışmazlığı özünüz də təyin edə bilərsiniz.

Mineralların orqanizmdə normadan az olması özünü müxtəlif patoloji əlamətlərlə göstərir. Qida rasionunda mineralların az olması və ya mineralların orqanizmdən pis sorulması öz əlamətləri ilə meydana çıxır.

Əgər insanda maqnium çatışmzlığı varsa o zaman baş ağrıları meydana çıxır. Bu da 75% insanlarda baş verir. Maqniumun çatışmazlığı özünü əzələ spzmları və baş ağrıları ilə göstərir. Sizdə oxuduqlarınız əlamətlər varsa o zaman tərkibində çoxlu maqnium olan qidalarla qidalanın. Bu zaman baş ağrılarından və əzələ spazmlarından xilas olacaq və sağlam yaşayacaqsınız. Hər bir mineral özünəməxsus şəkildə patologiyalar əmələ gətirir.



**1 Sink çatışmazlığı və sızanaqlar**

Sızanaqlar orqanizmdə sinkin çatışmazlığından əmələ gəlir.Üzdə, kürəklərdə, çiyinlərdə, döşlərdə və qarın bölgədə olan sızanaqlar orqanizmdə sink mineralının çatışmazlığından meydana çıxır.

**2 Maqnium çatışmazlığı və baş ağrıları**

Stress və yorğunluq baş ağrılarına səbəb olur. Yorğunluq və stressin əmələ gəlmə səbəbi isə orqanizmdə maqniumun çatışmazlığıdır. Qida rasionunuza səhər yeməyi zamanı banan və kələm əlavə etsəniz bu əlaməti aradan qaldıra biləsiniz.

**3 Kalsim, maqnium və əzələ spazmları**

Əzələlərdə spzmların baş verməsi maqnium və kalsium çatışmazlığından meydana glir. Hər gün süd için və isti vanna qəbul edin. Vannaya ingilis duzu tökməyi yaddan çıxarmayın.

**4 B7 və dırnaqların quruyub qopması, saçların ucunun haçalanması**

Dırnaqlarda və saçlarda əmələ gələn quruluq və keyfiyyət pozuntuları B7 vitamininin çatışmazlığından meydana gəlir. Hər gün qida rasionunuza badam, maya və pendir əlavə etsəniz bu problemi aradan qaldıra bilərsiniz.

**5 Dəmir çatışmazlığı və zəif saçlar**

Əgər saçlarınızı daradıqda saç tökülməsi, saçlarınızda saçqıranlar müşahidə edirsinizsə o zaman sizdə dəmir çatışmazlığı var.

**6 Dırnaqlarda ağ ləkələr**

Dırnaqlarda ağ ləkəlrin olması orqanizmdə yağ turşularının çatışmazlığının göstəricisidir. Orqanizmdə yağ turşularının az olması dırnaqların başlanğıc hissəsində ağ ləkələrin əmələ gəlməsinə səbəb olur. Əgər sizdə belə hal müşahidə edilərsə o zaman qida rasionunuzdan tərkibində Omeqa3 yağları olan qidaları əskik etməyin. Omeqa3 yağı balıq və balıq məhsullarında, balıq yağında və qozda olur.

# Gecə tərləmələri nədən baş verir və qarşısını necə almağın yolları

***Tərləmək insan bədəninin təbii yollarla sərinləməsidir. Tərləmə ən çox isti havalarda müşahidə edilir. Ancaq, tərləmənin hansı vaxtda baş verməsinin önəmi çoxdur. Bəzi insanlarda gecə yatarkən tərləmələr baş verir. Bu cür tərləmə isə bəzən bir təhlükəli siqnal rolu oynaya bilər Yəni, gecə tərləmələrinin səbəbini araşdırmaq üçün mütləq həkimin müayinəsi lazım gəlir. Çünki, əksər vaxt gecə tərləmələri müxtəlif xəstəliklərin əlaməti ola bilir.***

1. Gecə tərləmələrinə ilk növbədə otağın havasının isti olması səbəb olur. Bunun baş verməməsi üçün isə yatmadan əvvəl otağın havasına diqqət yetirmək lazımdır.

2. Bəzən gecə tərləmələri nəmişlik olan otaqda yatan zamanda da əmələ gələ bilir.

3. Qalın paltar, sintetik alt geyimləri, həddindən artıq isti və ya sintetik yorğanlar da insanların gecələr tərləməsinə səbəb ola bilir.

4. Bədən tempraturunun yüksəlməsi insanların gecələr tərləməsinə səbəb ola bilir. Bu müxtəlif infeksiya xəstəlikləri zamanı meydana çıxır.

5. Qadınlarda gecə tərləmələrinin baş vermə səbəblərindən biri də hormonal pozğunluqlardır. Ən çox menopauza dövründə qadınlarda gecə tərləmələri baş verir.

6. Kişilərdə gecə tərləmələri testosteronun çatışmazlığı səbəbindən baş verir. Buna səbəb isə androgenlərin miqdarının aşağı düşməsidir.

7. Bəzi tərlədici dərmanları qəbul etmək gecə tərləmələrinə səbəb olur. Bu dərmanlara antipretiklər və qızdırmasalıcı dərmanlar aiddir.

8. Gecə tərləmələri vərəm və ya AİDS xəstəlikləri səbəbindən də baş verə bilir.

9. Yatmazdan əvvəl spirtli içki qəbul etmək gecə tərləmələrini səbəb olur.

**Gecə tərləmələrinin qarşısını hansı təbii vasitələrlə almaq olar?**

İlk növbədə yatmazdan əvvəl otağın havasına nəzarət edilmlidir. Yatmaq



üçün otağın tempraturunun 20-23*-də olması vacibdir. Otağın istiliyi insanlara görə fərqli ola bilir. Gecələr tərləyən adamlara təbii parçadan tikilmiş alt paltarı geyinmək lazımdır. Gecələr tərləyən adamlara stress və gərginlikdən uzaq durmaq tövsiyə edilir. Ada çayı və qatırquyruğu dəmləmələri gecə tərləmələrinin qarşısının alınmasına yardım edir. Bu bitki dəmləmələri insanın stressini aradan qaldırır və sinir sistemini sakitlşdirməklə tərləmənin qarşısını alır.

# İnsan həyatını uzadan çox qədim ressept

***Bu resept 1971-ci ildə Tbilisi monastırında tapılmışdır. Əlyazma b.e.ə. V əsrdə yazılıb. Əlyazma dünyanın bütün dillərinə tərcümə edilib və paylaşılıb.***

**Reseptdə aşağıdakılar qeyd edilib:**

- 100 qram çobanyastığı
- 100 qram dəvədabanı
- 100 qram solmazçiçək
- 100 qram ağcaqayın toxumu

Məhsullar qəhvəüyüdəndə üyüdülür, şirli qaba tökülür. Hər axşam 1 xörək qaşığı qarışıma yarım litr qaynar su əlavə edilir, 12 dəqiqə ərzində dəmlənir. Dəmləmə tənzifdən süzülür və 1 stəkana 1 çay qaşığı bal əlavə edilib içilir. Dəmləməni içdikdən sonra heç bir qida qəbul edilməməlidir.

Səhər bankada qalan 1 stəkan suya yenidən 1 çay qaşığı bal əlavə edilir və acqarına içilir. Müalicə qarışım qurtarana kimi davam etdirilir. Müalicə 5 ildən bir təkrarlanır.

# Keçmiş futbolçular İlham Əliyevə müraciət etdilər

***"Neftçi" futbol klubunun Rusiyada yaşayan keçmiş futbolçuları Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan prezidenti İlham Əliyevə müraciət ünvanlayıblar.***

"Unikal" qəzeti xəbər verir ki, veteran futbolçular tezliklə Azərbaycan bayrağının Şuşada dalğalanacağına inandıqlarını bildiriblər:

"Hörmətli İlham Heydər oğlu!

Biz, "Neftçi" futbol klubunun Rusiyada yaşayan veteranları, 30 il əvvəl işğal olunmuş torpaqlarımızın rəşadətli, müzəffər Azərbaycan ordusu tərəfindən azad edilməsini diqqətlə izləyirik. Xilaskar həmyerlilərimizlə fəxr edir, sülh və ədalətin təntənəsi üçün öz oğullarını müqəddəs savaşa yola salmış analarla birgə həyəcan keçiririk.



İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın üçrəngli bayrağı tezliklə Qarabağda, onun mirvarisi Şuşada dalğalanacaq, dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir qarabağlının evində sülh bərqərar olacaq!

SSRİ idman ustaları:

Tofiq Abbasov Rafiq Əli-Zadə Rinat Kamalitdinov Rafiq Quliyev Vyaçeslav Lyoqkiy Nikolay Smolnikov İqor Çeremisov Vitali Şevçenko"

# Avropa Liqası: ən yaxşı adına namizədlər müəyyənləşdi

***UEFA Avropa Liqasında qrup mərhələsinin ilk turundan sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər məlum olub.***

"Unikal" qəzeti UEFA-nın saytına istinadən xəbər verir ki, ən yaxşı adına namizədlər arasında "Qarabağ"ın turnirdəki rəqiblərindən olan "Vilyarreal"ın futbolçusu Takfuso Kubo da var. Digər namizədlər isə "Lill"dən Yusuf Yazıçı, "Benfika"dan Darvin Nunes və "Lester"dən Keleçi İhinaçodur.



Qalib, qitə futbol qurumunun rəsmi saytında azarkeşlər arasında keçirilən səsvermə nəticəsində müəyyənləşəcək.

# Azərbaycan millisinin rəqiblərinin bəlli olacağı vaxt dəqiqləşdi – DÇ-2022-də

***2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının Avropa zonası üzrə seçmə mərhələsinin püşkatma tarixi müəyyənləşib.***

"Unikal" qəzeti xəbər verir ki, tədbir dekabrın 7-də baş tutacaq. Sürixdə keçiriləcək mərasimə Avropa vaxtı ilə saat 18:00-da start veriləcək.

Bu bu barədə FİFA-nın rəsmi saytı məlumat yayıb. Koronavirus pandemiyası və tədbirlərlə bağlı məhdudiyyətlər üzündən püşkatma onlayn rejimdə təşkil olunacaq. Assosiasiya nümayəndələri püşk mərasiminə qatılmayacaq.

Azərbaycan millisi də daxil olmaqla, Avropanın 55 yığması püşkatmada 10 qrupa bölünəcək. Bunların beşində 6, beşində 5 komanda olacaq. İki dövrədən ibarət dairəvi sistemlə keçiriləcək oyunlardan sonra 10 qrup qalibi DÇ-2022-yə yüksələcək. İkinci yer sahibləri pley-offda iştirak edəcək. Bu 10 komandaya UEFA Millətlər Liqasından gələcək iki komanda da qoşulacaq. 12 yığma son üç vəsiqənin sahibini müəyyənləşdirəcək.




Qeyd edək ki, seçmə mərhələnin oyunları 2021-ci ildə keçiriləcək. Dünya çempionatının final mərhələsi isə 2022-ci ilin 21 noyabr-18 dekabr aralığında təşkil olunacaq.

# Özilə təklif

***İngiltərənin "Arsenal" klubunun futbolçusu Məsut Özil karyerasını ABŞ-da davam etdirə bilər.***

"Unikal" qəzetinin məlumatına görə, Almaniya yığmasının sabiq üzvü "Di Si Yunayted"in maraq dairəsinə düşüb.

MLS klubu yarımmüdafiəçini heyətində görmək niyyətindədir. Bu keçid qış fasiləsində - gələn ilin




yanvarında gerçəkləşə bilər.

Qeyd edək ki, Özil Premyer Liqa və Avropa Liqası üçün sifariş ərizəsinə salınmayıb.

# "Barselona"da yeni qalmaqal - rəhbərlik qərar verdi

***"Barselona"nın futbolçuları rəhbərliyin maaşların azaldılması ilə bağlı növbəti təklifini geri çevirib.***




"UNikal" qəzeti "Marca"ya istinadən xəbər verir ki, klub rəsmiləri ilə görüşdən imtina edən oyunçular yeni müqavilə şərtləri ilə razılaşmayacaqlarını bildiriblər.

Onlar komanda adından rəhbərliyə göndərilən məktubda öz hüquqlarının pozulmasına dözmək niyyətində olmadıqlarını vurğulayıblar.

Hətta Jerar Pike, Mark-Andre ter Ştegen, Kleman Lanqle və Frenki de Yonq kimi futbolçuların bu təklifə razılıq verməələri də digər futbolçuları fikrindən daşındırmayıb.

Qeyd edək ki, koronavirus pandemiyası səbəbindən 2019/2020 mövsümündə 97 milyon avro itirən "Barselona" zərəri futbolçuların maaşlarını azaldaraq, kompensasiya etmək istəyir.

# Koronavirusa inanmayan məşhur virusdan öldü

***COVİD-19-un varlığına şübhə edən 33 yaşlı fitness müəllimi Dmitriy Stujuk testinin müsbət olmasından sonra ölüb.***

"Unikal" qəzeti xəbər verir ki, Ukraynada yaşayan Stujuk 3 gün əvvəl 1,1 milyonluq "İnstagram" hesabında xəstəxanadan fotosunu yayaraq COVİD-19-a yoluxduğunu açıqlayıb.

Fenomen Türkiyədən istirahətdən qayıdarkən nəfəs darlığı və öskürək olduğunu hiss edib və həkimə gedib. O, testin nəticəsini öyrəndikdən sonra koronavirusa yoluxduğunu bilib.

Həkimlərin səyinə baxmayaraq, o, virusdan həyatını itirib.

Qeyd edək ki, məşhur fitness modelinin 3 övladı var imiş.

# "Neftçi"nin sabiq baş məşqçisi "Şerif"lə danışıqlar aparır

***"Neftçi"nin sabiq baş məşqçisi Roberto Bordin yenidən "Şerif"i çalışdıra bilər.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə sputnik.md saytı məlumat yayıb.

Bildirilir ki, italyan mütəxəssis Moldova klubu ilə danışıqlar aparır. Onun bu həftə Tiraspol təmsilçisindən ayrılan xorvatiyalı Zoran Zekiçi əvəzləyəcəyi gözlənilir.

Qeyd edək ki, Bordin 2016-2018-ci illərdə "Şerif"i çalışdırıb. Komanda onun rəhbərliyi altında Moldova çempionluğunu (2 dəfə), kubokunu (1) və Super Kubokunu qazanıb. İtaliyalı məşqçi 2018-2020-ci illərdə "Neftçi"nin sükanı arxasında olub.

# "Roma"nın futbolçusu koronavirusa yoluxdu

***"Roma"nın müdafiəçisi Canluka Mançini koronavirusa yoluxub.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə futbolçu sosial şəbəkə hesabında məlumat yayıb. Özünü yaxşı hiss edən italiyalı mərkəz müdafiəçisi karantində olduğunu bildirib.

# Güləşçilər dünya çempionatından imtina etdi

***Güləş üzrə ABŞ yığması dünya çempionatında iştirak etməkdən imtina edib.***

"Unikal" qəzetinin məlumatına görə, buna səbəb koronavirus pandemiyasıdır. Yığma üzvlərinin təhlükəsizliyini nəzərə alan yerli federasiya komandanın mundiala qatılmamasını məqsədəuyğun sayıb. Bu üzdən də amerikalılar bu il Serbiyada təşkil olunması planlaşdırılan yarışı buraxacaq. Qeyd edək ki, dünya çempionatı dekabrın 12-20-də Belqradda keçiriləcək.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# Müğənnilər arasında vətənpərvərlik davası



***Müğənni Rəqsanə İsmayılova həmkarlarını tənqid edib.***

"Unikal" mediapost-a istinadla xəbər verir ki, o, video paylaşaraq hazırkı müharibə şəraitində vətənpərvərliklə bağlı klip çəkdirən, fotosessiya etdirən həmkarlarına sərt sözlər deyib:

"Heç kim sözümdən inciməsin, hazırda nə klip, nə mahnı vaxtıdır. Öz yaxınımız öləndə belə edirik? Bu qədər şəhid vermişik, Gəncədə yaşananlar, itirdiyimiz körpələr, neçə bala kimsəsiz qaldı. Hər şeyin vaxtı var, klip də, şəkil də çəkdirərsiniz, mahnı da oxuyarsınız. Ayıbdır. Hərəkətinizə fikir verin, insanların canı yanır. Hələ arsız-arsız çəkilişlərdə gülürsünüz, qəhqəhə çəkirsiniz, utanıram. Nə zaman torpaqlarımız tam azad olar, hər şey yoluna düşər, onda nə istəyirsiniz edin. O ölən körpələrdən utanın, abrınız-həyanız olsun".

İfaçının bu fikirlərindən sonra sosial mediada müzakirə başlayıb. Tənqidlərə qoşulanlar sırasında müğənni Səidə Sultan da olub. İfaçı bəzi məşhurları süni vətənpərvər adlandırıb:

"Biri hərbçi şalvarı geyinir, biri əlinə silah alır, üzündə 80 kq makiyajla əynində əsgər forması marş, milli mahnılar oxuyurlar. Nə olub? Bu vaxta qədər yadlarına düşmədi, indi bəhsə giriblər, hər bir məqamdan reklam "tuturlar". Süni vətənsevərlər. Neçə ildir oxuyuram, vətən mahnım yoxdu. Özümə həmişə söz vermişdim nə vaxt torpaqlar alınar, onda da oxuyaram".

Xatirə İslam hazırkı vəziyyətlə bağlı depressiyada olduğunu yazıb: "Çox həssas dönəm yaşayırıq. Elə bir haldayam ki, izləyicilərimlə 5 dəqiqə canlı ünsiyyətə girə bilmirəm. Özümü çox piss hiss edirəm. Ağlamaqdan gözümbaşım şişib, camaatın qarşısına çıxası formada deyiləm. İstəmirəm məni belə görsünlər, Allah hamımıza kömək olsun!".

Yaxın günlərdə vətənpərliklə bağlı mahnısı işıq üzü görən Günel Zeynalova isə "Biz birlikdə güclüyük, qələbə qazanacağıq. 30 il bir igidin ömrüdür. Qurban olum körpələrə, analara, atalara. Ürəyimiz qan ağlayır", - deyə bildirib.

Müğənni Xatun Əliyeva isə bir vaxtlar küsülü olduğu Rəqsanənin videosunu paylaşaraq ona dəstək olub:

"Ürəyimdən tikan çıxardın. Hərə bir əsgər forması geyinib fotosessiya etdirir, klip çəkdirir. Bu can-fəşanlıqla torpaq alınmır. Bu vaxta qədər bir şey edə bilməmisiniz, indiyə qalıb ucuz və havayı piarınız? Kaş İnstaqramı bağlayardılar, bu ağrılı günlərdə sizi görməzdik. Sizi tanıyıram, qabınızda qanacaq yoxdur, bəs, yanınızda bir normal adam yoxdur ki, desin, ayıbdır, bir hor oturun? Sizə mahnı verən də, klip çəkənlər də tayınızdır, reklamı müharibəyə saxlayanlardır. Kliplər də hamısı reklam üçün pulsuz çəkilir. Allah sizə ağıl versin!".

Türkiyədə yaşayan müğənni İradə İbrahimova isə Rəqsanəyə belə postlar paylaşmamasını məsləhət görüb:

"Sənə qurban olaram, ermeniləri sevindirməməliyik. Onlar bizim yaslarımıza baxıb, məsxərəyə qoyurlar. Çox şərəfsiz, qaniçən düşmənlə vuruşuruq".

## "Ya öləcəkdik, ya da didərgin düşəcəkdik" – Günay İbrahimli

***Müğənni Günay İbrahimli bir neçə gün öncə işğaldan azad olunan Füzuli şəhəri ilə bağlı xatirələrini yazıb.***



"Unikal" mediapost-a istinadla xəbər verir ki, sənətçi işğal zamanı babasının əsir düşdüyünü açıqlayıb: "O illəri bir gün olsun belə unutmadım... İsti ocağımdan, yurdumdan, yuvamdan qaçdım. Ya öləcəkdik, ya da didərgin düşəcəkdik. Yaşaya bilmədiyim uşaqlığım, gözüyaşlı xatirələrim var mənim... Babam əsir düşdü. Ailəmin çətin günləri dünən kimi yadımdadır. Elim-obam, yurdum, evim alındı əlimdən. Keçmişimi heç vaxt danmadım. Əksinə, o illərin ağrı acısını görmüş, uşaqlıq illəri əlindən alınmış, torpağından qovulmuş bir ailənin övladı olduğum üçün qürurluyam. Bu günü gözləyirdim. Bu anı arzu edirdim. Bizim kimi evindən qaçan hər bir Füzuli balası, bu gün o gündür! Babam... babalar, nənələr, itkin düşmüş atalar, şəhidlər, qaçqınlar, qisasınız alındı! Biz Füzuliyə gedirik! Bu sevinci bizə yaşatdığınıza görə Cənab Prezident İlham Əliyev, Sizə və ordumuza sonsuz təşəkkür edirəm!".

G.İbrahimli Füzulidə çəkilmiş uşaqlıq fotolarını da izləyiciləri ilə bölüşüb.

## "Bir ay öncə "çıx get" deyirdik, amma indi..." - İlkin Həsəni

***Aparıcı və aktyor İlkin Həsəni "Facebook" səhifəsində maraqlı paylaşım edib.***



"Unikal" big.az-a istinadla xəbər verir ki, aparıcı 2020-ci il haqında bu fikirləri səsləndirib:

"Yaşadığımız bu ildə hadisələr o qədər tez dəyişdi ki, adam hisslərini cilovlaya bilmir. 1 ay öncə "çıx get, 2020" dediyimiz halda indi, "sən nə gözəl ilsən" deyirik. O qədər bu hadisələrin içindəyik ki, cəbhədən şad xəbər eşitməyəndə məyus oluruq. Bu aralar doğum gününü qeyd edənlər də mənimlə razılaşar ki, hal-hazırda o hayda deyilik. Cəbhədən gələn xoş xəbərlər isə ən böyük hədiyyədir bizim üçün! Ona görə də bütün dostlardan, tanışlardan, yaxınlardan xahiş edirəm ki, fotomu paylaşıb təbrik etməyin. Vallah səmimi deyirəm, elə zəfər xəbərlərimizi paylaşın bəs edər. Anlayışınız üçün təşəkkür! Var olun!".



## Azərbaycanlı müğənninin oğlu orduya könüllü yazıldı

***Əməkdar artist Mətanət İsgəndərli sosial media hesabında maraqlı paylaşım edib.***

"Unikal" ölkə.az-a xəbər verir ki, sənətçi sosial media hesabında paylaşım edərək orduya yardım edən şəxslərə öz təşəkkürünü bildirib. Üstəlik, o, oğlunun da könüllü orduya yazıldığını qeyd edib.

"Oğlum da könüllü olaraq adını yazdırıb. Zamanı gəldiyində onu da çağıracaqlar. Yaşasın Azərbaycan ordusu! Yaşasın Ali Baş Komandan!".